**Azərbacan Milli Elmlər Akademiyası**
**akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

# AZƏRBAYCAN – NİZAMİ POEZİYASINDA
## (çevirmələr toplusu)

***Çevirəni və tərtib edəni:***
***Rəşid Təhməzoğlu, şair-tərcüməçi,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***dosent***

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**"ZƏNGƏZURDA"**
**çap evi**
**Bakı – 2019**

**Azərbaycan Milli Elmlər Akademiyası
akad. Z.M.Bünyadov adına Şərqşünaslıq
İnstitutunun elmi şurasının qərarı ilə nəşr olunur.**

***Elmi redaktoru:*** *Aydın Abi Aydın,
Filologiya elmləri doktoru, professor*

***Rəyçi:*** *Nüşabə Araslı,
AMEA-nın müxbir üzvü, filologiya elmləri
doktoru, professor*

***Poeziya üzrə məsləhətçi:***
*[Söhrab Tahir AzərAzər], xalq şairi*

***Fars dili üzrə məsləhətçilər:***
*Qabil Camalov,
filologiya üzrə fəlsəfə doktoru*

*Aygün Əlizadə,
filologiya üzrə fəlsəfə doktoru*

*Saleh Dostəliyev, elmi işçi*

**Azərbaycan Nizami poeziyasında (çevirmələr toplusu).**
Bakı: "Zəngəzurda" çap evi, 2019, 200 səh.

*Topluya xıı yüzilliyin dahi sənətkarı Nizami Gəncəvinin əsərlərindən Azərbacanla bağlı parçaların və bu yönümdə bir sıra qəzəllərin yeni çevirmələri daxildir. Toplu ulu yazarın yaşam və yaradıcılığının doğma yurdu Azərbaycanla bağlılığına dair nizamişünaslar qarşısında duran bir sıra mühüm problemlərin araşdırılmasına fəal kömək etmək məqsədilə tərtib olunmuşdur. Şairin öz oğluna öyüdlərinin yeni çevirmələri də bu məqsədi daşıyır.*

T $\frac{4905020600000}{0148}$ 2019

©Rəşid Təhməzoğlu
©"Zəngəzurda" çap evi

# ELMİ REDAKTORDAN

***Öz misilsiz dəyərə malik əsərləri ilə dünya mədəniyyəti xəzinəsini bəzəyən ulu sənətkarların sayı o qədər də çox deyil. Bu məhdud saylı yazarların sırasında XII yüzilin dahi şairi Nizami Gəncəvinin də adı qızıl hərflərlə yazılır. Bütün varlığı və yaradıcılığı ilə Azərbaycana bağlı olan qələm sahibindən biz bu gün böyük iftixar hissi ilə söhbət açırıq. Ona görə ki, şairin dünyanın görkəmli sənətkarlarını heyrətə gətirən poetik əsərləri, məhz doğma Gəncədə – Azərbaycanın bir guşəsində yaradılıb, buradan qol-budaq atıb şaxələnibdir. Nizami Gəncəvini Azərbaycansız, ana yurdu Azərbaycanı isə belə müqtədir sənətkarsız təsəvvür etmək ağılasığmazdır.***

***Adlı-sanlı yazarın əsərləri hələ öz sağlığında müasirləri tərəfindən yüksək dəyərləndirilmiş, yaradıcılığına əlçatmaz bir ucalıq kimi baxılmışdır. Yüzilliklər ötdükcə bu əsərlərə nəzirələr yazılmış, bir sıra şairlər özlərini ona bənzətməklə və Nizami Gəncəvinin şagirdi olmaqla fəxr etmişlər. Bu baxımdan, ayrı-ayrı Şərq xalqları sənətkarlarının qələmə aldıqları nəzirələri xüsusi dəyərləndirilməli oluruq. Həmin sənətkarlar Nizami Gəncəvinin əsərlərinə nəzirələr yazmaqla yanaşı, onu Varlığın ən parlaq zəkalarından biri, poeziyanın ölçüyəgəlməz ucalıq timsalı kimi qiymətləndirmişlər. Bu isə şairin əsər-***

*lərində yüksək poetik əksini tapan ideya-məzmun incəliklərinin və bədii-estetik sənətkarlıq amillərinin nəticəsində, mümkün olmuşdur. Demək lazımdır ki, sənətkarlıq amilləri səviyyəsinə Nizami Gəncəvidən sonra, həm də dünyanın heç bir şairi ucala bilməmişdir.*

*Sözsuz ki, bu yönümdə yaradıcılıq ucalığı onun poeziyasının araşdırılmasına və çevirmələrinə Azərbaycandan öncə, Avropa ölkələrində başlanmışdır. Bununla da dünya nizamişünaslığının təşəkkülü və sonrakı inkişafı üçün ilkin imkanlar açılmışdır.*

*Doğrudur, öz növbəsində, bir sıra klassik Azərbaycan şairləri də nəzirələr yazmaqla Nizami Gəncəvinin sənətini uca tutmuşlar. Lakin XX yüzilin 40-cı illərinə kimi, onun əsərləri doğma Azərbaycan dilinə tərcümə olunmamış, poetik irsi araşdırılmamışdır. Bunun başlıca səbəblərindən biri də şairin poeziya nümunələrinin fars dilində yazılmasıdır. Bu isə yüzilliklər boyu onun «fars şairi» olması kimi, yanlış fikir formalaşdırmışdır.*

*Dahi sənətkarın anadan olmasının 800 illik yubileyinin təntənəli surətdə qeyd edilməsi yazarın şəxsiyyəti barədə birtərəfli baxışları, qismən aradan qaldırmağa geniş yollar açdı. Bir neçə il ərzində həyata keçirilən yubiley tədbirləri ilə onun əsərlərinin Azərbaycan dilində yeni nəşri və poetik çevirmələri meydana çıxmış oldu. Bu çevirmələr sayəsində, aydınlaşdı ki, heç bir fars şairi, Gəncədə doğulsa belə, Azərbaycan təbiətini, Azərbaycan xalqının adət və ənənələrini, siyasi-ictimai durumunun Nizami kimi təsvir etmək iqtidarında deyildir. Fars əsilli şair öz oğluna azərbaycanlı atatək öyüdlər verə bilməz, onu "türkzadəm" adlandırmazdı. Yubiley münasibətilə araya gələn çevirmələr sonradan dəfələrlə nəşr edilmiş və xalqın sevimli sənətkarının yaradıcılığına yaxından bələd olmasından ötəri geniş şərait yaranmışdır.*

*Nizami Gəncəvinin ən təntənəli yubileylərindən biri də 1981-ci ildə qeyd olunmuşdur. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə yubileyin keçirilməsi barədə xüsusi qərar qəbul edilmişdi. Bu hadisə bir də onunla əlamətdar idi ki, şairin əsərlərinin çevirmələri yenidən buraxılmış, ilk dəfə olaraq onların filoloji tərcümələri nəşrə hazırlanmışdı. Göstərmək lazımdır ki, Azərbaycan klassik şairlərindən, yalnız Nizami Gəncəvinin tam poetik irsinin filoloji çevirmələri mövcuddur.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə Nizami Gəncəvinin də əsərləri buraxılmış və ölkə kitabxanalarına hədiyyə olunmuşdur.*

*Şairin sonuncu yubileyi Respublika prezidenti İlham Əliyevin 23 dekabr 2011-ci il tarixli sərəncamı ilə qeyd edilsin.*

*Rəşid Təhməzoğlunun (Quliyevin) oxuculara təqdim olunan bu çevirmə toplusu həmin sərəncama müvafiq hazırlanmışdır. Tərtibçi çevirmələr və toplunun tərtibi üzərində bir neçə il yaradıcılıq işi aparmışdır. Əsas məqsəd odur ki, Nizami Gəncəvinin Azərbaycanla bağlılığına dair elmi araşdırmalar aparılarkən, ilk növbədə, şairin öz əsərlərinə istinad edilməsidir. Fikrimizcə, bu yönümdə belə bir toplunun nəşri nizamişünaslardan ötrü etibarlı mənbələrdən sayıla bilər.*

**Aydın Abi Aydın,**
*filologiya elmləri doktoru, professor*



# "Sirlər xəzinəsi" ("Gizlimlər saxlancı") əsərindən



***Rəssam Fəxrəddin Əli.***
***"Sultan Səncər və qarı" miniatürü***



## "SİRLƏR XƏZİNƏSİ"
## ("Gizlimlər saxlancı") əsərindən
## Kitabın sonu barədə

Tanrı sənin dan yerini aydınlatsın, ey yazar,
Qələmimi yerə qoydum, əlində qələmin var!
Bəzədiyim qoy bu xalı gözəl olsun göylərdən,
Üzə çıxsın, bacarıqla nələr yaratmışam mən!
Əritdimsə gecə-gündüz bu qədər almaz, ancaq,
Şahım üçün düzəltmişəm, yalnız kiçik bir bıçaq.
Qılınclara gərək olan dəmir daş içindədir,
Bu dəmiri əritməyə kürəm dar biçimdədir.
Əgər varım olsa idi əlimdə bircə kərə,
İllərimi sovurmazdım bu cür xırda işlərə!
Ürəyimdən belə keçir, suçlu bir iş görmüşəm,
Varaqları qaralayıb, solğun çələng hörmüşəm.
Varlıq adlı bu çadırın gərdəyində gəlinlər
Bəzənib-düzəniblər çağ-çağ günəşli günlər.
Quzu əti şişliyi çək, boş yerə udma tüstü,
Duza qoyulmuş ətisə,yandır, at sən əlüstü.
İrəliyə getməyi də özünə eylə vərdiş,
Dərin düşün, düşünəndə düzələr çox ağır iş:
Sözü qulaqardına vur, sayğıdan olsa kənar,
Yubanmadan əz, at onu, sənə bu öyüdüm var!
Bayrağı heç uca qalxmaz, dayağı yoxsa sözün,
Üstündən sən qələmi çək, bu söz olsam da özüm!
Mənsə sözün bayrağını uca qaldırmasaydım,
Yollamazdım şəhər-şəhər, bu ki aydındır, aydın!
Çox sözümün bir tərəfdən bağlanıb ayaqları,
Ancaq qonşu diyarlarda vardır öz dayaqları!
Çağım mənə deyir ki: "- Bir tərpən öz yerindən,
Nə çox sən oturacaqsan, düşün, barı, dərindən!"
Yaratdığım anlamların heç ölçülməz dəyəri,
Tapanmazsan bəzəyini, hanı geyim bənzəri?!

Onların da nimtənəsi başdan dizə qədərdir,
Diz üstündə oturublar, axtarışın hədərdir!
Anlamların öz boyuna yaraşıqlı don gərək,
Onda, daha şax duracaq, geyimində bər-bəzək.
Bəs qazancım nədir mənim qoca və gənc gözündə?
Yalnız səsim yaşayacaq sözlərimin özündə!
Tapılmaz ki, bunda qızıl, amma hay-küyü çoxdur,
Bazarımda ağır iş var, daha heç nəyi yoxdur.
Gəncə məni etməsəydi özünə belə yaxın,
Yetişərdi, yoxsa mənə saxlancları İraqın!
Bütün Varlıq bir ağızdan bağırır qulamına,
- Gəncə sənə çox dar gəlir, Nizami sığmaz ona![1]
Gözlərim aydın olsun, bu kitab sona yetdi,
Yaşam sona çatmamışdan istəyim ona yetdi.
Nizaminin qələmindən vurulubdur min bəzək,
Onu başdan-ayağadək gövhərlə bəzəyərək.
Varlığı da gövhər saçan ulu şaha armağan
Gövhər saçan bu kitabım uğur gətirsin hər an!



# "Xosrov və Şirin" əsərindən



*Rəssam Fəxrəddin Əlİ. "Mehin Banu" miniatürü*

## “XOSROV VƏ ŞİRİN” əsərindən
## Kitabın tərtibi və sevginin incəlikləri barədə

Könlümün səs soraqçısı məni görüb şən,
Hay qopardı ucalığın son pilləsindən:
– Çox gecikmə, ey Nizami, tələsmək gərək,
Varlıq özü tez doyandır, gözləmir fələk!
Sevincinin bulağından yaşıl yaz çıxar,
Sözlərinə geyindir sən təptəzə paltar.
Bu mənzildə böyük şövqlə sazı al ələ,
Bu pərdədə öz yerində səs ver hər telə.
Çağsız-çağsız yol götürsən yolu kəsərlər,
Çağsız-çağsız banlayasan, başı kəsərlər.
Ona görə, bağlayıblar süsən dilini,
Sən açasan neçə günə susan dilini.
Söz - bərk polad, incə qızıl sikkəsidir, bil,
Bu dəyərlə dirhəmin də dəyərini sil!
Öncə, usta dəmirçitək qılıncı döy sən,
Sonra ona yaxşı-yaxşı kəsər verərsən!
Yoğrulmasa düşüncəndən sözün dəyərli,
Nə yazıya, nə deyimə olar dəyərli!
Sözə doğru düzüm vermək olsa da asan,
Söz düzümü üstdə gərək bərk dayanasan!
Sözün çoxsa, azaltmağa sən darılma heç,
Çalış biri yüz eyləmə, yüzdən biri seç!
Su özündən aşım-aşım aşsa həddini,
Çox içilsə, artıq olmaq itirər səni!
Qan damarda daşım-daşım daşsa nə qədər,
Onu belə daşqınlıqdan qurtarar neştər!
Söz yaratdın, az söylə ki, alsın dəyəri,
Artıq olsa, çox çəkərlər irad çəpəri.
Bəlkə, sözü çox söyləmək asandır sənə,
Desələr ki, “çox uzatma!” - dəyər şəninə.
Söz varlıqdır, Varlıq ondan dirilik alar,

Bu səbəbdən Varlıq kimi əziz tutular...
Adam var ki, ağlı, huşu yerində deyil;
Bir çörəyə varlığını alıb-satır, bil!
Sözü deyən üzgücüdür, söz-xalis gövhər,
Axı gövhər min zəhmətlə hasilə gələr!
Gövhər deşmək ustalara qorxudur, açıq,
Onun böyük dəyərindən qorxurlar, açıq!
Görmürsənmi, inci deşən usta şaşırar,
Bu işini şagirdlərə özü tapşırar...
Ya ayıqlıq, ya bayğınlıq səni üzməsin,
Elə yaşa, kimsə sənə dodaq büzməsin!
Min abırsız, yad adam var, sənə göz qoyur,
Hay-küy salır, köksün üstə yanar köz qoyur.
Yaşam boyu bir anı da keçirmə hədər,
Elə bilmə, işlərindən yox tutan xəbər..."
Öyüd alıb könlümün səs soraqçısından,
Tez çəkildim onun kimi gizlincə o an.
Bu gizlincdə ürək adlı ümman hey daşar,
Bütün Varlıq bulaqları burda qaynaşar.
Düşdüm şirin bir əfsanə izinə burda,
Bir od damı cənnət oldu özümə burda.
Büt evinin bəzəkləri tanışdı mənə,
Ona görə, istəmirdim, bəzəyim yenə.
Sözün özü Varlıq suyu adlandığından
Hər anlamı parlatmağa genişdir imkan.
Bacarırsan yazmağı ki, yalnız düzlüyü
Nəyə gərək neçə yalan ikiüzlüyü?!
Sözlər düşər dəyərindən, deyilsə yalan,
Sözü doğru söyləyəndir ad-sanda qalan.
Doğruçu da səhər çağı doğru yol tutdu,
Varlıq onu varlılartək qızıla tutdu.
Sərv ağacı uca tutar düzlük bayrağı,
Ondan ötrü talanlığı görməz güz çağı.



Bir "Gizlimlər saxlancı"tək vardır saxlancım,
Niyə tutsun həvəs üçün ağrılı sancım?!
Bu Varlıqda adam varmı, olsun həvəssiz,
Ya yaşamı başa vursun diləksiz, səssiz?!
Qələm çalıb, göstərmişəm mən böyük həvəs,
Ondan dalğın ola bilməz qəm çəkən hər kəs!
Elə gözəl bəzək vurdum təzə əsərə,
Oxuyanı ta aparsın dərinliklərə.
Özgələrtək əl atmadım elə budağa,
Yalnız xurma asa bilim belə budağa!
Gizli deyil "Xosrov ilə Şirin" dastanı,
Doğrudan da, ondan şirin hekayət hanı?!
Yuva salıb ürəklərin xoş istəyində,
Dustaq idi bir gəlintək öz gərdəyində.
Başdan-başa o hamıya yetməmişdi heç,
Bərdədəydi əlyazması, itməmişdi heç[2].
Qocaların yaddaşından ordaca mənə
Aşkar olub, üzə çıxdı həmin dəfinə...
Bu diyarda neçə ulu, ağsaqqal kişi
Yol göstərdi başlamağa mənə bu işi.
Öz çağında ağıl keylik etməsin gərək,
Başbilənlər söyləyiblər, doğrudur, demək!
Gerçəklikdən üzə çıxan şahidlər də var,
Gör onlardan neçə əsər qalır yadigar;
Durur yenə Bisütunda rəsmi Şəbdizin,
Durur yenə Mədaində qəsri Pərvizin.
Durur yenə şirin həvəs, sevgi əsiri;
Fərhadın da çəkdiyi arx, Şirinin qəsri.
Axır yenə sərin sulu, dumduru Şahrud,
Qalır ovlaq, Xosrovun öz məskəni bir yurd.
Barbədin də on altı tel sazının səsi,
Durur yenə Şahruddakı şahın türbəsi...
Bunlardan ki bir zamanlar söz açmış ustad,

Ancaq sevgi təsvirindən yan qaçmış ustad.
Çünki artıq haqlamışdı altmış yaş onu,
İtirmişdi gəncliyinin öz yay-oxunu.
Nə ürəkdə od qalmışdı, nə sevda başda,
Sevgidən söz salmaz idi, sözsüz, o yaşda.
Bilicilik eyləmişdi məndən də qabaq,
Söylənmişi mən təzədən demədim, ancaq.
Hansı yerdə ləngimişdi sevgi sözündən,
Mən danışdım, nə qaçmışdı onun gözündən.
Düşüncəmdə gözəl nə var bu sevgi kimi,
Ürəyimdə odu yoxsa, qırılsın simi...
Yox fələkdə tapım yeri sevgidən özgə,
Yox Varlığın bir dəyəri sevgidən özgə!
Doğru budur, yaşam boyu sevgiyə qul ol,
Sevən ürək yiyəsinin yoludur bu yol!
Varlıq - sevgi, bir oyundur, qalan nə ki var,
Bir sevginin üstündədir bütün oyunlar!
Diriliyi olmasaydı sevgi aləmin,
Dövranında kimsə diri qalmazdı yəqin.
Kim sevgidən yan qaçırsa, qurumuş budaq,
Yüz canı da olsa belə, quru qalacaq!
Sevgi tumu göyərməsə, heç dən göyərməz,
Yalnız sevgi komasında dinc qalar hər kəs!
Bu Varlıqda sevgi kimi yanar odmu var?
Sevgisiz nə çiçək açar, nə bulud dolar!..
Hər odsevər yanar oda veribsə ürək,
Günəşin də sevgisinə tapınıb, demək!
Heç bir ovsun tanımırsa özü sevginin,
Mənəmliyi görmür, sözsüz, gözü sevginin!
Səni ittək yeyib-yatmaq etməsin xumar,
Ürək sevsə, pişikdən də sevgini umar!
Bir pişiyi sevib, ona mehrini salsan,
Önəmlidir, özün üçün olsan da aslan!



- 246638 -

Ürəyinə sevgi axsa daşların belə,
Gövhəri də sevgilitək gətirər ələ!
Maqnit əgər vurğunluğu itirsə bir an,
Dəmiri də bu şövq ilə çəkməz heç zaman!
Yollar boyu düzülməsə sevgi nişanı,
Kəhrəbalar axtarmazdı belə samanı.
Öz yerində dayanıbsa çoxlu daş, gövhər,
Nə dəmiri, nə samanı özünə çəkər...
Saydan artıq olsa belə gövhər miqdarı,
Hamısı da meyl eyləyər mərkəzə sarı.
Od tapmasa, yerdən əgər bir çıxış yeri,
Can atacaq ucalığa, tez oyub yeri!
Sən baxma ki, ürəyindir canın sultanı,
Düş sevdaya, qoy canlansın Varlığın canı.
Ucalıqda qalsa sular istəyi qədər,
Onun yolu belədir ki, yerə meyl edər.
Torpağın cəzb eyləməkdən özgə nəyi var?!
Başbilənlər bu çəkişi sevgi sanırlar!
Həm qiblədən, həm də bütdən söhbət açar o,
Gah Kəbədə, xarabatda saxlanc açar o.
Dərin-dərin düşüncəyə dalarsansa sən,
Varlığı da sevgi üstdə duran görərsən!
Ulu göylər olsa idi sevgidən uzaq,
Belə üzə gülərdimi bu yer, bu torpaq?!
Mən sevgisiz can tapmadım özüm-özümdə,
Ürəyimi satıb aldım canı özüm də!
Ucqarları öz sevgimin tüstüsü aldı,
Ağlım isə gözü yumub, yuxuya daldı.
Bu dastanı yaratmağı bir istək saydım,
Sevginin xoş sədasını Varlığa yaydım...
Ondan dəyər götürməsin hər yetən alçaq,
Düz oxunsun, düz yazılsın çağlarca, ancaq!
Doğru dedim, yanlış yazan tapılsa, əgər,

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Mənə görə, öz suçunu yazıb göstərər.
O çağda ki bağlamışdım mən qapıları,
Söhbət üçün qol açırdım göylərə sarı.
Gah mələklər bürcünü mən kəsib qırırdım,
Gah ulduzlar örtüyünü çəkib cırırdım.
Dostum vardı; tək Tanrını ilkin tanıyan,
Yaxın olmuş yüz könüllə, üzmüş idi can!
Aslan kimi bağlamışdı qayğı kəməri,
Mənə - qalxan, yağıyasa – qılınc kəsəri!
Bu Varlığın qapısını örtmüş biliklə,
Sevinc üstdə ürəyi də ötmüş biliklə.
Bel bükülmüş qızıl halqa kimi gör necə?!
Bu halında o, qapımı döydü bir gecə.
Baş-gözünə döyə-döyə çağsız banladı,
Söz döndərdi, açıqlandı, məni danladı:
- Ey anlamlar varlığının hökm eyləyəni,
Bu uğurla alqışlaram ürəkdən səni!
Qırx il, bir də əlli çillə keçib o çağdan,
Sən düzdüyün bu sözləri silmə varaqdan!
Bu orucda möhkəm durdun, yolundan qaçma,
Murdarlanmış bir sümüklə orucu açma!
Heç bir istək səni yersiz bəndə salmamış,
Ürək varlıq istəyində, çünki olmamış.
Nizə uclu qələminin tutarı vardır,
Onda neçə saxlancın da açarı vardır.
Sən qızılla misi örtsən, nə marağın var?!
Sən qızılı gümüşə qat, dəyərli olar!
Nədən Qarun saxlancıtək meylin var yerə,
Bu Varlıqda bir ustadsan söz deyənlərə.
Tək Tanrıya tapın, onda, ad-san taparsan,
Yoxsa muğlar tapımını təzə yaparsan!
Ürəyini donuq sanar sözlər deyən kəs,
Çox da "Zənd"i oxuyansa bir ölü bilməz!"



Acı sözlər yağmurundan darılmadım mən,
Qaş-qabaqlı göylər kimi qaralmadım mən.
Könülçalan Şirinin də şirin nazından
Qulağına pıçıldadım bir neçə nişan!
Bəzəmişdim gözəlliyin öz ipəyini,
Göstərdim də o ipəyin söz bəzəyini.
Məşhur "Ərjəng"bəzəyini o insan görcək
Lal dayandı daşın üstə düşən naxıştək.
Ona dedim: " – Bu lallıqdan nə gəzirsən sən,
Dil-dil ötən dilin hanı, "əhsən" deyəsən?!"
Söylədi ki: «– Bir qulunam, bağışla məni,
Dilim, yalnız hər bir yerdə təriflər səni.
Şirinin də dastanını eşidən kimi,
Şirinlikdən udmuşam mən artıq dilimi.
Vurğunluğu qələminlə yaradarsan sən,
Kəbəni də düzəldərsən tək bircə bütdən!
Elə dada gətirdi ki, ağzımı sözün,
Ağzımdaca şəkər oldu dilimin özü...
Elə bu çağ şəkər təki dilimi yedim,
"–Qoy şəkərli olsun sənin dilin də!"– dedim.
Bu yolu ki sən açmısan, çatdır axıra,
Bu özülü sən qoymusan, salma çuxura.
Sənətində qoy yar olsun bəxtin də sənə,
Sağ-salamat yetişəsən söz bəhrəsinə!
Öz əlinə sən bir belə sikkə salmısan,
Bəs nədəndir, bir bucaqda düşüb qalmısan?!
Dustaq yerin sanma daha doğma Gəncəni,
Aç yüyəni əlindəykən aslan pəncəni.
Səyirt atı, bayıra çıx, genişdir meydan,
Gəncsən özün, gənclik yağır bəxt budağından.
Yox çağında gözəl şair çata bu ada,
Olsa belə, dura bilməz səndən ucada.
Sən bir dövlət quşu kimi qanadını çal,

Bayquşların caynağından diyarını al!
Şairlər var, dolanırlar öz çırağına,
Evlərində nur verirlər söz çırağına.
Tərk etsələr iki mənzil doğma şəhəri,
Heç birində olmaz parlaq işıq əsəri.
Göydə yanan al Günəşə çox bənzəyirsən,
Ta Doğudan Batıyadək tanınırsan sən!
Sözdə iti addım atıb, çıxdın qabağa,
Söz deyənlər çəkildilər gizli bucağa.
Gəlişinlə ucaldıbsan hünər hasarı,
İqlimlərin olacaqsan ilk söz çaparı!"
Açıqlanıb dedim ona: "- Oynama oyun,
Nə sən qəssab sayılırsan, nə də mən qoyun!
Söndürərsən çırağımı, üfürmə belə,
Bil, Musanı ayıltmazdı İsa da belə!
Boş sözləri alışdırma bir ocaq kimi,
Öz içimdən alışanam mən çıraq kimi!
Bir şüşəyəm, daşla vurub, eyləsən çilik,
Ad-sanımdan Varlıq çəkər daim xəcillik"
Görərsən ki, bir misəm mən, qızıl çəkilmiş,
Murdaram ki, üzərimə gülab səpilmiş!
Ürəyimdə bir şey yoxdur diləkdən özgə,
Varlığımda nə taparsan küləkdən özgə?!
Fələkdən də öz alnıma yazılıb aslan,
Nə faydası, müqəvvayam-yapıblar yundan.
Elə aslan deyilsən ki, mən pəncələşəm,
Mənə bəsdir, tək özümlə özüm əlləşəm!
Bu çağacan olan sevinc əlimdən getdi,
Gəncliyimdən qalan sevinc əlimdən getdi...
Uşaqlığı, mənəmliyi yada salma sən,
Düşüncəydi, bayğınlıqdı - həvəsdən gələn.
Bil, yaşamın, iyirmisi, otuzu keçcək
Daha kar-kor yaşamağın yaramaz, demək!



Qırx yaşadək sevincinin daşqın çağıdır,
Qırx yaşında qol-qanadı illər dağıdır.
Gözləmə ki, əlli yaşda sağlamlıq qalar,
Gözlər başlar sozalmağa, ayaq susdalar.
Altmışında dincliyinin çağı çatacaq,
Yetmişində artıq sənin gücün yatacaq!
O çağda ki, yaşın oldu səksən, ya doxsan,
Daha Varlıq sevincinin içində yoxsan!
Bu mənzili çatdırasan yüzə kimi sən,
Üzdə diri görünsən də, ölü kimisən!
Ya bir günlük gün keçir sən, ya yüz il yaşa,
Bu sarayda yaşam gec-tez yetəcək başa.
Ən yaxşısı budur, daim şadlıq qatasan,
Bu şadlıqda Tanrını da uca tutasan!
Xoş günündə gərək şamtək işarsın gözün,
Gülsün ağzın, yansın üzün, yaşarsın gözün!
Dan yeritək ağlamağı kəsdi işaran,
Üzdə gülüş ildırımı sındıran zaman.
Ağlamasan, gülmək olmaz, anla bu işi,
Gülən çağda örtənməzsən ağaran dişi.
Sənə yolu öyrədərəm, əməl eyləsən,
Ağlamadan hansı çağda, yalnız güləsən.
Tale, əgər, yar olarsa gülən çağda sən,
Bir pay verib, yoxsulu da sevindirəsən!
Bəs Günəşi görmürsənmi, aç bir gözünü?!
O gülür ki, sevindirsin bu Yer üzünü!..

## Şapurun Şirini öyməsi və Xosrovun ona vurulması

Xosrovun bir dostu vardı-rəssam Şapurtək,
Dolaşmışdı ta Batıdan Ləhavərədək.
Elə bil ki, doğulmuşdu Mani təzədən,
Rəsam kimi Evripidlə o gələrdi tən.
Elə surət yaradardı ustad qələmi,
Fırçasız da çəkirdimi xəyal aləmi?!
İşlədiyi bəzəklərdən düşsə gözünə,
Sanardın ki, bəzək vurub suyun üzünə!..
Pərviz taxtı önündə o öpüb torpağı,
Könülaçan bu sözlərdən verdi sorağı:
"– Əgər şahın izni olsa, söz açaram mən
Gördüyümün, bildiyimin yüzdə birindən..."
Xosrov dedi: "– İgid dostum, durma, əlüstü
Soyumasın yığnağımız, de isti-isti!"
Şirin sözə mahir Şapur tezcə dil açdı,
Təzə-təzə deyimləri qol-qanad açdı:
"– Bütün Varlıq həmişəlik sənə qul olsun,
Qoy çağının ayı, ili uğurla dolsun!
Şad gününü istəməyən qalsın pis günə,
Torpaq alsın kəc baxanı abad mülkünə!
Görkəminə bəzək olsun öz gənclik adın,
Çiçək açıb, bar yetirsin istək, muradın!
Altıtağlı Varlığı mən gəzib dolaşdım,
Uzaq-uzaq diyarlarda gizlimlər açdım;
Neçə mənzil aralıda, dağlar ardında,
Dərbənd dəniz limanına sökək yurdunda
Şahlıq edən bir qadındır – şah törəməsi,
Qoşununun İsfahana çatır cəng səsi.
Bu ölkənin ta Arrandan Armana kimi,
O qadındır başbiləni, odur hakimi[3].



Diyar yoxdur bac verməyə ona havayı,
Daha onun nəyi çatmır tacdan savayı?!
Ucalarda qalaları ucaldıb min-min,
Tanrı bilər qədərini saxlanc gizlimin.
Saya gəlməz mal-qarası – istəyin qədər,
Balıqların, quşların da sayını ötər.
Daim kefdə-damaqdadır – yoxsa da əri,
Şənliklərdə başa vurar özü günləri.
İlkin adı – Şəmiradır başçı qadının,
Mehin Banu anlamıdır – gözəl adının.
İgidlikdə kişilərdən qalmaz geriyə,
"Mehin Banu" çağırarlar – başçıdır deyə![4]
İl boyunca o, torpaqdan torpağa keçər,
Özü üçün bəyəndiyi yerləri seçər.
Çiçək çağı köç eyləyər gözəl Muğana,
Hara ayaq qoysa, dönsün yaşıl ormana.
Çıxar Arman dağlarına yay aylarında,
Gəzər nazla yaylasında, dolaylarında.[5]
Güz girincə qanadını Abxazda açar,
Ovlaqlarda ov dalınca quş kimi uçar.
Qışda isə o, Bərdədə qurar yuvanı,
Çox xoşlayar bu yerdəki ılıq havanı.[6]
Bütün ili bax, beləcə gəzər, əylənər,
Hər çağın öz havasını seçib bəyənər.
Yaşamının sevinclərlə ötər hər anı,
Gülə-gülə hey oynadar əldə dünyanı.
Bu çarpaşıq, qara zindan Varlıqda, yalnız,
Həyanıdır qardaşından nişan qalan qız.
Pəri qızı – pəri deyil, bir Aydır özü,
Örpək örtər, papaq qoysa, igiddir, düzü.
Ay kimi də gecələri işıqlandırar,
Qara gözlər saf dirilik suyu andırar.

Uca boyu bir gümüşü xurma ağacı,
Xurma dərən iki zənci – cüt hörük saçı".
Şirin-şəkər dodaqlını öydü o qədər,
Xosrovun da şirinlətdi ağzını şəkər.
Şapur dedi: "–İnci dişlər gur işıq salmış,
Ağ sədəfin üzündəki işıq azalmış.
Su çəkilmiş əqiq təki bal dodaqları,
Saçlarının hörükləri kəmənd bağları!
Saçlarının qıvrımları ürəyi üzər,
Qara tellər çəmənsayaq üzünü bəzər.
Müşk qoxusu yayan külək əsdiyi zaman
Nərgizlərin beyni qızar onun odundan.
Öz gözünü bir ovsunçu etmiş özünə,
Pərdə çəkmiş bədnəzərin yaman gözünə.
Vurğunluqla könülləri oda yaxdırar,
Sanki duzlu dodaqlardan şəkər yağdırar.
Duza batar o dodaqlar güləndə şirin,
Duz acıdır, dodağında olar şipşirin.
Elə bil ki, burnu birdir gümüş bıçaqla,
Alma üzü tən yarıya bölmüş bıçaqla.
Ayparası yüz köynəyi cırsa da, əgər,
Ay üzündə tapanmazsan ləkədən əsər.
Kimsə hələ usanmamış onun nazından,
Səhər yeli üzlə saça toxunan zaman
Tellərindən qara qaqum, ağ qunduz satar,
Qəmzəsinə səxavətlə qoşub naz satar!
Bir almadır yumru çənə, turuncdur buxaq,
Üzü qoymaz, ulduzların sayına baxaq.
Gözəlliyi Günə, Aya barmaq silkələr,
Baş çıxaran məmələri narla tən gələr.
Bostan gülü döşü üstə sabaş sovurar,
Ceyran boyu önündəcə boynunu burar.
Sonra səpər ətəyinə göz yaşını o,



Hansı yönə döndərərsə baxışını o.
Bir baxmaqla yüzdən artıq ceyran ovlayar,
Nur bulağı gözlərinin bu qüdrəti var!
Yüz aslanı vuran igid görsə gözünü,
Gedər dövşan yuxusuna, bilməz özünü.
Dodaqları cavab verməz heç öpüşlərə,
Ləllərini açsa, dişlər səpilər yerə.
İrəmin gül bazarında hər reyhan satan
Bayğın-bayğın nərgizindən eyləyər fəğan.
Min qucağa tikan yığmış gülün yerinə,
Hələ heç kəs toxunmamış tər güllərinə.
Yuxusunda hər gün yüz-yüz görən var onu,
Kimsə görməz gecələrdə Gün olduğunu.
O Aypara qaşlarına bir yol baxan kəs
Varlığa göz yummalıdır, yaşaya bilməz!
Düşüncəsi eyləmişdir Məcnunu heyran,
Leyli qaçıb gizlənibdir gözəl ceyrandan.
Kim xalqının bir buyruqla qəsdinə dolar,
Qələmini ona verib, tez təslim olar.
Bir nağıldır ürəkaçan görüşü ilə,
Bir dodaqdır yüz min şəkər öpüşü ilə.
Onun titrək tellrindən naz, qəmzə yağar,
Dişlərindən, dodaqlardan yaqut, dürr axar.
Bacarıqda tanıtdırmış sağlamlıq onu,
Ənbər yazmış torpaq üstə qul olduğunu.
Üzü ağ gül, saçlarında çiçək ətri var,
Dodağı bal, adını da Şirin qoyublar!
Nuş adlanır dodağının gülüşü onun,
Sayılır da öz varisi Mehin Banunun.[7]
Ölkədəki pəriüzlü bütün gözəllər
Buyruğunda şax dayanıb, buyruq gözlərlər.
Aysifətli varlı qızlar – düz yetmiş nəfər
O xanıma xidmət edib, qulluq göstərər.

Hər birisi gözəllikdə ruh oxşayandır,
Gözəlliyi bu Varlığa gözəl uyandır!
Saz götürər, içki içər, şənlik edərlər,
Bir Ay kimi mənzil-mənzil köçüb gedərlər.
Ətirlənər Ay xırmanı hərdən müşk ilə,
Gül xırmanda içki camı alarlar ələ.
Harda olsa, dolaşarlar üzləri açıq,
Axı heç kim verə bilməz onlara acıq.
Bülbülləri şən-şən ötən bir bağ salmışlar,
Nar məmələr dolu olan bostan almışlar.
Uca boyu hər birinin sərv ağacıdır,
Gəzən çağda qoşa süzən çöl turacıdır.
Düyməçətək ağızlara şəkər dolubdur,
Qoxuları ənbərdən də artıq olubdur.
Gözəllikdə tapılarmı onların tayı?
Bu Varlıqda ağrısı yox, kefdən savayı.
Güc sınayan çağda hər kəs bilib işini,
Çəkər aslan caynağını, filin dişini.
Bir həmlədə Varlığın da bağrı közərər,
Nizə ilə ulduzların gözü gözənər.
Pərilərin tanınırsa cənnətdə yeri,
O torpaqlar gözəllikdir, gözəllər pəri.
Mehin Banu gözəlliyə yiyə sayılar,
Belə çoxlu qızıl-gümüş, söylə, kimin var?!
Axuruna bağlı atı, yüyənə yatmaz,
Çapan çağı külək belə tozuna çatmaz!
Filosoflar duyğusunu geri buraxar,
Ördək kimi nə tufandan nə sudan qorxar.
Bir fınxırıb, Günə doğru yön alan zaman
Keçib gedər fələklərin yeddi qatından.
Dırnaqları dəmir olar, dağda çaparsa,
Quyruğu da bambuq çubuq-dənizi yarsa.



Bərk qaçışda çağa bənzər, duyğu sayaqdır,
Gecə kimi ayıq-sayıq, sübhtək oyaqdır!
Şəbdiz deyər Şirin qara atın adına,
Gecə oyaq bayquş kimi vurğun atına.[8]
Ayağını bağlayıblar qızıl zəncirə,
(Şahə qalxıb, az qalar ki, cilov gəmirə!)
Nə şirin bir varlıq gördüm, ola Şirindən,
Nə Şəbdiztək qara atdan soraq aldım mən!.."
Söyləməni başa vurub, Şapur dayandı,
Dinclik getdi bal yuxuya, sevgi oyandı.
Ordakılar vuruldular Şirinə bir-bir,
İnandılar, söylədiyi – doğru sözlərdir!
Çində gözəl naxış vuran mahir ustalar
Hər nəyi ki bəyənsələr, nöqsansız olar.
Xosrovun da o sözlərdən qarışdı halı,
Sevgi aldı dincliyini, çaşdı xəyalı.
İstəyirdi, bu söyləmə çatmasın sona,
Bir ayrıca yer ayırdı yaddaşda ona.
Neçə günü düşüncədə gəzib dolaşdı,
Bu quruca uydurmayla könlünü açdı.
Daha səbri tükənirdi, düşdü marağa,
Dözüm adlı inadını atdı qırağa.
O, söyləmə söyləyəni çəkib gizlincə,
Bu yönümdə danışmağı qoymadı dincə.
Dedi ona: –"Buyruq güdən yaxınsan mənə,
Seçimimi itirmişəm, əl uzat yenə.
İndi ki, sən gözəl işin atdın himini,
Başa çatdır, öyrənmisən daha çəmini.
Ağız şirin olmayacaq, deməklə şəkər,
Yola düş, get Qasistana, iş uzun çəkər.[9]
Bütsevərlər kimi çatıb o torpağa sən,
Söylədiyin bütü ələ keçirməlisən!
Öncə, öyrən, ürəyində sevgisi varmı,

Nə düşünür, bir sevənlə yuva qurarmı!
Əgər bəzək götürərsə mum kimi asan,
Damğamızla ona özün bəzək vurarsan!
Görsən, onun köksündəki daşdandır ürək,
Qayıt, söylə, biz dəmiri soyuq döyməyək!

## Şirinin sorağı ilə Şapurun Armana getməsi

Öpüb yeri, dindi yenə sözbilən Şapur;
"– Qoy Xosrovun üzü gülsün, bu çağ onundur!
Görən gözlər yaxşılıqlar diləsin ona,
Heç düşməsin yaman gözün pislik oduna!"
Bacarıqlı dua edib söylədi şaha;
"– Ey Varlığın buyruqçusu, üzülmə daha"
Fırçamla mən bircə bəzək işləsəm, əgər,
Mani sanlı "Ərjəng"inin üstdən xətt çəkər!
İnsan başı rəsm eyləsəm, yerdən tərpənər,
Bir quş çəksəm, qanadlanar, hey qalxıb-enər.
Sən yol vermə, ürəyinə toz salsın ləkə,
Toz qonarsa, qalxar ağrı, artar təhlükə.
Öz könlünü xoş eylə ki, qəmə düşməsin,
Hansı işə əl yetirsəm, boş ötüşməsin!
Onu başa çatdırmasam, dözmərəm, ancaq,
Quşdan qanad borc alaram, qulandan ayaq.
Yastığa da baş qoymasam, yata bilmərəm,
O gözəli gətirməmiş, bura gəlmərəm!
Eyvanına hasar çəksə odlu dəmirdən,
Cəvahirtək daş içində gizlənsə birdən
Güclə odu dəmirlərdən ayıran kimi,
Qara daşdan cəvahiri çıxaran kimi
Gah çiçəklə, gah tikanla əlləşərəm mən,



İşə baxıb, üzüşərəm başlanan işdən...
Əlindəki var-dövlətə güvənsə, düzü,
Döndərərəm, o, Xosrova vurular özü.
Əgər görsəm, bu işimdə acizəm daha,
Onda, soraq göndərərəm mən şahənşaha!"
O, ayağa qalxdı, getsin, söz yetcək sona,
Yol uzaqdı, hazır olsun, gərəkdir ona.
Yollar boyu o, nə yatdı, nə də dincəldi,
Bircə aya o Şirinin yanına gəldi.
Biyabandan yeltək keçdi, çöldən ötüşdü,
Axır, Arman dağlarında atından düşdü.[10]
O gözəllər köçərdilər bura hər il yay,
Gəzərdilər qatar ilə hey dolay-dolay.
Şapur ora yetişəndə yaşıldı hər yan,
Yanırdı dağ hələ lalə qızartısından.
Al çiçəklər, sarı güllər açıb gözünü,
Bəzəyirdi qayaların bomboz üzünü.
Zümrüd xalı döşəliydi dağların başı,
Hər tərəfə sərilmişdi yaşıl qumaşı.
Ta Cirrəmtək uca dağdan Boğra düzünə
Gül zolağı düşmüş idi yerin üzünə.
Sanki İraq sütunuydu İnhiraq dağı,
Belindəsə daş monastır qayış qurşağı.
Bu monastır qədim idi, çox yaşı vardı,
İçindəsə neçə qoca keşiş yaşardı.
Şapurun da daş məbədə düşcək ayağı,
Qarşılandı qonaq gələn dərviş sayağı.
Qızışınca aralıqda söhbət bir qədər
Sözü salıb, qoca rahib tökdü incilər:
O söylədi: "–Aşağıda bir mağara var,
İçindəsə bir qara daş – atlıya oxşar.
Mayalanma çağı hər il yetişən zaman

Qaçar bura Römkələdən güclü bir madyan.
Yüz ağaclıq aralıdan dördəmə çapar,
İlan kimi yuvasını təzədən tapar.
Mağaranın qapısından dürtər özünü,
Şəhvət üçün qara daşa sürtər özünü.
Tanrı əmri – öz dölünü qara daş tutar,
Axı Tanrı nə istəsə, o da baş tutar.
Mayalanma törəməsi olan quluna
Əsən külək, dönən dövran yetişməz ona".
Dünyagörmüş rahib bir də anlatdı belə,
Şəbdiz atsa həmin döldən gəlmiş hasilə.
Daş məbədi indi tapmaq çox çətin işdir,
Elə bil ki, burulğanda qərq edilmişdir.
O İnhiraq dağının da yerindəcə sən
Qolu altda düşüb qalan bir baş görərsən!
Çiçək rəngi çalan dağa yas qurmaq üçün
Qara geymiş qalaq-qalaq daşlar da bütün.
Yoxsa dağın qayalığı acığa düşüb,
Şükufətək parçalanıb açığa düşüb?!
Sanki fələk fəryadından bayğın düşəni
Qayalığa çırpıb əzmiş özü şüşəni.
Ulu Tanrı, çox şey var ki, alaq biz ibrət,
Elə bu da qiyamətə eylər kifayət.
Dörd yüz ilə yaxın müddət ötən o çağdan
Parça-parça daş qalmışsa uca bir dağdan,
Nədən ötrü su isladan hər kəsəyə sən
Bundan sonra, güvənərək ümid edəsən?!
Ey Nizami, hekayənə qayıt bu yoldan,
Yaxınların gözləyirlər, qurtarsın dastan!



## Şapurun Şirinə Xosrovun şəklini göstərməsi

Gecələrin qara saçı daranan kimi,
Gün çırağı odda yandı pərvanə kimi.
Dağ şamından olan zərlər çəkdi duvağı,
Örtüləndə abnus rəngli nərdin qapağı.
Dan ulduzu üzə çıxdı əlində fərman:
– Xosrov dardan qurtulubdur, Şapur ağrıdan!
Həmin qədim monastırda Şapur neçə gün
Öz canından yorğunluğu çıxardı bütün.
Qocalara bəlli idi Varlığın sirri,
Tələb etdi, düz danışsın burda hər biri.
Soruşdu ki, o gözəllər gəzirlər harda,
Əylənirlər bulaq üstdə, ya oylaqlarda?!
Keşişlərsə burda ona verdilər soraq;
O gözəllər çıxacaqlar səhər acılcaq!
Uca dağın ətəyində bir düzənlik var,
Dörd yanını tutub onun sıx-sıx ağaclar.
Sərvboylu o gözəllər hər səhər çağı
Xoşlayırlar düzənlikdə şənlik qurmağı...
Sincab rəngli dövran tikcək vaşaq kürkünü,
Qara samur gizləndi də elə o günü.
Yanar Günəş baş qaldırdı Albürc dağından,
Təzələndi neçə ayin Cəmşid çağından.[11]
Şənlik quran bütlər hələ oyanmamışdan
Şapur qalxdı, hazır olsun söküləndə dan.
Çox xoşlardı düyməçəli qızılgülləri,
Ona görə, tez axtarıb tapdı o yeri.
Təmiz parça üzərində Xosrovu dərhal
Rəsm eylədi, çağa belə vermədən macal.
Bacarıqla bu şəklini çatdırdı sona,
Asıb onu bir ağaca, çəkildi yana.
Pəri kimi gözdən itdi o, bircə anda,
Pəriüzlü gözəllər də gələn zamanda.

Gah şümşaddan, gah çiçəkdən tutaraq dəstə,
Pərilərsə oturdular göy otlar üstdə.
Xoş qoxulu çiçəklərdən gülab çəkdilər,
Gülə-gülə dodaqlardan nabat tökdülər.
Gəlin idi hər birisi görmədən əri,
Başlıq verib, özlərini qaytarmış geri.
Sevgilitək əyləşiblər qoşa, səmimi,
Himə bənddir çırtlamağa düyməçə kimi.
İçki alıb, içki dolu qabı öpdülər,
Çiçək dərib, çiçəklərə içki səpdilər.
Sanki Ayla ulduz əldə badə tutmuşdu,
Varlıq divi, divüzlünü tez unutmuşdu.
Bütün təmiz qızlar kimi, onlar da hökmən
Dönməzdilər qızğın şəhvət istəklərindən.
Bu yer hər vaxt uzaq idi yadlar gözündən,
Arxayınca rəqs başlandı məstlik üzündən.
Biri salam söyləyirdi hərdən güllərə,
Bir başqası səs verirdi şən bülbüllərə.
İşləri yox, şənlənməyə yetməkdən başqa,
Qayğılar yox, ürəyi şad etməkdən başqa!
Baldodaqlı arasında Şirinin üzü
Dövrəsində ulduz gəzən bir Aydı, düzü.
Yaxınları yada salıb, şənlənirdi o,
Badə tutub, içki içib, dillənirdi o.
Bir Ay təki işıq saçıb boylanan zaman
Bir də gördü, asılıbdır şəkil ağacdan.
Gözəllərə tapşırdı ki, gətirin bura,
Rəssamı da tezcə tapın, yetirin bura!
Şəkli alıb, yubanmadan verdilər ona,
Neçə saat baxdı, odlar doldu canına.
Üz çevirmək istəyirdi, dönmürdü ürək,
Düşünürdü köksə sıxsın, baxırdı ürkək.



Hər baxanda məstlik yağdı o üz-gözündən,
Sanardın ki, içki içib, getdi özündən.
Ürək daha dözənmirdi bu həvəsinə,
Şəkli harda gizlətsələr, tapırdı yenə.
Gözətçilər çəkindilər daha yer-yerdən,
Qorxurdular, Şirin şəklə vurular birdən.
Qorxu üstün gəldi, onlar çıxarıb qərar,
Çin bəzəyi gözdən salan şəkli cırdılar.
Şirin onu soruşanda uydurub belə:
Dedilər ki, yəqin, divlər keçirib ələ!
Bura pəri oylağıdır, bu düzdən qaçaq,
Özgə düzü seçib, orda gəzib dolaşaq.
O manqalın odu ilə odlandılar tez,
Üzərliyin üzərindən atlandılar tez.
Üzərliyin tüstüsündən ulduzlar söndü,
Dəstə ordan tamam başqa bir düzə döndü...

## Şapurun Şirinə ikinci yol Xosrovun şəklini göstərməsi

Gül rəngli at səhər tezdən dağlar dalından
Odlu tozlar səpən çağda daşa nalından,
Açdı gizlim qapısını, nə gizlimlər var,
Dağlara da geyindirdi atlazdan paltar.
Şapur bura ikinci yol gəldi obaşdan,
Bakirələr yox idilər o çatan zaman.
Həmin şəkli əvvəlkitək bəzədi yenə.
Asdı gələn gözəllərin yolu üstünə.
Az keçmədi, nazlı bütlər gəlib yetdilər,
Yaşıllıqlar arasında gültək bitdilər.

Hər Ayüzlü atlaz geymiş, qəmzə satandı,
Hər birisi Aya güldü, Ay da utandı.
Çox könülsüz başladılar şənlik çağını,
Yavaş-yavaş hay-küy tutdu dağ qucağını.
Deyib, gülüb oynayanda gözəllər təkrar,
Tez başladı oyunbazlıq zaman-fitnəkar.
Şirin isə dörd tərəfə bir nəzər saldı,
Baxışları tanış şəklə sancılıb qaldı.
Könül quşu qanadlandı havaya yenə,
Lal dayanıb, daldı lallıq səssizliyinə.
Bayğınlara göz yuxusu bəs eyləməzmi,
Yaş torpağa bir azca su bəs eyləməzmi?!
Ürəyi də haray saldı: "– Bu nədir məndə,
Çaşmışammı, ya düşüncəm düşüb kəməndə?!"
O sərvboylu gözəllərdən tezcə birinə
Buyruq verdi: "– Durma, şəkli get, gətir mənə!"
Gətirmədi, tez gizlətdi o Ay acıqla,
Gün üzünü örtmək olar, söylə, palçıqla?!
Sonra gəlib dedi: " – Bunu pəri gizlədir,
Yalnız belə oyunbazlıq, bil, pəri edir..."
Yubanmadan yığışaraq ordan getdilər,
O çiçəklər çiçəkliyi tez tərk etdilər.
Çağ qırağı bir düzəndə yığnaq quruldu,
Badələri boşaltdıqca keflər duruldu...
Axşam qoca Ənqa quşu yaqutu uddu,
Qarnı şişdi, ikiəlli qarnını tutdu.
Gülən çiçək ayaq altda, qədəh əllərdə,
Bayğınlaşıb döşəndilər elə o yerdə...



## Şapurun Şirinə üçüncü yol Xosrovun şəklini göstərməsi

Gündüz qalxcaq ətəyindən gecə donunun
Varlıq qoydu qızıl tacı başına onun.
Tac qoyanlar yaşıl taxtın çıxıb üstünə,
Bayğınlara içkilərdən verdilər yenə.
O gün ordan "Pəri odu" pirinə kimi,
Qanad açıb, süzdülər də pərilər kimi.[12]
Yorulunca dolaşdılar o yaşıl düzü,
Gömgöy ipə çəkdilər də fələyi, düzü!
Bir bilici varlığıtək olan yerdi bu,
Sanki bala sevgiləri dolan yerdi bu.
O torpağın qucağında əsdikcə yellər
Yağdırırdı yerə inci, dənizə güllər.
Lalə daşı bəzəmişdi büt evi sayaq,
Səhər yeli yaşıllığa çəkmişdi daraq.
Qızılgülün kolu üstdə verib səs-səsə,
Ötən bülbül qumru ilə girmişdi bəhsə.
Buraları hürküsüz yer seçmişdi quşlar,
Ağaclara budaq-budaq köçmüşdü quşlar.
Dörd bir yanda qoşalaşıb, cüt uçuşurdu,
Çiçəklərə dadlı-dadlı nəğmə qoşurdu.
Rəsam gəlib çatan kimi, gözəl gülşənə,
Həmin şəkli rəsm etməyə başladı yenə.
Pəriüzlü yaşıllıqda seyrə dalırdı.
Arabir də gözəllərdən içki alırdı.
O mehriban baxışları düşdü kəməndə,
Varlığını oda yaxan şəkli görəndə.
O mat qaldı belə sehrə, tilsimə, ancaq,
Başa düşdü, bu aldanış deyil oyuncaq.
Dəli könlün istəyincə tərpəndi birdən,
Gedib, həmin şəkli aldı asılan yerdən.

O güzgüdə nişan görcək nurlu üzündən,
Baxanmadı surətinə, getdi özündən.
Bir hörümçək tüpürcəkdə milçək qovladı,
Gör, bu Hüma quşunu da necə ovladı?!
Divlərin öz yeri idi burdakı bulaq,
Pərini də necə dəli etdilər, bir bax!
O yerdə ki, bacarıqla tədbir tökülə,
Adamı yox, divləri də tutarlar belə!
Elə sözlər çıxardı da Şirin ağzından,
O sözləri təkrar etməz kimsə heç zaman.
Gülüzlülər təravətli rəna çiçəyi
Görəndə ki, yerə düşcək solub ləçəyi,
Anladılar, pərilərin işi deyil bu.
Ağlıgödək bir nəfərin işi deyil bu!
Tutduqları bu işlərdən oldular peşman,
Başladılar həmin şəkli öyməyə yaman.
Söylədilər: "Candan-başdan biz keçməliyik,
Gizlimləri açmaq üçün yol seçməliyik!"
Şirin görcək bu ağrıya yollar aranır,
İnandı ki, hamı onun halına yanır.
O yalvarıb, onlardan da istədi kömək,
Əl uzadar dost dostuna, bəllidir, demək!
Sən möhtacsan hər bir işdə öz yaxınına,
Yalnız Tanrı təkdir, yaxın gərəkməz ona!
Ancaq elə işlər də var, dostla baş tutar,
Yaxın gələr, iş görülüb, onda qurtarar.
Belə dedi gözəllərə: "– Dözməliyəm mən,
Şəkil alıb varlığımı tamam əlimdən.
Bu gizlimi heç bir kəsdən gizlətməyək biz,
Bu şərəfə dolsun bizim qədəhlərimiz...".
Şənliklərə başladılar onlar yenidən,
Dalğınlığı daşladılar onlar yenidən.



Oxunurdu sıra ilə ayrıq şərqisi,
Ucalırdı saqinin də "Nuş olsun!" səsi.
Acı içki tutub əldə özü büt Şirin,
Bu Varlığı bayğın etmiş bu acı-şirin.
Toxundurcaq dodağına içki o pəri
Düşüb şəklin önündəcə öpürdü yeri.
Bayğınlığı vurğunluğa gələndə üstün
Dincəlirdi unudaraq aləmi bütün.
Bir gözələ tapşırdı ki, bu yolun üstdə
Durub, olsun gözü yolda, qulağı səsdə.
Burdan keçən yad kimsəni tutub sorğuya,
Bu yol ilə çata, bəlkə, o da doğruya.
Həmin şəkli qoy göstərsin ona arada,
Soruşsun ki, tanıyırmı, görüb harada?
Açıq-gizli bir çoxundan sorğu aldılar,
Bu gizlimlər açılmadı, aciz qaldılar.
Almayınca o şəkildən Şirin sorğunu
Bu ağrısı ağrılara tez saldı onu.

## Şapurun Şirinə görünməsi

O yaşınan ovsunçu quş göründü gözə,
Muğlarsayaq od yandırıb, tez çıxdı üzə.
Şirin isə Şapuru da uzaqdan görcək
Nişan tapdı görkəmində köhnə tanıştək.
Şapur haqda düşüncəsi deyildi yanlış,
Rəsm etmədən duyğusunda vurmuşdu naxış.
Buyruq verdi: "– Gecikmədən çağırın muğu,
Bu şəkildən bilgi üçün aparın sorğu!
Görək, şəkil kiminkidir, bilər, bəlkə də:
Nə iş görür, ya yaşayır hansı ölkədə?!"

Kənizlər də yubanmadan ora qaçdılar,
Dağda qalan o abidə sözü açdılar.
Şapur dedi: "– İstəyiniz gizlindir bir az,
Bu düyünün açılmağı "atüstü" olmaz!"
Dodaqaltı oxuyurdu özündən ovsun,
İstəyirdi, gizli nə var, uzağa qovsun!
Görcək tora ilişibdir ovun ayağı,
Bu çağdaca doğru sandı susub durmağı.
Qayıtdılar Şirinin də yanına qızlar,
Söylədilər, abid deyən sözü, nə ki var...
Dinləyincə kənizləri Şirin bu zaman
Elə coşdu, ciyərində qaynadı al qan.
Gümüş dağı kimi qalxdı yerdən bu ara,
Düşdü xal-xalların səsi dağlara!
Sanki uca sərv ağacı birdən boy atdı,
Gözləmədən tez Şapurun yanına çatdı.
Sanardın ki, əllər-qollar büllur hasardır,
Gur saçları yaz günütək qoxu saçardı.
Ayıq-sayıq gəzdiyindən könülçalanı
Bütün türklər olmuşdular nazın qurbanı.
Zirək oğru ürəyini çalandan bəri
Türktək ondan istəyirdi paltarı geri.
Könül açır körpə kimi yupyumru üzü,
Gəlinciyi oynadanla oynardı özü.
Nazlı-duzlu ədaları, boyu, göz-qaşı,
Əldən etdi, dildən etdi mahir nəqqaşı.
Qulaqlara cəvahirdən sırğa asırdı,
Pərdə açıb, dəniz dürrə qulaq asırdı.
Bir dodaqdan duz səpirdi, bir gözündən naz,
Rahiblərin yolu ilə dedi: "– Qulaq as!
Mənə yanaş yaxın kimi, soyuq olma sən,
Dünya qopmaz, bir anlığa yaxınlıq etsən!"

Bu sözləri oyunçunun qulağı çaldı,
Lal dayanıb heykəl təki yerində qaldı.
Görcək bayğın nərgizləri gözaçıq kişi
Qarşısında dil-dil ötdü, anlayıb işi.
O, pəriyə dua edib, öygülər tutdu,
Pəri isə öz yanında onu oturtdu.
Soraq aldı: "– De, necəsən, hardan gəlirsən,
Baş açmıram, mənə hardan tanış gəlirsən?!
İş bacaran kişi cavab qaytardı ona:
"– Yer üzündə mən tanışam yaxşı-yamana!
Tanrı açmış Varlıqdakı gizlimi mənə,
Tapınmışam ən örtülü gizlimlərinə.
Torpaq hələ yana dursun, balıq-xalıqdan
İstədiyin gizlimləri açaram asan.
Bu Varlığı ta Doğudan Batıya qədər
Diyar-diyar dolaşmışam istəyin qədər!"
Şirin duycaq yox üzündə həyadan əsər,
O şəkildən söhbət açdı, görsün, nə deyər?
Rəssam Şapur cavabında başladı sözə:
"– Gözəl üzün heç gəlməsin sənin pis gözə!
Soruşduğun şəklin uzun hekayəti var,
Bilən mənəm, söyləyəni çətin tapılar.
Gizli yer seç, bu gizlimi başdan-ayağa
Yalnız sənə söyləyərəm, düşmə uzağa!»
Buyruq verdi: "– Dağılsınlar dövrəsindəki
O gözəllər Yeddi bacı ulduzu təki.
Gizlimaçan boşluq görüb öz meydanında,
Cəld səyirtdi atını da söz meydanında:
"– Şəkil göyçək bir gövhərin göz nişanıdır,
Yeddi ölkə Günəşinin öz nişanıdır!
Sanki atlı İskəndərdir, ad-sanlı Dara,
Onlardan bir nişan qalmış bizim çağlara.

Gözəllikdə göylər Günəş söyləmiş ona,
Yerdə kökü bağlanır düz Cəmşid soyuna.
Şahlar şahı-Xosrov Pərviz söylənir adı;
Şahənşahlıq sayəsində qalxdı, parladı..."
Bu sözlərlə istəyinə o, can atırdı.
Deyimləri ruh oxşayır, cana yatırdı.
Danışdıqca Şirin ona diqqət edirdi,
Açılırdı baygın gözlər, huşa gedirdi.
Varmaq üçün incəliyə dərindən dərin
Soruşurdu anlamını deyilənlərin.
Örtük altda bəzək-düzək vururdu sözə,
Can üzdükcə daşlardan ləl çıxırdı üzə.
Şapur ondan gizlətmədi heç nəyi artıq,
Sözlərini bircə-bircə söylədi açıq:
"– Pəriüzlü, açanmırsan ürəyini sən,
Pərisayaq deyimlərə örtü çəkirsən?
Nədən gültək düyməçəndə gülürsən belə,
Düşüncəni şəkər təki açıqca söylə?!
Diləyirsən, bu ağrıya tapıla dərman,
Nəyə lazım, gizlədəsən onu Loğmandan?!"
Zəncir saşlı açıqlandı onun sözündən,
Nə gözəldi, büt çıxmışdı dərhal özündən?!
Ancaq sevgi ətəyindən qırağa çəkdi,
Üzr istəyib, onu yenə sınağa çəkdi.
Öz ağlına arxayındı, sonra da qəsdən
Örtüyünü tez qaldırdı tabağın üstdən:
"– Kahin, səni and verirəm ulu Tanrına.
Mənə kömək göstərərsən, əmin et buna?!
Görürsənmi, bütün işlər alız düşübdür,
İşim kimi, dalğın könlüm cılız düşübdür?!
Mən bu şəklə vurulmuşam ürəkdən, məstəm,
Gecə-gündüz səcdə qılan surətpərəstəm.



Dolaşıqda yardım əli uzatsan mənə,
Bir gün gələr, yarıyaram hardasa sənə!
Açdım artıq ürəyimdə qalan gizlimi,
Nə istəyin varsa, söylə bir yaxın kimi!"
O ovsunçu çox düşündü öz ovsununda,
Bir yol tapdı; düz danışsın söz ovsununda...
İstədi ki, bilərziktək öpsün biləyi,
Xal-xal kimi ayağına düşmək- diləyi!
O, and içdi: "– Ey yığnağın bir şamı olan,
Taca layiq, tacidarlar fəxri sayılan!
Pişin günü gecəsindən qoy olsun qara,
Ürəyində yeni Aytək incəlik ara!
İndi ki, sən and verirsən Tanrı adına,
Düz deyəcəm, qırıq yalan salma yadına!
Çəkən mənəm, Xosrov üçün işlədim bunu,
Çalışdım ki, parça üstdə rəsm edim onu.
Sənətkarın yaratdığı hər şəkil ki var,
Canlı deyil, yalnız şəxsə oxşarı olar.
Mənə rəsmi öyrətməkdə əmək çəkiblər,
Can geyimi özgə yerdə biçib-tikiblər.
Xosrovun ki bu əksinə vurulmusan sən,
Onda, halın necə olar, özünü görsən?!
O, işıqlı bir Varlıqdır, işıq özüdür,
Bu Varlığı dolaşmayıb, onun gözüdür!
Elə çevik, elə igid - tayı olmayan,
Zəriflikdə bir ceyrandır, qızanda aslan!
Bir çiçəkdir, güz yelləri onu soldurmaz,
Sanki gənclik budağında gülür təzə yaz!
Hələ çiçək yanlarında göyərmir şümşad,
Uca sərvi yamyaşıldır - süsəntək azad.
Qopan oxu düz şığıyıb, qartala çatır,
Zanbağının yarpaqları hələ sudadır.

Hələ Günü almayıbdır buluddan ləkə,
Nə buluddan, nə də Gündən gözlər təhlükə.
Ətri İrəm bağının da düşmüş özünə,
Ay baxanda donuq qalıb iki üzünə.
Sanarsan ki, Rüstəm Zaldır ata minəndə,
Keyqubaddır yığnaqlarda meydən dinəndə.
Könlü olsa, bir gecədə saxlancı bölə,
Qarunla bir papağını o verər yelə.
Danışanda hey ağzından mərcan tökülər,
Qılınc çalsa, aslanın da dizi bükülər.
Atı yerdən tərpədəndə o bilə-bilə
Çata bilməz tozuna da küləklər belə.
Soykökünü soruşursan, Cəmşidə çatar,
Üz-gözünün gözəlliyi Günəşə çatar!
Dar görünər Yer üzünün yolu atına,
Bayraq sancmış bu Varlığın yeddi taxtına.
Qızıl versə, gərək dəvə karvanı gəlsin,
Dəmir tutsa, inanma ki, daşlar dincəlsin!
Əgər polad bir qəməni ala əlinə,
Almazdan da örtük olsa, deşəcək yenə!
O, qılıncı oynadanda hər bir cəngavər
Tez sıyırıb, qılıncını xətibə verər.
Addımından yer titrəyər, yorar yolları,
Dolanmaqda yavaşıyar, onda, Yer şarı.
Qılıncını kütləşdirər o, fələklərin...
Dolananda gah altında, gah üstdə Yerin.
Yığnaqları, şənlikləri bəzər camalı,
Bacarıqdan yoğrulubdur ağlı, kamalı.
Könül onu görmək üçün daim can atar,
Taleyi xoş olduğundan uğura çatar.
Uğurlarla, gözəlliklə Varlıq Günəşi
Gecə-gündüz düşünməkdir səni hər işi.



Bircə gecə surətini görmüş yuxuda,
O gecədən huş-başını itirmiş o da!
Nə mey içər, nə bir kəslə badə qaldırar,
Dalğınlıqdan nə gecəsi, nə gündüzü var!
Tək Şirindən özgə yaxın gözünə gəlməz,
Belə acı, qara günə düşməsin heç kəs!
Elçi kimi bu istəyi tapşırıb mənə,
Yaxşı-pisi, necə ki var, söylədim sənə!"
Belə-belə deşirdi o, dürlü incilər,
Söyləyirdi şirin sözlər bildiyi qədər.
Şirindəsə şirin sözlər huş qoymayırdı,
Şərbət kimi hey içirdi, heç doymayırdı.
Yüz yol azı səndirlədi, yıxılsın belə,
Bacarıqla o özünü tez aldı ələ.
Sonra dönüb, ona dedi: "– Cəsur igid sən
Söylə, işə indi nə yol düşünəcəksən?!
Yaxşılıq et, elə yoldan göstər bir nişan,
Mən qurtarım varlığımı didən ağrıdan.
Artıq ağrı işləyibdir düz ürəyimə,
Can evimi nərgiz kimi uğradıb qəmə!»
Şapur dedi: "– Günəşdən də artıq gözəlsən,
Ürək güzgün təmiz olsun, uzun yaşa sən!
Bu işin bir yolu vardır – söyləyim kəsə,
Sən ova çıx, gizlimini açma heç kəsə.
Kişilərtək min belinə atın Şəbdizin,
Çat ovlağa, ordansa qaç, qalmasın izin.
Ötəyindən tuta bilməz bir kimsə sənin,
Şəbdizinə çata bilməz bir kimsə sənin!
Ulduz kimi mənzil-mənzil köç eyləyib keç,
Mən çalışıb, ardınca da gələrəm tez-gec..."
O, Xosrovdan qaşlı üzük nişandır – deyə,
Cəld çıxarıb gülüzlüyə etdi hədiyyə.

Sonra dedi: "Əgər işdir, şahla görüşsən,
Yeni Ayı göstərərsən yolda ona sən!
Görəcəksən, atının da qızıl nalı var,
Özü isə geyinibdir ləl dolu paltar;
Ləldir papaq, ləldir geyim, ləldir kəməri,
Üz-gözünün lələrə də vardır bənzəri.
Görənməsən, Mədainin axtar yolunu,
Kimi gördün, soruş şahı, soraqlaş onu.
Mədainə çatan kimi, sən əvvəl-axır,
Görəcəksən, saxlancları üst-üstə axır.
Büt evitək şah sarayı orda ucalır,
İçindəsə neçə-neçə kəniz qız qalır.
Qoxu saçan qəsrə girmək istəsən, əgər,
Şahənşahın üzüyünün qaşını göstər.
O gülşəndə bir sərv kimi ucal, şən yaşa,
Təzə barın budağıtək ol bir tamaşa!
Gözlə orda, bəxti gülən şah gəlib çatar,
Onda, sənin taxtın Yerdən göylərə çatar.
Diqqətlə bax şahın qəşəng boy-buxununa,
Sən düşərsən diləyinin gur axınına!
Mən səninlə kölgəsitək olsaydım tacın,
Öyüdlərə qalmaz idi bir ehtiyacın..."
O çağda ki Şapur sona çatdırdı sözü,
Nəfəsindən tora düşdü Ayın da özü.
Sonra böyük ümidlərlə ayağa qalxdı,
Parlaq Ayı Günəş kimi yalqız buraxdı.
O gözəllər tez qaçdılar Şirinə sarı,
Ülkər oldu Yeddi bacı-nur ulduzları.
Dolğun Aysa ulduzlara buyurdu belə:
"– Gecə köçün bu mənzildən özgə mənzilə!
Dağ duruşlu atların da dəmir nalları
Qazıq etsin mədən kimi keçən yolları..."



Qoçaq qızlar atlarını yola düzdülər,
Bir Ay təki işıq saçıb, Güntək süzdülər.
Bütün yolu deyə-gülə düşdülər yönə,
Axırı ki, yetişdilər doğma məskənə.
Dinclik aldı gözəllərin yorğunluğunu,
Şirin isə gizlədirdi vurğunluğunu.
Bir gun gecə dörd bir yanı tüstülər aldı,
Bu Varlığı yatırdılar, gözü qaraldı.
Günəş yaşıl, atlar ilə qaldı örtülü,
Bürüdülər söyüdlərin içində gülü.
Getdi Mehin Banunun da yanına Şirin,
Baş endirib, qarşısında dil açdı şirin:[13]
"- Ey Varlığın fəth edəni, istəyirəm mən,
Ova çıxım gözəllərlə lap səhər tezdən.
Əgər şahım bu istəyə versəydi izn,
Mən açardım qadağını bağlı Şəbdizin.
Sonra minib, ova çıxım çölə, düzənə,
Axşamüstü qayıdaram saraya yenə..."
Mehin Banu cavab verdi: "– Ayüzlüm, məndən
Yüz mülk istə Şəbdiz atın əvəzinə sən.
Gecə kimi qara Şəbdiz dəlisovdur çox,
Dördəm qaçsa ona çatan özgə bir at yox!
Birdən burnu yellənərsə, yolu çaşdırar,
Qızğınlıqdan su içində od alışdırar.
Atlanmağın gərəkdirsə, unutma sən bir,
Qara gecə dolğun Aydan gözəl deyildir!
Ağzına vur igidliyin bərk yüyənini,
Üstündəykən incit onu, incitsə səni..."
Üzü güldü yarpaqtəki o gülüzlünün,
Taxt önündə yeri öpüb, dinc yatdı o gün!

## Şirinin ova çıxması və oradan Mədainə yollanması

Səhər çinli saxlancdar ki gözünü açcaq,
Gövhər mücrü açarının gözünü açcaq
Çin naxışı o mücrüdən çıxdı dışarı,
Qət etmişdi – at qovacaq ovlağa sari.
Çin bütləri qulluğunda hazır durdular,
Sərvlər kimi dayandılar, boyun burdular.
O gülümsər üzlüləri görəndə Şirin
Belə dedi kənizlərə çox şirin-şirin:
"– Mən Tanrıma üz tutaraq çıxıram çölə,
Bəlkə, bu gün bir quş düşə cələmə elə..."
O bütlərsə başlarından açıb örpəyi,
Özgə yolla başladılar qulluq etməyi.
Bakirələr soyunaraq ipək geyimi
Yar-yaraqlı geyindilər igidlər kimi.
Onlar yolu tutmuşdular, varanda çölə,
Qullarsayaq geyərdilər geyimi belə.
Şirinin də dövrəsində halay vurdular,
Onun kimi at belində dik oturdular.
Ordan çıxıb, at qovdular hey sıra-sıra,
Bənzərdilər dirilik su içmiş Xızıra.
Dayanmadan at çapdılar gen düzənlərdə,
Dalda qaldı yaşıl geymiş gen düzənlər də.
Çapmırdılar, sanki quştək uçurdu atlar.
Cilovları buraxılmış qaçırdı atlar.
Büt Şəbdizin belindəydi, cürət edirdi,
Atlı qorxmaz, atı isə iti gedirdi.
At qızışdı yan-yan çapan çağı ötüşdü,
O, qızlardan aralanıb, qabağa düşdü.
Sandılar ki, at yüyəni itirib qaçır,
Bilmədilər, büt özü baş götürüb qaçır...
Kölgə kimi süründülər o yan-bu yana,



Görmədilər tozunu da, kölgə bir yana.
Gecəyədək axtardılar bütün hər yeri,
Daha ümid eyləməyib, döndülər geri.
Hər birisi öz şahından aralı düşdü,
Üzüldülər, ürəkləri yaralı düşdü.
Ulduzlartək ayrı qalıb dolğun Ayına,
Qayıtdılar Mehin Banu şah sarayına.
Taxt önündə kirpikləri süpürdü yeri,
Danışdılar olanları səhərdən bəri.
Danışdılar: Ulduz açdı gecə oyunu,
Uçağan at alıb qaçdı nə təhər onu?!
Mehin Banu eşidincə qara sorağı
Yada düşdü keçən günün ağrılı çağı.
Ayağını öz taxtından aşağa qoydu,
Başınasa kül ələyib, torpağa qoydu.
Bu ağrıdan tez başını tutdu əlləri,
Gözlərinin qanlı-qanlı axdı selləri.
Şirinini ağrılarla yad elədi o,
Qardaşının yaşınısa təzələdi o.
Göz yaşları boğdu onu: "– Ey gözəl Ayım,
Ayrıldınsa, gəlmisən, bil, sən gözə, Ayım!
Çiçək idin budağından külək qopartdı,
Hardan bilim, hansı tikan üstünə atdı?!
Nə baş verdi, getdin belə nigaran bizdən,
Kimi seçdin, olsun artıq mehriban bizdən?!
Maralların acığımı toxundu sənə,
Yoxsa keçdin bir aslanın öz pəncəsinə?!
Bir Ay idin, ayrı düşdün ulduzlarından,
Axı Günəş deyildin ki, təkləndin asan?!
Yaşıllığı canım olan bəs sərvin hanı,
Bağlamışdı damarımla budaqlar canı?!
Aydır üzün, işığını kim oğurlayıb,
Mən ki səni itirmişəm, kim uğurlayıb?!"

Bütün gecə səhərədək çağırdı ağı,
Qalayırdı köksü üstə dağ üstə dağı.
Dayanmışdı qulluğunda qoşun Banunun,
Gözləyirdi buyruğunu hər anda onun.
Buyursaydı, gecə gözü yumub açınca
Yollanardı atlı qoşun qızın ardınca.
Mehin Banu istəmədi bu səfəri də,
Özü qaldı, göndərmədi bir nəfəri də.
Yuxusunda görmüş idi gələn ağrını,
O görmüşdü əldən uçub gedən qırğını.
Sonra isə darıxaraq baxmış yoluna,
Qırğı yenə qanad çalıb qonmuş qoluna.
Banu dedi: "– Bu çağdaca qanad açsaq biz,
Qıy vuraraq göy üzündə belə uçsaq biz.
Aydın deyil, dolaşsaq da hey bulaq-bulaq,
Şəbdiz atın ayağının tozunu bulaq.
Uçan quşa qova-qova çatmaq olarmı,
Toru qırıb qaçan ova çatmaq olarmı?!
Sızlama ki, uçub getdi əldən göyərçin,
Öyrəşibsə, yuvasına dönəcək, yəqin!
At nalından bir qığılcım tapana qədər
Ayrılığa dözəm gərək, çəksə nə qədər!
Əgər itmiş saxlansın da bilsəm yerini,
Qaytararam onun yenə şənliklərini.
Cəvahiri saxlancıma bir də qoyaram,
Bu ad-sana var-yoxumu mən paylayaram!"
O çağda ki qoşun durub, dinlədi onu,
Əməl etdi, necə buyruq vermişdi Banu.
O yandan da çapırırdı Şirin Şəbdizi,
Axtarırdı, bu Varlıqda tapsın Pərvizi.
Ulduz təki iti-iti axıb gedirdi,
Gecə-gündüz yoldan-yola çıxıb gedirdi.
Elə geyim geyinmişdi qulluqçusayaq,
Oba-oba, ulus-ulus keçirdi oyaq.
Yağılardan çəkinirdi, odur ki, hərdən
Yol salırdı dağdan-daşdan, dar keçidlərdən.
Çiçək üzü çağsız-çağsız soluxmuş idi,
İncə varlıq ağırlığa yoluxmuş idi.
Qoy qalmasın, gizlimləri açım sənə mən,
Cadugərlik edən qadın əfsanəsindən.
O cadugər yolda güzgü, darağı atdı;
Güzgüdən dağ, daraqdansa meşə yaratdı.
Həmin qadın dara düşüb-budur düzgünü,
Bir kənara tullamışdı daraq, güzgünü.
Şirini də ağır yollar ağrıya saldı,
Üst-başını dağ-meşənin tozları aldı.
Bir yel təki atlanırdı dağdan-dağa o,
Yel at üstdə bənzəyirdi uca dağa o.
Ürəyinə işıq salan istək gəzirdi,
O dolğun Ay on dörd gündü, Aytək gəzirdi.
Bircə mənzil verməmişdi heç dinclik ata,
Can atırdı, istəyindən bir soraq tuta.
Şəbdiz atı küləklərdən bacını alırdı,
Yer fələyin dönməsindən geri qalırdı.
Səhər tezdən söküləndə qızıl Dan yeri,
Qaranlığın açılmadı işıq gözləri.
Min-min nərgiz bu fələyin üzündə soldu,
Ona görə, bir sapsarı çiçək doğuldu.
Şirin atı çapırdıqca dəhmərləyirdi,
Dalğınlıqdan könlü artıq qəhərləyirdi.
Önündəcə cənnət təki yaşıllıq vardı,
İçindənsə dirilik su-bulaq qaynayırdı.
O bulağı görən çağdan belə dumduru,
Yaşınırdı qaranlıqda dirilk suyu.
Uzaq yollar Şirini də çəkmiş sınağa,
Üzü-gözü bulaşmışdı toza-torpağa.

Həndəvərdə dolandırdı atını bir az,
Sandı, burda heç kimsənin izi tapılmaz.
Atdan enib, tez bağladı onu bir yerə,
Diqqət belə yetirmədi yol keçənlərə.
İşıq bulaq olan suya doğru yollandı,
Ta uzaqdan fələyin də gözü sulandı.
Sıyrılanda geyimindən ağ şəkər bədən,
"Yeddi qardaş" ulduzları saldı min şivən.
O, belinə göy rəngində ipək bağladı,
Suya girib, bu Varlığı odla dağladı.
Fələk altı ulduzunu bükdü qaraya,
Su zanbağı bir ağ gülü saldı araya.
Dörd yanına göy rəngində çəkdi hasarı,
Axşamüstü Ay baxırdı yerlərə sari.
Büllur bədən su üzündə necə süzürdü?!
Sanki sincab üstündə boz dələ üzürdü.
Nə gözəldi bulaq suyu çiçək yuyanda,
Yox, yox çiçək dövrəsində bitər dörd yanda.
Elə duru bulaqdı ki, suyu rəng almış,
Günün işıq bulağını bəzəkdən salmış.
O gümüşü çiyinlərə tökülən saçlar,
Su üzünü örtmüş idi yasəmən saçlar.
O saçları kəmənd kimi atmışdı ora,
Balıq deyil, Ayın özü düşmüşdü tora.
Müşki ilə bəzək vurmuş ağlığı üstə,
O ağlıqdan Varlıq dadıb, düşmüş yan üstə.
Öncədən də ürəyinə dammışdı, deyən,
Gəlib bura çıxacaqdır onu istəyən.
O bulağın xalis şəkər suyunda bu gün
Özü şərbət düzəldirdi qonağı üçün!



## Şirinin Xosrovun sarayına yetişməsi

Bir işi ki yönə qoymaq istəsə fələk,
Öncə, örtük arxasında qurar min kələk.
Könlü varsa, bir kəndliyə verə saxlancı,
Öncə, istər, çalışqanlıq olsun qazancı.
Yol üstündə dolaşmasa ayağa kol-kos,
Çiçək, şümşad dəyərini duyarmı bir kəs?!
Ayrılığın üzüntüsü uzansın gərək,
Qovuşmağın çağı, onda, olar sevincək!
O çağdan ki Şirin qaldı Xosrovdan iraq,
Qovuşmağın çağından da düşdü çox uzaq.
Soraqlaşıb,o sarayın çıxcaq yönünə,
Düz Şəbdizi Mədainin çapdı önünə.
Gəlin kimi arasa da özü ərini,
Gəlin kimi vurmamışdı bəzəklərini.
Çatıb, verdi kənizlərə özünü nişan,
Bir sərvboylu o bağçaya girdi astadan.
Gözəlliyi gözəlləri içindən yaxdı,
Alt dodağı dişlədilər, al qanı axdı.
Bir şah təki qulluğunda durdular daha,
Bir tutuldu gələn qonaq o Xosrov şaha.
Söylədilər: "– Xosrov doğru yollanış edib;
Od gətirmək üçün özgə torpağa gedib.
Dan yeritək od yollayıb uzaqdan o da,
Ocaq kimi könülləri yaxıbdır oda!"
Çalışdılar, öyrənsinlər, necədir, öncə,
Soruşdular soykökünü bura gəlincə.
Sordular ki: "– Haradansan, soyadın nədir,
Hansı yuva quşusan sən, bəs adın nədir?!"
Pəriüzlü gizlimləri çözmədi açıq,
Yalan deyib, sözlərini kəsdi yarımçıq:
"– Nələr çəkdim, mən danışsam, çox uzun olar,
Xosrov gəlsin, danışaram, onda, nə ki var.

Geri dönüb, sarayına şah yetişincə
Hər gizlimi açıq söylər incədən-incə.
Ancaq ata yaxşı baxın, saz olsun yeri,
Neçə-neçə saxlanc edər onun dəyəri!"
O qonaqdan eşitdikdə bu cürə sözlər
Yüz naz ilə oturtdular onu kənizlər.
Ay üzünə gülab səpib söz sora-sora
Atını da bağladılar tezcə axura.
Mirvarilər düzdülər də ipək donuna,
Bəzədilər, özgə bəzək vurdular ona.
Qovuşmağın öz çiçəyi açdı bağında,
Arxayınca dinclik tapdı o, yatağında.
Saraydasa acıq güdən qısqanc kənizlər
Sandılar ki, bir kənizdir-dodağı şəkər.
Şirindodaq ta onlarla gedirdi yola,
Kənizlərlə kəniz kimi o qala-qala.

## Xosrovun öz atasına acığından Şirinin soraq tutması

Mədaində Şirin qonaq qalan çağından,
Bal süzüldü ləçək-ləçək bal dodağından.
Ürəyincə dincəlmişdi bir aya qədər,
Şah Xosrovun qaçmasından soraq verdilər.
Biləndə ki, atasına eyləyib acıq,
O, ovlaqdan Arman sari yollanıb açıq.[14]
Ürəyini ağrı tutdu belə gününə,
Doğrudan da, düşmüş idi işi düyünə.
Belə keçsə, saraydakı günlər ağırdı,
Dözəmmirdi, ürəyinə ağrı yağırdı.



O bulaqdan keçib gedən anladı, kimdi,
At üstündə onu güdən anladı, kimdi...
Bu Varlığın yaraşığı Xosrov özüymüş,
Aya baxan o Günəşin odlu gözüymüş.
İkiəlli öz başına döydükcə döydü,
Aldanışı yada salıb, özünü döydü.
Dözdüsə də, ağrı üzdü onu neçə gün,
Düşündü ki, belə getsə, düşəcək üzgün.
Dedi:"– Suyu-otu gözəl ovlaqda mənə,
Saray qurun dağ qoynunda, yaylaqda mənə.
Mən dağlıyam, çiçəklikdə yaşa dolmuşam,
Qızılgülü isti qarsıb, daha solmuşam."
O bütüzlü yaxınları dedilər belə:
"– Bütlər şamı, gəl ərimə sən gilə-gilə.
Başçımızdan buyruq var ki, səndən ötrü tək
Suyu-otu gözəl yerdə saray tükdirək.
Tapşırırıq ustaya biz, buyursan, əgər,
Sənin üçün dağ qoynunda gözəl yer seçər."
Şirin dedi: "– Şahlar şahı tapşırdığı tək
Az keçməmiş, bu sarayım ucalsın gərək!"
Qısqanclıq ki, od vururdu o kənizlərə,
Çağırdılar ustanı da gizli bir yerə.
Söylədilər: "-Bir cadugər saraya gəlib,
Uzaq Babil dağlarından buraya gəlib.
O tilsimçi, əgər, yerə bir yol "qalx" deyə,
Torpaq özü quma dönüb, sovrular göyə.
Buyursa ki, yerindəcə dayansın fələk,
O dayanar bir qıç üstə tərpənməyərək.
İndi bizdən elə yerdə bir saray istər,
Həmin yerdə bürkülərdən olmasın əsər.
Torpağına az adamın ayağı dəysin,
İstəməz ki, cadulara hər kəs baş əysin!

Bacarığın varsa, göstər bu cadugərə,
Axtarıb tap, get bürkülü olan bir yerə.
Oradaca bər-bəzəkli sarayı ucalt,
Qazancını sonda gəlib alarsan qat-qat..."
Sonra saray dəyərinin haqq-hesabına
Neçə xalvar ipək, xəz, pul verdilər ona.
Görən kimi, bu qazancı çox sevindi o,
Ağır işin ağrısına dözdü indi o.
Elə bir yer gəzirdi ki, gözlərdən uzaq,
Dörd yanını dövrələsin dik qayalı dağ.
Axır, tapdı ürəksıxan, bürkülü yeri,
Qocalardı orda qalsa, gəncin hər biri.
Girmanşahdan on ağaclıq uzaq bir yerdi,
Tək ondan yox, bu Varlıqdan uzaq bir yerdi.
Usta gedib, özü üçün iş yeri qurdu,
Çox çalışdı, altı aya sarayı qurdu.
Hər kəs, əgər, atı çapıb, baxsaydı ora,
Anlardı ki, Şirin düşür sıxıntılara.
Gecə qara örtüyünü sərdiyi zaman
Şirin ora getmək üçün çıxdı saraydan.
Yanındaydı bir neçə də kəniz bakirə,
Neç birisi kişi üçün düşməmiş girə.
Dar zindanda qalmış Şirin indiyə kimi,
Gizlənmişdi daş içində bir gövhər kimi.
Xosrovun da ayrılığı yaxın özünə,
İki Varlıq qapısını örtmüş üzünə.



## Xosrovun Armana çatması

O bulaqdan Xosrov artıq çox uzaqlaşdı,
Yaş axıdan gözlərindən yuxusu qaçdı.
Həmin yerdən mənzil-mənzil aralandıqca
Bu Varlıqdan əl üzürdü onu andıqca.
Sonra yandı gözlərində ümiddən şölə
Ki, doğmamış dağ ardından Günəşi hələ.
Düşünürdü: "Mən gedirəm Doğuya doğru,
Bəlkə, tapam o Günəşi, doğrudan doğru."
O dağlığın ucqarında açdı bir çiçək,
Gözətçilər gəlişindən soraq tutantək.
Yubanmadan yürüdülər, tez qarşısına,
İpək geyim, qızıl şeylər verdilər ona.
Xosrov çoxlu gözəl gördü-yığnaq bəzəyən,
Ondan ötrü ürəkyaxan, yolu gözləyən.
Gözəllərlə əylənməkdən diləklər aldı,
Darıxmadı, bir neçə gün yığnaqda qaldı.
Sonra qalxıb, üz çevirdi Muğana sari,
Ordan isə başlanırdı Qaslar yolları.[15]
Mehin Banu bu gəlişdən alınca soraq
Dedi: "– Gərək, şaha layiq qulluqda olaq!"
Şahla görüş üçün onun qayğısı artdı,
Qarşısına yar-yaraqlı qoşun çıxartdı.
Saxlancından verdirdi o, çoxlu dəyərlər;
İpək, qullar, xalı, birdə ki gövhər.
Bir söz ilə, armağanın yoxdu qədəri,
Yazarların yorulmuşdu yazan əlləri.
Axır, Xosrov sona vurdu yolçuluğunu,
Gülərüzlə qarşıladı Banu da onu.
Şah taxtının önündəcə kürsü də qurdu,
Mehin Banu o kürsünün üstdə oturdu.
Buyruqçular dayandılar ayaq üstündə;
Üzügülər, başaşağı, əli köksündə.

Şahlar şahı soruşdu ki: "– Özün necəsən?
Qovuşasan coşqun-daşqın sevinclərə sən!
İncitmişəm bu gün səni, gəlmişəm qonaq,
Başağrısı görməyəsən bundan heç sayaq!"
Mehin Banu gördü onda açıq ürək var,
Sandı, belə qulluq özü ucalıq olar.
Dan yelitək qanad açdı sərin-sərin o,
Sözlər dedi şaha layiq şirin-şirin o.
Günişıqlı gələcəyi sınağı oldu,
Xosrovun da şah sarayı dayağı oldu.
Bir həftədə o, şah üçün ucalıq deyə,
Göndərirdi hər gün ona yeni hədiyyə.
Yeddi gündən sonra gəldi elə gözəl gün,
Görməmişdi bu Varlığa işıq yayan Gün.
Düzənlikdə şah oturdu taxtına yenə,
Sultansayaq güvənirdi bu günlərinə.
Dağ reyhanı təki çıxan qara bığları
Çox ürəyi təpə kimi bölmüşdü yarı.
Buyruqçular halay vurub, büsat qurdular,
Onlar bağda sərvlər kimi yan-yan durdular.
Hər kəs coşub, öz yerindən dedi sözünü:
Şaha qulluq eyləyəni sandı özünü.
Qızışdıqca yığnaq yaman başı qatmışdı,
Yardan dilək diləməyin çağı çatmışdı.
Mehin Banu yeri öpüb, qalxdı ayağa,
Ürək sözü söyləməyə ulu qonağa:
"– Diləyimiz budur sizdən, Bərdəyə gəlin,
Bütün qışı oradaca qalıb dincəlin.[16]
Ürəkaçan havası var o düzənlərin,
Başdan-başa yaşıllıqdır, suları sərin".
Şah ürəkdən bəyənərək istəyi o dəm
Dedi: "– Gedin, arxanızca mən də gələrəm!"
Dan yerinin ağaranda al yanaqları



Xosrov ordan yola düşdü Ağbağa sarı.[17]
Gözəl idi yurd torpağı, baxırdın hara,
Köç eyləyib, tac-taxtı da çəkdilər ora.
Dörd bir yanda sıra-sıra çadır quruldu,
Hər bir kəs də çadırında yerləşən oldu.
Mehin Banu əsirgəmir şahın önündə,
Qulluğunu göstərirdi belə günündə.
Şahın orda bütün günü gözəl keçirdi,
Şirinin də acığına çaxır içirdi...

## Xosrovun Mehin Banuya Şirindən soraq çatdırması

Bu Varlıqda gözəl nə var dinclik çağından,
Yaşamağa ağ yol açan gənclik çağından?!
Yaşamaqdan özgə heç nə gözəl sayılmaz,
Gəncliyin də öz çağından yaxşı gün olmaz!
Yer üzünün başçısıydı Xosrovun özü,
Ancaq gəncdi, damağı çağ oynaqdı gözü.
Ozan hələ oxumasa, içki içməzdi,
Gözəllər rəqs etməsələr, yığnaq keçməzdi.
Ozanlara ödəməzdi göz görə-görə,
Saxlancından bağışlardı oxuya görə.
Bir gün yenə baş qatmışdı qızğın yığnağı,
Mehin Banu gəlib çıxdı bu bayğın çağı.
Şahsa qayğı göstərirdi ayrıca ona,
Özgə çağdan daha artıq ucalığına.
Yemək gəlcək Varlıq şahı tapşırdı, yəqin,
"Nar çubuğu" sağrışını oxusun kahin.
Xosrov özü öyrətmişdi süfrə açılcaq,

Deyərdi ki, həmin çağrış öxunsun, ancaq!
O çağrışın *yolu ilə süfrədə hökmən*
Oturan kəs dadmalıydı hər bir xörəkdən.
Kahin gəzib, yığnaq boyu söylərdi bir-bir,
Hansı xörək yeməlidir, hansı köhnədir.
Şah yenidən böyüklərlə bir yığnaq qurdu,
Varlığın öz xanımısa başda oturdu.
İçki içib şaha layiq camda onunla,
Hər bir yandan söz açırdı, həm də onunla.
Acı içki əsər etdi, o, bayğın qaldı,
Bu çağında daha sözü Şirindən saldı.
Onun necə qaçmasından danışdı xeyli,
Ürəyində sevinirdi, üzdə gileyli.
Şahsa dedi: "– Qardaşınız qızının gerçək,
Söyləyirlər, boyu sərvdir, yanağı çiçək.
Eşitmişəm, at götürüb qaçırmış onu,
Ənqa quşu kimi burdan uçurmuş onu.
Elə bu gün elçi gəlib bizim saraydan,
Soraq verir könülaçan işıqlı Aydan.
Saxlasanız bir neçə gün siz də qonağı,
Mən alaram ondan daha doğru sorağı.
Özüm elçi göndərərəm, gətirər bura,
Yol vermərəm, ürəyini bu ağrı yara!"
Mehin Banu eşidincə belə sorağı
Huşdan getdi, tez tutuldu dili-dodağı.
Sonra qalxcaq torpaq kimi sərildi yerə,
Bərk qışqırdı, hay-küy saldı o, birdən-birə:
"– O qız hanı, qızı belə yuxuda görsəm,
Qucaqda yox, dənizdə də lap suda görsəm,
Əlim nədir, kirpiyinlə çıxarram sudan,
Tez bağrıma basıb onu, mən verərəm can!"
Taxtı öpüb, Banu belə söylədi ona:



"– Ayla Ülkər işıq salsın şahın taxtına!
Qoy Balıqdan Aya kimi bütün canlılar
Şah tacına səcdə etsin, nə ki canlı var.
Baş əysinlər ta Doğudan Batıya qədər,
Mən dedim ki, o ovun da öz çağı gələr.
Bəxt ulduzun başımızın üstündə yansın,
Bəlkə, bizim Günəşimiz qoşa dayansın?!
Onda, belə ovların da çoxusu, inan,
Çağrılmadan özü gəlib girər qapıdan.
Şah göndərsə bir kimsəni, əgər, elçitək,
O elçini getməmişdən mən görəm gərək.
Bunsuz olmaz, ona gərək, Şəbdiz dölündən
Bağışlayam iti qaçan Gülgün atı mən.
Ayaqlaşa bilməz, çünki Şəbdizlə hər at,
Tək onunla, yalnız Gülgün açar qol-qanad.
Dolğun Ayın yanındasa Şəbdiz də, əgər,
Yol gedəndə Gülgün ona yoldaşlıq edər.
Yoxsa, Şəbdiz çıxmışdırsa əlindən, ancaq,
Özgə at yox, ona layiq Gülgün olacaq!"
Şah buyurdu, Banu deyən Rəxşi bu zaman
Tez Şapura çatdırsınlar, açıb axurdan.
Eşidincə Şapur təkcə qalxdı ayağa,
Hazırlaşsın qoşa atla yola çıxmağa.
Atı çapıb, o, Mədain mülkünə vardı,
Dolğun Ayı bir ayacan gəzib axtardı.
Sarayında tapılmadı Ayüzlü nigar,
Əl çəkmədi, Şapur ora yollandı təkrar.
Tuş gəldi o bu sarayın qapıçısına,
Xosrovun da nişanını göstərdi ona.
Sevindilər, qulluq edib gələn qonağa,
Apardılar, çağın şamı yanan otağa.
Şirinin bu sarayına Şapur ki girdi,

Yaşamında görmədiyi dalğınlıq gördü.
Daş içində yumurtatək ləl büzüşmüşdü,
Gümüş varlıq qaranlıqda dara düşmüşdü.
O gövhəri görən təki ləl rəngi aldı,
Baş endirib, üzüüstdə torpaqda qaldı.
Bir Ay sanıb, min alqışlar söylədi ona,
Sonra keçdi keçən günlər sorğularına:
"– Söylə, başın nələr çəkdi, düşdünmü dara?
Bir quluntək fikrin məni çəkirdi dara!
Dalğınlıqlar görsən belə, çox ümidim var,
Sən onlardan qurtulmusan, çəkmə ağrılar.
Bu nə yerdir, dözmək olmur, sıxılır ürək,
Hansı qısqanc yol göstərib, söylə, bir görək?!
Qaranlıqda sevgin necə alışa bilər,
Qaranlıqla işıq neçə barışa bilər?!
Bağışlamaq olar, gecdir, dönməyək geri,
Sən bir ləlsən, daş içidir ləlin də yeri!"
Şirin görcək naxış vurur Çinin nəqqaşı,
Anladı ki, bu işi də düzəldər yaxşı.
Çox utandı, əli ilə örtdü üzünü,
Sayğılıqlar edib ona, dedi sözünü:
"– Mən gördüyüm ağrıları söyləsəm sənə,
Mən çəkdiyim duyğuları söyləsəm sənə.
Söyləməklə başa gəlməz, nə gərək demək,
Deyilməmiş sən onların ustdən cızıq çək!
Tuşutduğun o saraya gəlib yetişdim,
Qısqanc-qısqanc qulluqçular içinə düşdüm.
Orda neçə pozğun gördüm, verib əl-ələ,
Günlərini keçirirdi pozğunluq ilə.
Ülkər kimi açırdılar əl-qollarını,
Satış üçün salmışdılar oz yollarını.
Üzübağlı gəlin təki ordan qaçdım mən,



O bir ovuc həyasızdan uzaqlaşdım mən!
Özüm verdim yalqızlığa dözməyə qərar
Dilədim ki, mənə bir köşk tiksinlər onlar.
Qısqanclıqdan ürəyimə qan doldurdular,
Burda məni üzüb belə tez soldurdular!"

## Şapurun Şirini Armana qaytarması

Sarayından qaytararkən Şapur Şirini
Sözləşsə də, tapanmadı şahın yerini.
Gülgün atın yəhərindən düşürtdü onu,
Tapşırdı öz diyarına Mehin Banunun.[18]
Huri düşdü cənnətinə, sərv də çəmənə,
Günəş göyə gəldi, işıq gözlərə yenə.
Şirin üçün canlarını nə ki üzən var:
Həm yaxınlar, həm doğmalar, həm qulluqçular
Görən təki, qucaqlayıb, öpdülər yeri,
Torpaq olub, ayağına düşdü hər biri.
Çağırışla pay verdilər çolağa, şilə,
Od evini doldurdular armağan ilə.
Onda Banu, nə gündəydi, sığışmaz sözə,
Sevinərək örtüyündən çıxmışdı üzə.
Sanki qarı gəncliyini tapmış təzədən,
Ölüb getmiş bir insandı, dirilib bədən.
Köksü üstə istəklinin sıxmış başını,
Yaşam yeni yaşayırdı yaşam yaşını.
O, Şirinə yanaşırdı sayğılar ilə,
Bu sayğını yazmaq olmaz yüz-yüz beyt belə.
Bağışlayıb saxlancından, şahlıq mülkündən,
Söylədi ki, bunlar sənin olsun bu gündən.
Bir tük qədər söz demədi özünə onun,

Keçənləri heç vurmadı üzünə onun.
Anladı ki, bu şıltaqlıq ürək səsidir,
Keşməkeşli bir sevginin nişanəsidir.
O sezmişdi bu sevgini şahın özündən,
Gümüşbədən kənizlərin açıq sözündən.
Bağlayırdı içki daşan ağzını küpün,
İstəyirdi, palçıq ilə qaralansın Gün.
Ürək-dirək verirdi ki, ondan söz alsın,
Ürəyi də aram vursun, özü sağalsın.
Göstərirdi daha artıq qayğılar ona,
Bəsləyirdi əzəlkitək duyğular ona.
Həmin yetmiş gözələ də tapşırdı onu,
Qoy başlansın gözəllərlə şənlik oyunu.
Qurğu quran o oyunbaz fələksə yenə
Başlamışdı törətdiyi işdəklərinə.
Şirin yığdı öz başına bir də qızları,
Bir dolğun Ay işıqlatdı o ulduzları.
Başladılar şənlikləri təzələdilər,
Sevinclərin qaynağını çözələdilər...

## Xosrovun Bəhramdan qaçıb Armana getməsi

...Şahənşah da yaşamını sönük sanırdı,
Xalq üzünə ağ olmuşdu, dönük sanırdı.
Gözləyirdi ağ gününün gələcəyini,
Bağlamışdı zəngin vara gələcəyini.
Bunu duyub, qoşununu topladı yağı,
Xalq qalxınca ona qarşı, itdi dayağı.
Dolaşığa düşdü bütün işi Pərvizin,
Taxtdan enib, aciz qalxdı üstə Şəbdizin.
Tac üstündə düşən qovğa qorxutdu onu,
Anladı ki, pis qurtarar savaşın sonu.
Tacsız qoydu, başsız qoydu, taxt şahsız qaldı,
Bu Varlığı özgə biri əlinə aldı.
Fələyinsə oynadığı oyun üzündən
Şah yenildi Bəhramın da qılınc izindən.
Oyunçutək uduzmuşdu şahmatda özü,
Hər xanəni dəyişdikcə "kiş" aldı, düzü!
Minbir qorxu, cığır, yoxuş gətirdi cana,
Üzgün düşüb, o yetişdi Azərbaycana.
Oradansa yol götürdü Muğana sarı,
Muğlar kimi ürəyində od duyğuları![19]

## Xosrovla Şirinin ovlaqda üz-üzə gəlmələri

O qocaman söz ustası söyləyir belə;
Ov axtaran gen çöllərdə dönmüşdü yelə,
Hardan keçir, bir ov vurub salırdı yerə.
Uzaqlardan göyə qalxdı toz birdən-birə;
Şirin idi, yaxınları yenə yığmışdı,
Elə o gun ov etməyə düzə çıxmışdı.
İki ovçu bu düzəndə üz-üzə qaldı,
Ovlamağa bir-birini qanadlar çaldı.
Hər ikisi sevgisindən bayğın olaraq
Ovlaqdakı yaxınlardan düşmüşdü uzaq.
Ucaboylu sərvər kimi iki oxatan
Sevgilərin oxu ilə almışdı nişan.
Şahlıq əli birisinə tac bağışlamış,
O birisi yüz-yüz tacı salıb xışlamış.
Birisinin gül üzündə bitmişdi sünbül,
O birinin gül üzünü örtmüşdü sünbül.
Biri ənbər qulağına etmiş saç bəndi,

Biri atmış öz çiyninə mişkin kəməndi.
Birisinin qırmış Ayı boyunbağısı,
Biri Aya taxmış buxaq boyunbağısı.
Donuq durub, bir-birinə o qədər baxdı,
Hər birinin gözlərindən sutək yaş axdı.
Nə Şirindən ayrılırdı şah Xosrov Pərviz,
Nə Gülgünü ötüb keçmək istərdi Şəbdiz.
Anlaşdılar tanıyanlar anlaşan kimi,
Nişanları bir-birindən soruşan kimi.
Eşidincə öz adını özgədən hərə
Bayğın aşdı ikisi də yəhərdən yerə.
Baş qaldırıb bircə saat sonra hər biri,
Səpdi yerə göz yaşından ləl, cəvahiri.
Bir-birinin durumundan soraq aldılar,
Söylədilər, başlarına gələn nə ki var.
Deyiləsi sözlər çoxdu: duydular, olmaz,
Bəs eylədi qısa sorğu, danışdılar az.
Sıçradılar at üstünə qızılquş kimi,
Göyü yerə gözədilər sonra quş kimi.
Öz atının yüyənini çəkdi hər atlı,
Dörd bir yandan gəldi neçə pəriqanadlı.
Gördülər ki, Ayla ulduz nazlanar qoşa,
Sevgililər bürcü üstə hey yanar qoşa.
Sevgiləri ürəkləri oda salmışdı,
Atlar isə mıxlanaraq yerdə qalmışdı.
Atlıları görən atlı olurdu gözdən,
Seçənmirdi Şirini heç Xosrov Pərvizdən.
Qarışqatək bir-birinə dedi gizlicə;
"– Bilqeyisdi biri, o da Süleyman, məncə!"
Qoşun dağın ətəyinə toplaşan zaman,
Yer açıldı altda duran buğaya, yaman.
Dörd bir yandan adam gəlib hey topa-topa,
Onların yan – yörəsində düzüldü sapa.
Şirin şaha üz tutaraq dedi: "– Ey sərdar,
Təkcə mən yox, mənim kimi min-min qulun var!
Başındakı uca tacla göylər öyünür,
Yer ürəyi taxtın altda çox dinc döyünür.
Yeddi ölkə baş əysə də hazırda sənə,
Sən başçısan başdan-başa Varlığa yenə.
Uzaq deyil bu yaxında, yoldan az kənar,
Şahın qayğı-sayğısından bir evimiz var.
Sevinərik, o buyursa bu evimizə,
Qulu olsaq, başucalıq gətirər bizə.
Qarışqanın palazının üstə çıxsa fil,
Qarışqaya toy-bayramdır özgə cür deyil!"
Şah söylədi: "– İstəsəniz, olaram qonaq,
Canla-başla evinizdə qalaram qonaq!"
Şirin isə baş endirib şaha sevincək,
Sayğılıqlar göstərdi o daha sevincək.
Banuya da qoşa atla adam göndərdi,
Şahın qonaq gəlməsini tez soraq verdi.
Mehin Banu tutan kimi, belə sorağı,
Bildi, nəsə dilək üçün gəlir qonağı.
Armağanla çıxdı onun önünə birbaş,
Səpdi Ayın və Günəşin başına şabaş.
Şahı elə bir saraya gətirdi o gün,
Tuba olar bağ ağacı budağı, yəqin.
Bir saraydı, başı göyə ucalmış onun,
İki açıq yer olardı eni, uzunu.
Sayğı-qayğı göstərərək ona bir daha,
Səxavətlə armağanlar göndərdi şaha.
Çox olsa da göndərilən saxlanc dəyəri,
Seçib-saymaq asan idi verilənləri.
Şirininsə sevgisində hər zaman təki
Öz bazarı şirin idi şahın can təki.

## Mehin Banunun Şirinə öyüd verməsi

Bir əkinçi dənəş toxum səpərsə şuma,
Göyərəndə yiyə durar dənəş toxuma.
Qorusalar, toz almasın heç yerdə gövhər,
Torpaq altda qalsa belə, çətin toz örtər.
Soyu duru olduğundan Mehin Banunun
Dinc qoymurdu Xosrov-Şirin sevgisi onu.
Hey düşünüb-daşınırdı o, gecə-gündüz;
Odla çırpı yola gedər? Necə olar düz?!
Şirinə də söylədi ki: "– Göz işığımsan,
Tək mənə yox,gözəllərə olmusan sultan!
Sənin nazın alar yüz-yüz şahlıq mülkünü,
Dəyişmərəm bu Varlığa mən bir tükünü.
Ağgünlülük bir quludur gəzən kölgənin,
Hara axsan, bəzəyindir duruluq sənin.
Bu Varlığa işıq saçar öz gözəlliyin,
Duruluğa qollar açar öz gözəlliyin.
Sən qapısı damğalanmış saxlancsan özün,
Bu Varlıqda yaxşı-pisi almamış gözün.
Yüz cür işdək işlədənə bənzər bu Varlıq,
Ləl oğurlar, yaqutu da əzər bu Varlıq.
Çoxdan damıb ürəyimə; gələn cahangir,
Öz toruna səni salmaq istəyindədir!
Varlıq şahı əgər könül veribsə sənə,
Deməк, iri ov düşübdür artıq tələnə.
Ancaq görsən, heç bir dinclik vermir özünə,
Ayıq tərpən, aldanma sən yağlı sözünə.
Şirin-şirin dil tökməsi üzdən savayı,
Olmaya ki, dadlı halva yeyə havayı.
O aldadıb, bir yolluğa tullayar səni,
Gedib tapar özgə yerdə bir özgəsini.
Gün üzünün istisində elə qızın sən,
Çörək kimi təndirinə sürüşməyəsən!

Eşitmişəm, şahın on min kənizi vardır,
Hamısı da şəkərdodaq, gur saçlılardır.
Bir o qədər çiçək ilə könlü gülən kəs
Nə deyirsən, tək çiçəyi sevə bilər bəs?!
Bilirəm ki, keçirməyə ələ gövhəri
Bu gövhəri alanmasa, çəkilməz geri.
Bir də görsə, çox qayğılı-saygılısan sən,
Səni elin yolu ilə istəyər məndən.
Bir saygılı qızsayağı öz adın qalar,
Bu Varlığın şahlığı da, bil sənin olar!
O, Aydırsa, Günəşin öz boyundanıq biz,
O, Keyxosrov, Alp Ər Tonqa soyundanıq biz![20]
Alçalmaqdır bir kişinin ardınca getmək,
Alçaltmağı seçməsinlər qadınlar gərək!
Çiçəklər var, açan çağda kum-kum tutarlar,
İyləyəndən sonra onu yana atarlar.
Doldurarlar içkiləri boş qədəhlərə,
Birce qurtum içən kimi, tökərlər yerə.
Bilirsən ki, qalmaq üçün sən başıuca,
Ərə getsən, ucalıqdır, sevən olunca!"
Şirin baltək öyüdlərə qulaq asırdı,
Sonra onu qulağından sırğa asırdı.
Öyüdləri bəyənirdi ürəkdən özü,
Ürəyindən keçirirdi, axı hər sözü.
Yeddi işıq göy qatına and içdi Şirin,
Yaradanın ovqatına and içdi Şirin:
"– Sızlasam da gözəlliyin ilk sevgisindən,
Olsam, yalnız saygı qadın olacağam mən!"
Banu görcək Şirin belə candan and içdi,
Ürəyindən bir toxtaxlıq duyğusu keçdi.
Sonra ona tapşırdı ki, açıqda, üzdə
Şahla durub otursunlar sarayda, düzdə.
Ancaq yalqız qalmasınlar onlar bir yerdə,
Danışsınlar, yalnız adam olan hər yerdə.

* * *

Özgə Varlıq qaranlıqdan bir səhər doğdu,
Günün əli ulduzları işıqla boğdu.
Bir bələdçi işıqlardan sıyrılıb üzə,
Həm Bürcisə, həm Zöhrəyə tulladı nizə.
Təkcə qalan Günəş isə ürəyində kin
Ulduzları qırıb tökdü, eylədi tərkin.
Şirininsə öz yanına toplaşan kimi,
O yetmiş qız durdu dişi aslanlar kimi.
Hər birisi kişilikdə İsfəndiyardı,
Ox atmagda atlı Rüstəm gücləri vardı.
Elə çovqan oynadılar-sox çevik, oynaq,
Fələyin də çənbərindən Ayı çalaraq.
Oxdanları bağladılar bir-bir sərvlərə,
Sərvlər kimi dik qalxdılar sonra yəhərə.
Ayüzlülər üzlərini örtdülər bütün,
Yollandılar Xosrov şahla görüşə o gün.
Gözətçisi qarşıladı tez çıxıb çölə,
Bayğın şahsa çox sevindi gəlişə belə.
Gözəl duydu o, Şirinin kim olduğunu,
Öz taxtının sağ yanında oturtdu onu.
Nələr gördü! Könülçalan Aytək gözəllər,
Şəkər dolu uca saray, nağıllı şəhər!
Şah ürəkdən xoşlandı ki, çox qorxmazdılar,
Açıq düzdə at çapmaqda öz gücləri var!
Qara üzlük salanların istəyi üçün,
Çıxdı düzə çağının xoş keçməyi üçün.
Oyunların düzəninə yetişən çağda,
Ayüzlülər uçurdular ötüşən çağda.
Günəş kimi işıqlarda hər Ay axırdı,
Hər kəklikdən qara qartal üzə çıxırdı.
Xosrov gördü, bu cür əldə bəslənən quşdan
Düzənlərdə qumru olar, ovlaqda tərlan.

Dönüb dedi Şirinə o: "– Gəl, at oynadaq,
Bir az çovgan oyununa atları qataq!"
Eşidincə çovganına bir top atdılar,
Bunu görcək gözəllərsə hay qopartdılar.
Çovganın da ağacları döndü söyüdə,
Qırıqları bütün yolu tutdu get-gedə.
Hay-küylərdən Ayın başı ağrıdı deyən,
Səndəl sürtüb, Yer qurtardı bu göynərtidən.
Söyüdlərdən hər topu ki yel aparırdı,
Gün topunu yaxasından tez qoparırdı.
Ay və onun ulduzları bir yanda idi,
Bir yanda şah, yaxınları fərmanda idi.
Ortalıqda oynayırdı maralla aslan,
Qırqovulla qırğı burda salmışdı talan.
Topu gah Ay götürürdü, gah tuturdu Gün,
Şirin girov saxlayırdı, gah da şah üçün.
Bu oyundan çox xoşlanıb, sevinc tapdılar,
Sonra düzən yanlarına atı çapdılar.
Biri Gülgünün belində, biri Şəbdizin,
Fırlanırdı fırlancağı gecə-gündüzün.
Oradansa yol saldılar düzlərə sari,
Ov etməyə oynatdılar yorğun atları.
Saysız-saysız ov vurdular elə həmin gün,
Saylarını saymaq belə olmazdı mümkün.
O gözəllər nizələrlə açıb yara da,
Qamışlıqda yer açdılar qulanlara da.
Burda atlı hər xanımın sivri oxları
Ovlaqdakı ceyranları etmişdi yarı.
Donuq qalmış şah Xosrovsa bayaqdan buna;
Dişi, ovçu aslanların at qovmağına.
Top qovanda hər birisi Hüma quşuydu,
Ov çağında əjdahanın ov vuruşuydu.

Şah baxırdı Şirinə də çox oğrun-oğrun,
Düşünürdü, edəcəkmi bu ovu yorğun?!
Birdən gözü sataşanda ceyran gözünə,
Ov oxları gəlib dəydi onun özünə.
Bayğın maral qılıncını sıyırıb qından,
Bir ceyranın yerinə, o ovladı aslan.
O Varlığı alan ovçu ovun çağında
Ovlamışdı şah Xosrovu öz ovlağında.

* * *

Fələyin ki tovuz quşu bağdan əkildi,
Qara qarğa gül dərməyə bağına gəldi.
O tovuzlar cilvələnib, çox yoruldular,
Ata minib, qarğaqanad atlı oldular.
Hərə girib yuvasına, örtdü üzünü,
Yorğun idi, səhərədək yumdu gözünü.
O biri gün astananı öpənlər yenə
Şah önündə dayandılar çiyin-çiyinə.
Yenə oyun... Yenə atı mahmızladılar,
Ovdan ötrü yaraqları tez sazladılar.
Günlər bir-bir belə keçdi, düz bircə aya,
Bir söz deyib, acımadı kimsə bu haya.
Şah gəzirdi həmin çağlar sorğu dalınca,
Yorulmuşdu o, Şirindən bir söz alınca.
Lakin ona heç düşmədi sorğu bir an da,
Axı açar bağlı idi belə zamanda.
Şəkərdodaq qayıdanda hər axşamçağı
Sevgi quşu yadırğardı daha uçmağı.
Şahlar şahı ona dedi: "– Gözəllər gözü,
Dövlətimin gözəllikdə qalıbdır gözü.
Gəl gecədən səhərədək bir yerdə olaq,
Göy künbəzin altındaca sevinclər alaq.



İçki gəlsin, süfrə açaq, qurulsun yığnaq,
Yeyib – içək, şənlik edək, gülüb-oynayaq.
Bu Varlıqda şən, ya dalğın ötürsək günü,
Gəlib keçən köhnə günlər açmaz düyünü.
Bu Varlıqdan köçəsiyik, odur ki, elə
Sevinc qatı dalğınlıqdan yaxşıdır belə!»
Tez əlini gözü üstə qoydu o pəri,
"Gecən xeyrə qalsın!"– dedi öpərək yeri.
Dolğun Ayın doğmasını görən kimi şah,
Düşünürdü, açılaydı, kaş ki, tez sabah!

## Şirinin qız yoldaşlarının məsəl söyləmələri

Söz arası açılmışdı, səpilə inci,
Firəngiz qız söz atını sürdü birinci:
"– Bir dövlət öz saxlancını gizli saxlardı,
Ondan, yalnız Firidunun sorağı vardı.
Yeri qazıb, o saxlancı keçirdi ələ..."
Gümüşbədən Süheylasa söylədi belə:
"– Sərv ağacı kölgəsində qırqovul yalqız
Oynayırdı, hey atılıb düşürdü arsız.
Göydə süzən qırğı onu şığıyıb çaldı..."
Şirindilli Ocəbnuş da dadlı söz saldı:
"– Açılmışdı bağ içində gözəl bir çiçək,
Cənnət quşu uçub ona sarı gələrək,
Dimdiklədi, vurdu onu, apardı bağdan..."
Fələknazsa ondan gözəl danışdı dastan:
"– Biz baxırdıq bu Varlığa açıq bir gözlə,
Tanışımız bizə verdi özgə bir göz də.
Bir işığı daha yaxşı görər iki göz..."
Humeyla da öz yerindən dedi başqa söz:

"– Yaşıl düzən içindəncə axırdı bulaq,
Bir susayan aslan orda saxlayıb ayaq,
Öz ağzını dumduruca suda islatdı..."
Humayunsa ortalığa ləldən söz atdı:
"– Alıcıdan gizli yerdə qalmışdı bir ləl,
Şahlıq gözü görüb onu çaldı əlbəhəl.
Şah tacının bir küncünə o ləli vurdu..."
Ağbədənli Səməntürk də dürr üstdə durdu:
"– Sədəfdən bir inci qopub, nur saçdı gecə,
Fələk asdı şah boynuna onu gizlicə.
Sanki özgə bir yaquta calaq eylədi..."
Pəriüzlü Pərizadsa bu cür söylədi:
"– Bir Ay seyrə çıxmış idi öz ovlağına,
Günəş göydən yaxınlaşdı bu çağda ona.
Həmin ayı tezcə nurdan haləyə aldı..."
Xütənxatun bacarıqla yenə söz saldı:
"– Vardı yalqız ipək geyim geyinmiş şümşad,
Gəlib ona sərv yanaşdı, könlü oldu şad.
Yaraşırdı sərvlə şümşad duranda qoşa..."
Söz yetişdi Gövhərmülkə-könül sirdaşa:
"– Nə çağdandı, göy üzündə tək idi Zöhrə,
Sonra onun üzü güldü aydın səhərə.
Zöhrə ilə Müştəri də istəyə çatdı..."
Burda sözün öz sırası Şapura çatdı,
Sevgidən o, yeni-yeni söhbətlər saldı:
"– Bir qab dolu şipşirincə təzə şan baldı:
Şahlar şahı, sonda, kərə yağ oldu ona,
Mən də çəkdim zəfəranı halvalarına."
Sonra isə pəhləvicə söylədi bərkdən:
"– İki varlıq qoşalaşdı – Varlığa, əhsən!
Hər ikiniz bu Varlığı işıqlandırın,
Ayrılmayın, ayrılığı oda yandırın!"



Söz Şirinin dodağından, elə ki, qopdu,
Müşkü göyə, şəkər isə bütün düzənə hopdu.
Gözlərini yerə dikib, dilləndi belə:
"– Könül sevgim, can yaxınım yox idi hələ,
Bu işlərə yol açmağa Şapur gəlincə
Ürəyimi parçaladı o, incə-incə.
Əgər sevgi oyanışı alın yazısı,
O yazıbdır mənə belə alınyazısı.
Sap ilməsi düşdüyündən qəşəng naxışa,
Sevinmişəm, dönüb üzüm ipək naxışa.
Mən Xosrovdan alıramsa dolu cam, noğul,
Pənahxosrov Keyxosrovla olub mənə qul!"
Sözün çağı Xosrova da çatanda dedi:
"– Bir ovlaqda qara rəngli aslan var idi,
Yalqız ceyran yolu üstdə tuş gəlib ona,
Kəməndini o aslanın saldı boynuna.
Aslan-mənəm, ovlaqdakı Şirindir ceyran,
Zəncir atıb boynuma da qara saçından.
İndilikdə kömək edib,tutmasa əldən,
Bir şam kimi sönəcəyəm mən əsən yeldən.
Əgər Şirin öz yanımda olsa hər zaman,
Mən yenərəm, hücum çəksə bir qara aslan!»
Dostlar yaxın, yoldaşlarsa sirdaş, yar idi,
Hər bir sözü gücləndirən alqışlar idi.
Sevən könül kövrək olar torpaq üzütək,
Ona tezcə sığal düşər əl çəkiləndək.
Şirinin də varlığını coşğunluq aldı,
Şah Xosrovun sevgisindən könlü yumşaldı.
Min naz ilə içki süzüb öz badəsinə,
Uzadaraq dedi: "– Al iç, nuş olsun sənə!"
O cilasız ləl əlindən içki ləl təki
Alan zaman açılırdı Xosrov gül təki.

Gah deyirdi: "– Gecə düşür artıq, ey qədəh,
Sən ağla ki, Şirinə də gətirsin fərəh!"
Gah deyirdi: "– Dişlərini ağartma, səhər,
Sən gülərsən, dağlar-daşlar üsütümə gülər!"
Gözəllərin əli ilə bu gecə fələk
"Üzük-üzük" oynamışdı lap səhərədək.
Aparmışdı üzüyünü sökülәndә Dan,
Bir də geri istəyirdi xoruz banından.
Özü üçün pay götürüb yığnaqdan hərə,
Gözəllər də yol aldılar çöldən şəhərə.
Tam daddılar qəm yemədən bir arpa qədər,
Saman boyda sevincləri əksiltmədilər.
Gün şüşəsi daşa dəyib qaralan çağda,
Xalqa Varlıq dar şüşətək daralan çağda,
Onlar içki şüşəsini aldılar ələ,
Bayğın düşüb saf şüşətək badələr ilə.
Hərəsində şüşə kimi nazik bir ürək
Gözəllərlə şüşəbazlıq edirdi fələk.
İçki içib, olurdular yığnaq sultanı,
Yığnaqlarla canlanırdı gecənin canı.
Sözdən yeni don biçdilər dünənki sayaq,
Başladılar, ləl seçdilər dünənki sayaq.
Xosrovun da sevgisindən coşur ürəyi,
Göz önünə Şirin gəlcək içirdi meyi.
Al içki tovuz quşudu, ilandan uzaq,
Yar dodağı xurma idi, tikandan uzaq!
Şah tutmuşdu bir əlində içki camını,
Bir əlində saxlamışdı çiçək kumunu.
Gah içirdi, gah da çiçək iyləyirdi o,
Qovuşmağa çox-çox fikir eyləyirdi o.
Acı içki qızğınlığı canı yaxırdı,
Göz doymurdu, o, Şirinə yenə baxırdı.



Him-cim etdi, son əlacı ona qalmışdı,
Çünki öpüş dillərini bəndə salmışdı.
Him-cimlərsə Şirini də yaxırdı oda,
Nazla cavab qaytarırdı istəyə o da.
Deyimləri baxışlarda gizləyirdilər,
Sözü açmır, gizli bir çağ gözləyirdilər.
Gözətçilik eylədilər bütün gecəni,
Gizli sözlər söylədilər bütün gecəni.
Qızğınlıqdan tərləmişdi Xosrovun üzü,
Qovuşmağa yeni yollar gəzirdi özü.
Düşünürdü, bayğın etsin Şirini belə,
Onun şəkər kuzəsini keçirsin ələ.
Ancaq çağı yetişmirdi, inadı əysin,
Xosrov atan oxü gizli hədəfə dəysin!
Bu görüşü şirinlətdi könül edən şən,
Öz çağını şən keçirdi şah səhərəcən.
Çiçəklərlə bəzənəntək söyüdün üzü
Cilovladı Gün Gülgünü, gecə Şəbdizi.
Ayla ulduz ova çıxmaq adıyla indi
Biri Gülgün atı, biri Şəbdizi mindi.
Şirin sulu Şahrudun dəhəsində o gün
İçki, şərqi yığnaqları doluydu bütün.
Onlar həm də Kür çayında açıb zənciri;
Balıq tutdu, qüş ovladı burda hər biri.
Atlarını Qoruq çölə məhmizlədilər,
Çölü ceyran və qulandan təmizlədilər.[21]
Keçirdilər günlərini onlar bu sayaq,
Gah yerləri yığnaq idi, gah yaşıl ovlaq.
Gəlin gecə öz övcunda fındıqca tutdu,
Ulduzlu bir örpəyi də üzünə tutdu.
Şah gəlini gərdəyindən durdu bu çağda,
Özü üçün yeni yığnaq qurdu bu çağda.

Gəlinlər də qoşuldular bu yerdə ona,
Bütün yığnaq gəlin idi şah qulluğuna.
Şəkər çoxsa, ancaq badam az idi yenə.
Göyərçinin sayı yoxdu, şahin bir dənə.
Hamısının şah şəninə qalxdı badəsi,
Bu Varlığı doldurmuşdu ney, sərgi səsi.
Xanəndəsiz və çalğısız ötmürdü yığnaq,
İçkisiz də, saqisiz də bitmirdi yığnaq.
İçki, sevgi, yaşıl düzən, gənclik çağları...
Bəs bunlardan gözəl varmı Varlıqda barı?!
Dolaşmağa yeni yol aç, çiçəklikdən keç,
Gözəlinin əlindən al, ləltək içki iç!
Qollarından qız boynuna sal boyunbağı
Nar koluna dolaşan bir tənək sayağı.
Bir əlinlə sevgilinin ətəyindən tut,
Bir əlinlə nəbzi yoxla, biləyindən tut.
Gah him-cimlə yollarını ara bu işin,
Gah nərd oyna həvəsindən şirin öpüşün.
Gah təzəcə girən yazı bərk-bərk qucasan,
Gah da dərib tər bənövşə saça sancasan.
Gah gözəlin söz pıçılda sən qulağına,
Gah ürəyi oda salan gizlim aç ona.
Varlıq budur, bu cür yoxdur Varlıqda, ancaq,
Olsa belə, bircə anlıq yada salacaq!



## Xosrovun ayrılığından Şirinin sızlaması

Bacarıqla söz yaradan o söz ustası
Almış idi dəftərinə belə bir yazı:
- Xosrovdan ki Şirin çağsız aralı düşdü,
Canı oda yandı, könlü yaralı düşdü.
Çiçək suyu axıdırdı badam gözündən,
Çiçək suyu çiləyirdi gülünə dən-dən.
Sanardın ki, başıkəsik bir qoyunsayaq
Yıxılmışdı, o çalırdı yerdə əl-ayaq.
Üzgünlükdən varlığını gücdən salmışdı,
Qarışqa gözütək ürək çox daralmışdı.
Xırmanını sovururdu ağrı küləyi,
Göz yaşından islanmışdı tamam ətəyi.
Gah çırpırdı bayğın kimi yerə özünü,
Gah yaylıqla bağlayırdı iki gözünü.
Gözlərindən süzüldükcə yaş düzü-düzü
Kirpiklərdə bağlayırdı mirvari düzü.
Düşdüyü bu çılğın həvəs azalmırdı heç,
Gözlər çıraq-işıqları sozalmırdı heç.
Bir sərv idi, söyüd təki əsirdi özü,
Çox aşağı düşmüş ətri dəyərdən, düzü.
Dözənməyib bu ağrıya, sərildi yerə,
Qara saçın qoxuları səpildi yerə.
İtburnunun ağ gülləri tikanlar atdı,
Lalələri ləçək-ləçək didib qopartdı.
Gah su səpdi badam ağzı şirin şəkərə,
Gah fındığı innabla o böldü yüz yerə.
Gah kos təki diyirləndi o yan-bu yana,
Gah da çövgən ağacıtək əyildi yana.
Bir işıqlı künbəz ağac qalxıb bitmişdi,
Qara rəngi əriyərək suda itmişdi.
Duz səpmişdi oyaq qalan hər nərgizinə,
Nərgizlərdən su verirdi belə üzünə.

İşıqlı Ay-yaz fəslitək cilvələnmişdi,
Yayılaraq torpaq üstdə civələnmişdi.
Könül yolu üstünə ki ağrı yürüdü,
Könül mülkü dağıntıdan tozlar bürüdü.
Ayrılığın atlandılar ön əsgərləri,
Üzgünlüyün qoşununu atdılar geri.
Ciyərinin lap içində köksünə qədər
Neçə-neçə saxlancı da talan etdilər.
Ortalıqdan zorla çıxdı o can sultanı,
Öz çağında qulluq üçün hazırdı canı.
Lakin hərdən ürəyinə qarğış edirdi,
Dalğınlartək üzülərək köksü didirdi.
Yaşamına söyləyirdi: "– Qansız, dilbilməz,
Əlindən heç bündan yaxşı sənin iş gəlməz!
Könlün güclə diləyini gətirdi ələ,
Sən təzədən bu diləyi sovurdun yelə.
Ayağın da düşmüş idi bir gün saxlanca
Açarını tez itirdin onu açınca.
Bəyəndiyin bir çırağı sənə verdilər,
Üfürdün sən, əldə onu sönmüş gördülər.
Sən dirilik suyunu da keçirdin ələ,
Axıb getdi, bircə qurtum içmədin belə.
O ocaqdan, oddan özgə pay götürmədin,
O oddansa ağ gün üçün hay götürmədin.
İndi odun istisindən tüstüsü çoxdur,
Üzüntülük etməyinsə dəyəri yoxdur!"
Göyün sevinc mələyi gah xallar vururdu,
İstəyinə yetmək üçün ovundururdu.
Gah da həvəs divi çevik olub arada,
Şaha sarı getməyini salırdı yada.
O çağda ki ayrılığa dözümü artdı,
Gəmisini ortalıqdan, axır, çıxartdı.



Ağrıların torpağından qalxıb güc-bəla,
Dolğun-dolğun üz döndərdi torpaqlı yola...
Tez yetişdi sarayına Mehin Banunun,
Qarşısında şah işindən söz açdı onun.
Banunun da bu işlərdə ürəyi birdi,
Nəsihətlər edib ona, öyüdlər verdi:
"– Sən özünü ələ al, döz, sovuşsun qüssə,
Daim darda qalmayıbdır hələ bir kimsə.
Gərək deyil, çağsız açan çağsız soluxar,
Körpünü də iti axan su asan yıxar.
Bir kos kimi qalxıb-düşmək özü yaxşıdır,
Yıxılanda hər kəs qalxsa özü, yaxşıdır.
Əgər toxum kiflənməsə, göyərməz belə,
Əgər bir iş bağlanmasa, açılmaz hələ.
İstəyinə gec yetişən içindən daşar,
Unutma ki, tez içən də tez bayğınlaşar.
Görmüsənmi, bulud necə dolar havada?
Boşalanda ayazıyar sonra hava da.
Yol gedərkən atı gərək bərk çapmayasan,
Kim bərk çapsa, həmin at da yorular asan.
Altmış batman yük aparsa, bir eşşək əgər,
O, altmış beş batmanı da yüngülcə çəkər.
Ağır işə düşmüsən sən, dözəsən gərək,
Kim nə bilir, gələcəyin nə göstərəcək?!
Xosrovun da yolunda sən dalğınlıq hördün,
Çox üzüldün, çox əzildin, ağrılar gördün!
Ondan sevinc almadınsa, kədəri yoxdur,
Ot ki hələ yeyilməyib, zərəri yoxdur.
İndi suyun yönaşağı axan çağıdır,
Dalğınlığı, yalnız gülən yaşam dağıdır!
Daha dözmək çağı çatıb, tələsmə barı,
Axı çətin axar su da üzüyuxarı?!"

Banun da öyüdündən dinclik tapınca
Dözümsüzlük yaşadan qız dincəldi bunca.
Bacarıqlı Şapur isə özgə bir yandan
Gizli qalan gizlimləri açdı bu zaman.
Öyüdlərlə ürəyini tez ovutdular,
Xosrovu da yada salıb, uca tutdular.
Dözülməyən bu ağrıya günlərlə dözdü,
Ürək üzgün, şah olmaqdan əlini üzdü...

## Mehin Banunun Şirinə vəsiyyəti və ölümü

Mehin Banu ürək-dirək verirdi hər gün,
İşıq saçan parlaq Ayı qorumaq üçün.
Sonra gizli öz yanına çağırdı onu,
Duymuşdu ki, çatmaqdadır yaşamın sonu.
Uzadaraq saxlancların açarlarını
Dedi: "– Anan ölür, qoru onun varını!
Bu Varlığın gedişini sənə tapşırdım,
Yaranışın çox işini sənə tapşırdım.
Hər istəkdən, hər diləkdən könlümü üzdüm,
Yaşamaqdan ümidimi, əlimi üzdüm.
Məndən sonra, necə bilsən, yolu get elə,
Ancaq şahlıq davranışı düz saxla belə!
Hələ gəncsən, bu gənclikdən düşənini al,
Bacardıqca ürəyinə ağrını az sal.
Torpağımda mən yaşamı yüz il uzatdım,
Ürəyin hər istəyinə çağında çatdım.
İndi daha çağ yetişib, köçəcək quşam,
Bu Varlığı mən yaxşı-pis başa vurmuşam!"
Mehin Banu bu sözləri Şirinə decək,
O gümüş sərv geydi dalğın qırışıq köynək.



İşıq saçan ürəyi də aldı soyuq buz,
Nərgizlərdən Ay üzünə axıtdı ulduz.
Qaya kimi dinməz oldu, dözümsüz qaldı,
Qızılgülü zəfəranın rəngini aldı.
Tez sustaldı sağlam canı başdan-ayağa,
Bu ağrılar varlığını saldı ayağa.
Bir neçə gün ağrılarla əlləşdi yaman,
Can ayrıldı bu Varlıqdan, dirilik candan.
Varlıq onu yaşamaqdan biryolluq etdi,
Varlığını o, Şirinə tapşırıb getdi.
Al Günəşi artıq batdı zil qaranlığa,
Taxtdan düşcək torpaq aldı bircə anlığa.
Daşdan ələ gəlmədi ki, elə bir şüşə,
Bir də onu daş qırmasın, daş üstə düşə.
Bu fələyin oyunları bərk usandırar,
Gah şüşəni düzəldər o, gah da sındırar.
Yaranmışın daim sonu qurtarar belə,
Son günləri vardır axı yazın da belə.
Şanı çəkib, bal düzəldər qabaqca arı,
Balı yecək, ölüb-gedər, yaşamaz, barı.
Çox güvənmə bu Varlığa, qalxıb papağı,
Olacaqdır yolun bircə ovuc torpağı.
Başdan papaq alan külək neylər kol-kosa?
Sərvi, ancaq bərk silkələr, tez sınar osa.
Baxma ki, can yel yaşamı saxlaya bilər,
Bel bağlama, özülündən laxlaya bilər.
Gəl dolaşma boğazına keçən tora sən,
Ortalıqda xırda-mırda çör-çöp görərsən!
Uyma, dovşan yatan çağda tülküsayaqdır,
Gözüaçıq mürgüləyir, sanki oyaqdır.
Unutma ki, döyüşkən qurd, yırtıcı aslan
Tülkülərin qurğusundan ötməyib asan.

Üzügülər çox görmüşəm, söz demə buna,
Üzgülərlik bənzər əlin qaşınmasına.
Öncə, əli qaşıyanda xoşluq oyanar,
Axırdasa, qaşınan əl od tutub yanar.
Bu Varlığın xoş içilər içkisi, bəli,
Sonu isə bayğınlıqdır, necə əvvəli.
Burax, getsin dalğınlığı, çəkməyə dəyməz,
Bərk saxlasan, ipini də çəkməyə dəyməz!
İstəsən ki, bütün Varliq əlinə keçə,
Bir qarından artıq ondan yeyərsən, necə?
Yüz saxlancın olsa belə, yoxsa dirhəmin,
Bu Varlıqda bir qarındır tapdığın həmin.
Nə qədər ki, sapsağlamdır varlığında can,
Onun özü sustalarmı heç ağrılardan?!
Şirin-şirin gülər dodaq o çağa qədər,
İştəhanı küsdürməyə dadlı yeməklər.
Kişinin ki, qulağından üzgünlük tutar,
Qurtulmağın yollarını bütün unudar.
Varlıq acı-ağı yağar daim dilindən,
Gözün toxsa, qurtararsan onun əlindən.
Yer qurdutək çox tıxmağa salma meylini,
Az-az yeyib, qarışqatək incəlt belini.
Acgözlüyün ucqarını aşarsa artıq,
Çox çətin ki, ələ düşə bir daha sağlıq.
Gözütox da qızdırmaya yoluxmaz özü,
Acgözlükdən gündə ölür, azından yüzü.
Ot-ələfi yoluşdurub, tıxsa hər bir kəs,
Dərmanlara möhtac olar, haramı bilməz!
Bir gülşəkər kimi dadlı yeyilsə çörək,
Sağlamlığı itirməkdən söz düşməyəcək!
Çiçək təki təzə qalar, nəyi saxlasan,
Şəkəri də yesən belə, iylənər asan.



İstəmirsən Varlığı ki, nəyi gəzirsən,
Haçanacan, deyinərsən qarasınca sən?!
Bu Varlığın çöllərində kim ki yurd saldı,
Həm torpağa, həm də suya o, möhtac qaldı.
Öz varlığın olacaqdır bir ovuc torpaq,
Nəyə gərək onun üçün ürəyi sıxaq?!
Bu fələyin qurğusu var, uyma sən ona,
Gecə-gündüz minər ala, axsaq atına.
O, seçdiyi qoca atdan elə ki, enər,
Bir özgəsi ala atın belinə minər.
Atamızı alıb getdi ağrı selləri,
Ondan sonra, oğul necə bəs qalar diri?!
Əgər töksə qanını da biri hindunun,
Varis varsa, yerdə qoymaz qanını onun.
Axı necə oğulsan ki, bu gücünlə sən,
Öz atanı öldürənə sığal çəkəsən?!
Çalış, qozbel fələyə də oxunu düz vur,
Onun qırıb tükətdiyi sənin soyundur!
Bu fələyin yay-kirişi qırılmasa, bil,
Heç bir kəsin ovu ondan yan keçən deyil!
Maral yolda bir aslanla qarşılaşınca
Ayaqları altında ot dönər qılınca.
Nə baxırsan sağ qalmağa arxayınlartək,
Önündə bir quyu vardır, arxanda külək?!
Arxayınlıq etmə, quzu dəniz yatmayıb,
Adamları udmağı da heç unutmayıb.
Hansı yeri sən yamyaşıl gördünsə, əgər,
Sonra orda yaşıllıqdan qaldımı əsər?!
Düşüncəli bu Varlığı tutmaz şirinə,
Şən yaşayan sonda acı dadacaq yenə!
Kim Varlıqda dalğınlıqla yaşayar belə,
Sonda yanar çıraq kimi o gülə-gülə.

Bəri başdan bu Varlıqdan bezənlər ki, var,
Çiçək təki əli öpüb, başsız qalarlar.
Vaiz deyər: "Saman kimi nəyin varsa sən,
Səp torpağa, hamısını qamarlayım mən!"
Zahid olsa, istəyər ki, lap ölsün yüzü,
Soyunasan paltarını, o geysin özü.
Əgər Varlıq ad çəkməyi sanacaqsa ar,
Deməl, o kəs Varlıq üçün könlünü sıxar.
Yaşamına bir gün qalsa, çəkmə qayğı sən,
Öz çağında yetirəcək çörəyi verən!
Bu Varlıq qayğıya dəyməz, din qayğısı çək,
Yas tutmazlar bir gecəlik gəlinə, gerçək!
Söylə, nə var bu Varlıqda, o, sonsuz ola?
Ona görə, Varlıq dəyməz bir qara pula.
Torpaq damdan bu yoxluğa nədir armağan?
Hər bir kəsin soykökündən təmizlik olan!
Düşüncəli söyləmişdir belə bir fikir:
-Hər yaxşı, pis ölümündən sonra bilinir!
Orda bir çox qadınsayaq kişi görərsən,
Taparsan da üzüqara neçə igid sən!
Ulu Tanrım, ayaqlarım daşa toxuna,
Yaxud qəmin bata suda bir burulğana.
Nizamiyə əl uzadıb qurtar dardan sən,
Bağışlayıb uzaq eylə ağrılardan sən!



## Şirinin adından Nəkisanın qəzəl oxuması

Nəkisa da o gözəlin istəyi ilə
"Rast" üstündə bu qəzəli oxudu belə:[22]
"– Ey dövlətin ayıq gözü, dinlə bir anlıq,
Bəlkə, tapdın şirinlikdən zərif nişanlıq!
Ey ümidin Danı, ağar gözlək dağından,
İşığı saç, könlüm gözü alar dumanlıq.
Ey yaşamım, düz gəl mənlə bir neçə günə,
Açar tapıb, dardan qurtar, ollam zindanlıq!
Ey gələcək, sən də parla, özünü göstər,
Bir yazığın əlini aç, gedər qurbanlıq!
Ey yaxınım, qurğu qurub, əl uzat mənə,
Gücdən ağrı qoşunları tapsın ziyanlıq.
Ciyər şişlik oldu, ürək qan dalğasında,
Yazığınam, barı, mənə eylə həyanlıq.
Məndən düşgün, zəif adam görə bilməzsən,
Döyüşənəm, aldanışa çəkib nadanlıq.
Olmasam da əlinə su tökməyə layiq,
Şişlik çəkib, eyləyərəm mən canyananlıq!
Əgər şərbət paylamağı bacarmasam mən,
Küpü açıb, göstərərəm tez mehribanlıq.
Əgər tikə bilməsəm də bir naxış belə,
Mən üzərlik yandıraram, yansın yamanlıq.
Əgər vura bilməsəm də geyimə qırış,
Otəyindən tozu çırpıb, sallam sahmanlıq.
Kölgə kimi torpaq üstə sərmə sən məni,
Dalğınlıqda eyləyirəm çoxdan sultanlıq.
Qoy Ay kimi öz evində Ülkər dolansın,
Zöhrə təki hər ağrına olsun dərmanlıq.
Sarayında hansı qulluq, desə, edərəm,
Qulluq mənim istəyimdir, şahlıq gümanlıq.
İndi məndən soruşursan, diləyin nədir?
Billə-bilə sorğularda yox nigaranlıq.

Necə olar ağrı görən yurdsuzun özü;
Gücdən düşmüş, diz qatlanmış, yolu toranlıq?!
Çiçək kimi öz sevgimdə düyməçələndim,
Varlıq oldu başdan-başa bir pərişanlıq.
Torpaq təki köksüm üstü oxlara nişan,
Lalə təki gənc çağımda solub cavanlıq.
Bir ümidlə bu Varlığı vermişəm bada,
Düşüncəmlə çıxıb əldən hər firavanlıq.
Yoxdur elə arxadaşım, dayağım olsun,
Yaşam qısa, yadlığımda var unutqanlıq.
Boğularkən suda çəkmiş lüt belə misal:
«Heç olmasın ölünün də bəxti qaranlıq."
Mən köməksiz qalmışam ki, könlüm yalqızdır,
Dözə billəm, tək tapmasın könlün talanlıq.
Nə eyləyim, yetənmirəm öz istəyimə?
Ötüşərəm, təki sənə çatsın şadyanlıq.
Şirinliyim o dodağa acımı gəldi?
Yaxınlaşıb, bir ud kimi oldu yananlıq.
Belə yanmaq mənim üçün böyük şənlikdir,
Sevənlərsə bu yanğıdan alar heyranlıq.
Mən ki sənə buyruq verə bilmərəm, sözsüz,
Sən buyruq ver, əlində var hər hökmüranlıq!



## Büzürg Ümidin "Kəlilə və Dimnə"dən qırx anlam söyləməsi

Büzürg Ümid gül kolutək yarpaqlar açdı,
Hekayətlər söylədi o, qırx anlam açdı.
1. Öncə dedi: "– Acgözlükdən qorun hər zaman,
O Şətrəba qorundu ki, qorxunc aslandan?!
2. Acgözlüyü boğ, başına açma, gəl oyun,
Dülgərlikdən baş açmadı, gördün ki, meymun?!
3. Aldanışla nə dadarsan istək artanda,
Bəs nə yedi boş təbili tülkü yırtanda?!
4. İstəmirsən, ürəyini söksün üzgünlük,
Sən də etmə zahid kimi ikiüzlülük!
5. Özgə evdə tikə dadma olan-qalandan,
Gördün, necə acıq çıxdı qarğa ilandan?!
6. Qurğu qursan, alacaqsan ölüm qurğudan,
Öldü xərçəng əllərində o balıqudan.
7. Öyüd eşit, çox qurşanma alış-verişə,
Gördün, dovşan aslanı da saldı bu işə?!
8. Ölü düşüb, çıxmaq olar bu torpaq gordan,
O balığı, gördün, necə qurtuldu tordan?!
9. Çaqqal, qarğa, bir də ki qurd birlik yapdılar,
Dəvəni də aşırmağa tez yol tapdılar.
10. Acığını çağında al, yağı duymamış,
Gördün, necə dalğalardan acıq çıxdı quş?!
11. Kim dilini dinc qoymasa, gömər torpağa,
Ördəkləri eşitmədi, gördün tısbağa?!
12. Sözeşitməz adamlara söz demə hədər,
Quş ha dedi, meymunlara etmədi əsər!
13. Qurğu qurub, xalq malını açırmaq olmaz,
Gördün, batdı qurğusunda tacir yaramaz?!
14. Uduzarsan, biliciyə gəlmə badalaq,
O ilana qurğu quran qurbağasayaq.

15. Qurğu qurma, de, dəmiri yeyərmi siçan?
Uşaqları qaldıranmaz qırğı heç zaman.
16. Əgər vursan geyiminə yalan naxışı,
O rəssamtək sonda işin qurtarmaz yaxşı.
17. Bilicinin biliyi ki can verər cana,
Naşı ağı hazırlayar, yol vermə ona.
18. Ayıqlıqla qurtararsan hər bir ağrıdan,
Qadın bu cür can qurtardı, olmadı nadan.
19. Çağda hər bir göynərtini yox edər bilik,
Gördün, tordan tez qurtardı quşları birlik.
20. Bir-birinə əl tutdumu qarğa, kəsəyən,
Yolu saxla, boş bir işdən olma küsəyən.
21. Çalışma ki, bir arpa da güclə alasan,
Qızıl verib, arpa aldı siçan çox asan.
22. Acgöz olma yayı çəkən o saymaz qurdtək,
Boğazına ağrı oxu sancar bu fələk.
23. Bu Varlıqda acgözlükdən sənə kar aşmaz,
Heç bayquşla qarğanın da yolu uyuşmaz!
24. Ayıq tərpən, öz yağını gücsüz bilmə sən,
Gördün, necə açıq çıxdı dovşan fillərdən.
25. Qurğu qurma, acgöz ki var, yolu azandı,
Gördün, pişik oruc tutub, necə qazandı?!
26. Hər kimin ki gözlərinə acgözlük düşər,
Qoyununu düşünmədən itə dəyişər.
27. Doğurçu ol, yalan qorxar hər cür qorxudan,
O arvadı ər qorudu, gördün, oğrudan?!
28. Yağıların didişsələr, düzələr işin,
Oğrü divlə çəkişdi ki, qazandı kişi.
29. Sən arvadın qurğusuna uyma dülgərtək,
Hər yalana aldanmağın nəyinə gərək?!
30. Özün yaman deyilsənsə, yaxınlar qazan,
Gördün, necə yaxınını tapdı o siçan?!

31. Sən qorxulu yoldan qayıt, sovuşsun bəla,
Tısbağadan qurtulmuşdu meymun bu yolla.
32.Ayıqlığı kim itirdi, soraqsız yatdı,
Gördün, tülkü o eşşəyi necə aldatdı?!
33. O zahidin qurğusundan uzaq ol, uzaq,
Düz danışan gəlinciyi öldürdü nahaq.
34. Boş şeyləri düşüncənin etsən hakimi,
Hazır halvan əldən çıxar o qoca kimi.
35. Düşsən dara, yolu tapıb, qurtulmaq olar,
Gördün, siçan o pişiyə çıxdı havadar?!
36. Çürüyərsən tor içində, qalx, çıx qırağa,
Gördün, necə o quş tordan uçdu uzağa?!
37. Doğruluqla qılıncdan da yan keçərsən sən,
Gördün, çaqqal tez qurtuldu aslan gücündən?!
38. Caynağına itiliyi kim qandan aldı,
Gördün, necə aslan kimi caynaqsız qaldı?!
39. Sən yağıdan heç çəkinmə, gəl, ol xeyirxah,
Yaxşılıqla can qurtardı ilandan səyyah.
40. Bu Varlıqda alacaqlar ayrılmış uyar,
Ya tacir ol, ya şahzadə, alacağın var!
Söz anlayan o qoca ki sözü anlatdı,
Xosrovun da ürəyinə sözləri yatdı.
Üz çevirib, acıqlardan əl çəkdi artıq,
Yaxşılığın özülünə əl çəkdi artıq!

## Oğluma öyüd

Yeddiyaşlı oğlum mənim, göz işığımsan,
Bu yaşamda öz yerini ucalarda san!
Böyütmüşəm, sən Tanrıdan alacağı al,
Mənim deyil, yalnız onun adına ucal!
Sən Aypara çağındasan, gülsün dodağın,
Biz də çoxdan gülüşünü gördük o çağın.
Çağ yetişər, Ayparan da dolğun Ay olar,
Ulduzlarsa gözəllikdən işığı alar.
Bilik qazan, bu Varlığı versinlər sənə,
Əsma oxu, anlam anla sən dönə-dönə.
Boş sözlərə uyma belə, alçaldar səni,
Qazandığın bu biliklər ucaldar səni!
Qeyrətli ol, anlamlılar əl çalsın buna,
"– Əhsən, şair Nizaminin qoçaq oğluna!"



# "Leyli və Məcnun" əsərindən



*Rəssam Fəxrəddin Seyfəddinoğlu.*
*"Leyli vı Məcnun" miniatürü*



## "LEYLİ VƏ MƏCNUN" ƏSƏRİNDƏN

### Kitabın yazılma səbəbi

Gün gəlmişdi, şənlik çağı, gülürdü üzüm,
Şah Keyqubad sevincində üzürdüm özüm.
Açılmışdı Ayparası qaşlarım tağ-tağ,
Nizaminin söz "Divan"ı önümdəydi, bax![23]
Yaşam tutmuş güzgüsünü üzümə mənim,
Saçlarımı darayırdı istək yelkənim.
Dan yerinin qızılgülü kum-kum axırdı,
Bu günümə gözlərindən uğur yağırdı.
Ürəyimin pərvanəsi çıraq tutmuşdu,
Bülbül idim, bağ olmağı bağ unutmuşdu.
Anlamlı söz ucalığa bayraq sancmışdım,
Bacarıqla bu saxlanca qapı açmışdım.
Qələmimin iti ucu deşməkdəydi ləl,
Diliminsə söz turacı eşməkdəydi ləl.
Könül əldən çox gedirdi ağır əməkçün,
Bu yollarda yaşam yoldaş, dilək köməkçim.
Boş-boşuna qalmalıyam nə çağa qədər,
Gün ötsünmü bu Varlıqdan soraqsız, hədər?!
Barınmağa şənlik quran ayıq bu dövran
Boşaldırdı dörd yanını boş dolaşandan!
Bütün günü acqarına sülənən itə
Bu yol ilə çörək düşməz, bir tikə itə.
Varlıq sazı çalğısına oynamalısan,
Onda, Varlıq sənin olar, uyuşsan asan.
Öz başını uca tutar o kəs hər zaman,
Hamı ilə göylər kimi olsun uyuşan.
Yoxsa hara söykənərsə əyri güzgütək,
Hər nəyisə göstərəndə tərs göstərəcək!
Əyri gəzən, əyri sevən hər insan, ancaq,
Tərs bağlanmış saz telitək tərs danışacaq!

Ey yaşamım, ucalıqsa durduğun bu yer,
Məndən ağır iş görməyə buyruğunu ver!
Deməyəsən, belə falı açdığım çağda
Dan ulduzum yanmaqdaymış özü qabaqda.
İşbacaran elə çəksin əməyi qəti,
Var-dövlətin dalısınca artsın dövləti.
Bu çağdaca gələn elçi soraq gətirdi,
Ulu şahın buyruğunu mənə yetirdi.
Bu, məktubdu, yazılmışdı gözəl bir xətlə,
Göndərmişdi neçə sətir böyük hörmətlə.
Hər bir sözü çiçəkləyən bağ idi, gerçək,
İşıqlıydı parıldayan dəyərli daştək!
Yazmışdı ki, "-Ey qulluğu daim nizami,
*Bu Varlığın söz ustadı olan Nizami!*
Qalx şəhərin uyğusundan, çağ çatıb, az yat,
Anlam dolu sözlərinlə sən dağlar yarat!
Ucadasan sənətinlə dəyərin qədər,
Ucaldığın ucalıqda bacarıq göstər!
Diləyirəm, Məcnunun da sevgisinə sən
Sədəfdəki inci təki sözlər seçəsən!
İki-üç söz söyləyəsən, bacarsan, əgər,
Qız Leylinin özü kimi təmiz incilər!
Oxuyanda mən də deyim: "– Bax bu şəkərə!"
Bax başımı tərpənəndə taca yüz kərə!
Min-min sevgi dastanını bu çağa qədər
Qələm ucu bəzəyibdir, sözsüz, nə qədər!
Dastanların şahı olar yeni əsərin,
*Dəyər ona söz deməyə, artar dəyərin!*
Fars və ərəb dillərinin bəzəyində sən
Bəzə təzə bu gəlini bəzəyəndə sən!
Bilirsən ki, söz tanıyan biliciyəm mən,
Ayıraram deyilmişi deyilməmişdən.



Əgər ona-on yaratmaq güc varsa səndə,
Heç də ona-beş vurma gəl söz bəzəyəndə.
Yaxşı bax ki, düşüncənin bu mücrüsündən
Yenə kimin düzüsünə inci düzdün sən?!
Türkəsayaq davranmaqdan iş aşmaz bizə,
Türkəsayaq deyimlərsə yaraşmaz bizə![24]
Kim ki ulu bir soykökdən doğulmuş uca,
Ona ulu söz gərəkdir-ucadan uca!»
Qulağıma taxılandək qulluq halqası,
Ürəyimdən başa keçdi acıq dalğası.
Güvəncim yox, bu buyruqdan ötüşüm özüm,
Saxlanca da yol tapmıram, qaralıb gözüm!
Sustalmışam, karıxmışam, demə ki, dincəm,
Çıxış yolu arayıram, çaşıb düşüncəm!
Yoxdur ürək qızdırmağa elə bir yaxın,
Gizlinləri açım ona, söyləyim, baxın!
Oğlum Məhəmməd Nizami-güvəncim mənim,
Ürəyimə candan yaxın, öz gəncim mənim!
Bu məktubu ürək təki əlində tutdu,
Yanımdaca kölgə kimi yaxın yer tutdu.
Ayağımı öpüb, mənə söylədi belə:
"– Ey göylərdə təbil döyən ucalıq ilə!
"Xosrov –Şirin" dastanını yazıb-yaratdın,
Könüllərdə bu sevinci sevincə qatdın.
"Leyli-Məcnun" ürəyini gətirsin coşa,
Qoy dəyərli iki inci dayansın qoşa!
Bu incinin yazılışı çox gözəl olar,
Qoşalaşsa tovuz quşu, çox gözəl olar!
Axı belə diləyibdi Şirvanşah Məlik,
Şirvan deyil, o, İrana şahdır üstəlik![25]
Hörmət edər, ucalığı dəyərləndirər,
Baş ucaldar, sözlərini dəyərdə görər.

Məktub yazıb istəmişsə, dözümü boşla,
Dinclik ilə bu dastanı bəzəyə başla!
Ona dedim: "– Aynaüzlüm, dəmir dözümlüm,
Söylədiyin yerindədir, ey doğru sözlüm!
Göylər iki çalarlısa; həm ağ, həm qara,
Sözlər geniş, köksüm mənim dardır onlara.
Uydurmanın keçid yolu, əgər, olsa dar,
Sözün gediş- gəlişi də çox ağırlaşar!
Deyim gərək gözişləməz aranı tapsın,
Bu arada ilham atı dördəmə çapsın!
"Leyli-Məcnun" çox da ulu sayıla belə,
Sevincinin duyğuları uzaqdır hələ.
Deyimlərin özəyində şuxluq, naz durar,
Yalnız bunlar ürəklərdə ucalıq qurar!
Haradasa dalğınlıq var, bənd var, zəncir var,
Sözsüz, orda deyim quru, dəyərsiz olar!
Düşüncəyə daha artıq vurulsa bəzək,
Uydurmanın üzünü də qurum örtəcək!
Bu çağda mən yeni yollar aramalıyam,
Yeni anlam almalıdır mənim söz qalam!
Nə bağça var, nə şah üçün şənlik var burda,
Saz dillənmir, mey içilmir; yetək murada.
Bir yerdəki quru qumlar, dağ sərtliyi var,
De, nə qədər dalğınlıqla sözlər yozular?!
Şənlikdən çöz açmalıdır yeni deyimlər,
Hər bir beytlə hekayət də tez alar dəyər!
Buna görə, yarandığı o çağdan bəri
Bir kimsənə yaza bilmir dalğın dəyəri.
Hər bir yazar qaçmış onun ağırlığından,
Bax, odur ki, qaranlıqda qalmışdır dastan.
Varlıq şahı buyruq verir sonsuz maraqla:
– Bu dastanı indi mənim adıma bağla!



"– Gərək bütün gərəkliyə lağım atdırım,
Ucalığa dastanımı özüm çatdırım!
Ulu şah da əliaçıq yanaşsın ona,
Saf gövhərlər səpsin sözün uğur yoluna!
Bu dastanı oxuyan kəs üzülsə belə,
Doğru saysa, ürəklər də gələcək dilə!"
Bu saxlancın qapısını açmayan oğlum –
Öz varlığım, öz ürəyim, qanadım-qolum;
Həmin işə cücərtimin təkcə danəsi,
Dan yerimin küləyinin titrək laləsi...
Bir də dedi: "– Ey dastanı mənə tutan tay,
Sən ki onu yaradırsan, əkiz qardaş say!
Elə yarat, elə yaz ki, gözəl əsəri,
Anlamlarda azalmasın sözün dəyəri!
Harda süfrə açılmışsa çevgi adına,
Bu dastandan, sanki duz da səpilmiş ona!
Doğrudur ki, duz səpilmiş gərəyin qədər,
Ancaq burda çiy şişlik də tez gözə dəyər.
Öz əlinlə səpilərsə süfrəyə bu duz,
İstədiyin kimi bişər şişlik də, sözsüz!
Söylə, belə qəşəngüzlü bəzəksiz qalsın,
Ya da incə çiçəküzlü gərəksiz qalsın?!
Kimsə ona dəyərincə inci səpməmiş,
Ona görə, yarımçıqdır bu gərəkli iş.
Bir varlıqdı, biri təzcə can yandırmasa,
Bəzək üçün köynək geyməz, batacaq yasa.
Gərək cana elə canla vurula bəzək,
Yoxsa heç kəs öz canından boş keçməyəcək!
Bütün Varlıq nəfəsindən dirilik alar,
Bu əziz can doğman kimi daim ucalar.
İndi səndən söz söyləmək, əmək gərəkdir,
Mənsə dua etməliyəm, yaşam köməkdir!»
Ciyərparam mənə belə verəndək ürək
Ürək yaxıb, ciyər bölüb, oldum sevincək.

Ta başladım aramağa dəyərli gövhər,
Mədən qazdım, kimya açdım tapana qədər.
Təbim kəsə yol gəzirdi, istəyə çatım,
Yol uzaqdır, çox qorxurdum, ilk addım atım.
Yol tapmadım bundan kəsə, bundan da yaxın,
Ağır yolu açılmışdı söz yaratmağın.
Seçdim bəhri-çox axıcı ölçüdən biri,
Bu dənizin balıqları diriydi diri.
Belə şirin sözlər deyər çoxu yerində,
Bu yenilik olmaz onun, bil, hər birində.
Hər üzücü baş vurarsa könül dənizə,
Belə gövhər çıxaranmaz dərindən üzə.
Hər bir beyti düzüm-düzüm inci sapıdır.
Yanlışlıq yox, bacarığa açıq qapıdır.
O çağda ki bu incini gətirdim ələ,
Ayaqlarım sürüşmədi tük qədər belə.
Mən sorduqca cavabını verirdi ürək,
Qazıdıqca su çıxırdı yerdən bulaqtək.
Düşüncəmlə topladığım qazancı bütün
Mən işlətdim bu gəlini bəzəmək üçün.
Dörd min beytdən az artıqdır onun miqdarı,
Dörd ay tamam olmamışdan yığmışam varı.
Özgə işlər olmasaydı, əgər, necə də,
Bitirərdim onu, sözsüz, on dörd gecədə!
Bu gəlini kim ki görüb, "əhsən!" - söyləsə,
"Afərinlər" deyərdim də mən həmin kəsə!
"Sa", "fa", "dal" ili idi-rəcəbin sonu,
Gözəl çağda bəzək vurub, bitirdim onu.
Başaçatma ilini də bilmək istəsən,
Beş yüz səksən dördüncü il-yadda saxla sən!
Minbir incə naxış vurdum –gəlinim deyə,
Bəzəyibən-düzəyibən saldım gərdəyə.
Dedim, ona heç dəyməsin bircə yad gözü,
Heyranlıqla seyr eyləsin qoy şahın özü!"



## Kitabın yazılması və gözügötürməzlərin qurğuları

Coşan könlüm, coş, dalğalan, coşan çağındır,
Söz qoşanım, nə susmusan, daşmaq çağındır?!
Bu gün artıq söz deməyə açılmış yollar,
İndi bundan işıqlı söz, söylə, harda var?!
Əməyimin qazancı da öz saxlancımdır,
Tükənməyən var-dövlətim-söz saxlancımdır!
Bəzəyirəm Dan yerinin vurğunluğunu,
Oxuyuram "Yeddi tilsim" durğunluğunu.
Vurğunluğun neçə cürə halallığı var,
Daha onun danılması dolaşıq olar!
Kəsərli söz yaratmaqda elə ustadam,
"Gizli güzgü" – ad veribdir mənə çox adam.
Qılınc dilim kəsərlidir söz açan çağlar,
Onda İsa möcüzünün sınmazlığı var!
Sözüm edər elə dərin sarsılmaz əsər,
Kar daşları, lal daşları dilə gətirər!
Qızğın sözüm öz içindən elə odlanar,
Ona barmaq toxundursan, barmağın yanar!
Sözüm mənim duru sulu arxımdan içər,
Çağdaşımda o, ucalıq donunu biçər!
Duzsuz sözlər quraşdıran şairlər ki var,
Sənətimin kölgəsində çörək taparlar.
Axı ovu tutub, sonra parçalar aslan,
Tülkü isə öz qarnını doydurar ovdan.
Təkbaşına qazancımı dursam yeməyə,
Yaxşı olar, o qazancdan xalq özü yeyə.
Qarınqulu doğru yolu tutmaq yerinə,
Səndən, məndən söz çeynəyir o dönə-dönə.
Önümdəcə kölgə təki alçalandı o,
Yamsılamaq vərdişinə əl çalandı o.
Dursam qəzəl söyləməyə, yazıq o dəmdə
Başlar min-min oyunbazlıq bütün aləmdə.

Anlam dolu qəsidələr yaratsam, əgər,
O anlamsız boş sözləri ortaya çəkər.
Şeir deyə boş-boşuna uydurma yazar,
Mən demirəm, özü bunu uydurub yozar.
Bir qəlibdə yaxşı sikkə vuraramsa mən,
O da vurar, xoşu gələr qəlp sikkəsindən.
Gizli deyil, meymun bizi yamsılasa da,
Ulduzlar ki batıb qalar bulanıq suda.
Ancaq hansı varlığasa işığı saçar,
Həmin varlıq kölgəsindən bezikər, qaçar.
Bir kişini öz kölgəsi əyri göstərə,
Demək, artıq həddi aşır, azı yüz kərə.
Yamsılayar, lağa qoyar, heç almaz saya,
Sözü yoxsa, daha onda olarmı həya?!
Olmamışdır öz kölgəsi, bil, peyğəmbərin,
Qalmış o da güdüyündə izləyənlərin.
Əgər suyu dumdurusa dərya mühitin,
Bulandırmaz onu çirkin seliyi itin.
Hərdən sarıqulaqların yayğın gözündən
Qızar qanım, qızartılar getməz üzümdən.
Dəniz kimi sahilimi yuyuramsa, bil,
Bu çılğınlıq, bu coşqunluq acıqdan deyil!
Çıraq təki göz qırparam hər toxunuşdan,
Bir şam təki yana-yana sönərəm hər an.
Güzgü kimi mən dəmirdən pardaqlanmadım,
Daşürəkli sırasına düşsünmü adım?!
Söz mədəni qazsam belə, kişiyəm axı,
Qarnıqurdlu ürəyini, bax, ağrı yaxır?!
Yox sözümü danan kəsdə anlamdan əsər,
O, çərşənbə gecəsinin gicinə bənzər!
Haqq almayır, qapımdaca oğurluq edir,
Pisliyimə danışmağı, hay-küyü nədir?!



Bir yurdda ki axtarılır ilboyu oğru,
Oğru özü düz adamtək bağırar, doğru!
Halal olsun, məndən nə ki çırpışdırıblar,
Arxamca da danışmaqda çox suçları var!
Bacarığı görür, lakin bacarmır işi,
Yamanlayır anlamadan bu pis vərdişi.
Gözü sağsa, korluq onun gözünü alsın,
Əgər korsa, yaşam boyu elə kor qalsın!
Oğru odur, əriyirəm yerinə onun,
Üzündə su yox həyasız oğru oğlunun!
Yox! Yox! Əgər tutub əldə dilənçi sapı,
Söylə, gəlsin, üzünə ki açıqdır qapı!
Əgər çoxdan belə paya olmuşsa möhtac,
Mən də elə davranardım, yox özgə əlac.
Əlimdədir saxlancları iki Varlığın,
Oğru qalıb əllərində belə darlığın.
Oğurluğu edənmərəm ona qadağa,
Borcluyam ki, lüt qalana verəm sadağa.
Bir mirvari dənizíyəm, ləl qaynağıyam,
Mənə lağım atanlara, sanma, yağıyam!
Saxlanclara qıfıl vurub, bağlamaq olar,
Gözəlliyi üzərliklə saxlamaq olar.
Üzərliyin tüstüsünü verib ki, anam,
İsfəndiyar sınağında mən doğulmuşam!
Yazsan "Nizami" sözünü, diqqət eylə sən,
Minbir adın öz sayını onda görərsən!
"İlyas"ın da "lam"ından ki "əlif", "be" çıxsan,
Ad olacaq "doqquz" üstə toplansın "doxsan."
Deməli ki, dörd tərəfim minbir hasardır,
Yüzdən bircə əksik olan yarağım vardır!
İstəyirəm, ağrılardan bir az yayınam,
Saxlancımı oğurluqdan çox arxayınam!

Dövrələmiş, çünki onu belə bir hasar,
Lağım atan yaxın düşməz, yollarda azar.
Hamı bilir, saxlanclardan əl çəkməz ilan,
Harda dadlı xurma olsa, orda var tikan.
Görürsən ki, ad çıxarmış, sanlı qoçağı.
Alçaldılır yoldaşlardan satqın alçağı.
Buraxmazdı Yusif parlaq Ayı yaxına,
Qardaşları yamanlığı etdilər ona!
Çox da İsa diriltməyə yollar göstərdi,
Yəhudinin hər birinə günləri verdi.
Məhəmməd də başçı idi bütün ərəbə,
Ancaq yenə qarşı durdu Əbüləhəbə.
Ta keçmişdən Yer üzündə belə hal yoxdur,
Harda sancan arı yoxsa, şirin bal yoxdur!

## Öz oğluna öyüd

On dörd yaşlı oğlum mənim, göz işığımsan,
İki Varlıq bilgisinə yetərlisən, san!
Yeddi yaşın olan günü göyçəkdin, göyçək,
Çəmənlərdə təzə-təzə açılan gültək.
On dörd yaşa çatmısansa sən indi artıq,
Bir sərv kimi başın umur göydən ucalıq.
Ayıq-sayıq olmaq çağın yetişib daha,
Başıuca qalmaq çağın yetişib daha!
Dərin-dərin bilik öyrən, ada-sana çat,
Gündən – günə ad-sanın da yüksəlsin qat-qat.
Azyaşlıda arayarlar adı, soykökü,
Qol-budaqlı ağacların aranmaz kökü.
O yerdə ki özün başda qalmağın gərək,
Nə faydası, mənim oğlum olmağın gərək?!



Aslan kimi qoşun dağıt, ucalt adını,
Tanısınlar bacarığın öz övladını.
Ağ günlərin açarını yolunda ara,
Sayğı göstər, yaradanın xalqına yara!
Uydurmalar düzüb-qoşmaq diləkli olsan,
Həmin anda yaradanın qorxusunu san!
Bacardığın işdən yapış, elə peşə seç,
İş bitəndə başaşğı olmayasan heç!
Oğlum, əgər, qulaq assan öyüdümə sən,
Öz atanın öyüdündən qazanc görərsən!
Duyuram ki, uca olmaq diləyin vardır,
Söz yaratmaq, sana dolmaq diləyin vardır!
Sözdə ağır yaranışa çox uyma belə,
Onda yaxşı hər nə varsa, yalandır elə.
Bu sənətdən ad-san umub, tapınma ona,
Bu ucalıq Nizamidə yetişdi sona.[26]
Uyma sözə, çox da onun ucadır yeri,
Elə bilik qazan ki, sən, olsun dəyəri.
Araşdırıb məntiq xətti cədvəllərini,
Səy et, orda axtarasan uyar yerini.
Öz-özünü anlamağı, duymağı bacar,
Bacarığın yaratmağın yolunu açar!
Biliklərin biliyidir – deyib peyğəmbər;
Bir loğmanlıq, bir də dinə aid bilgilər.
İki bilgi göbəyində qoxulu müşk var;
Din alimi, o birisi loğman sayılar.
Din alimi olsan, əgər, işində düz ol,
Qurğu, yalan ürəyinə qoy tapmasın yol.
İsa kimi bir loğman ol, ölüyə ver can,
Ancaq bəzi loğmanlartək olma canalan!
Din alimi, loğman olsan, ad-sanın artar,
Hər bir kəsin yanında da dəyərin artar!

Öz çağına ikibaşlı yiyə olarsan,
İki Varlıq bilicisi adı alarsan!
Hansı bilik arxasınca yürüsən, hökmən,
Çalış, onu dərin-dərin anlayasan sən!
Yaxşı palan tikməyi ki bacarmaq özü
Naşı papaq tikməkdən çox üstündür-düzü.
Öyüdünü verirəm mən, öyüdünü al,
Boş –boşuna durmaq olmaz, sən qayğıya qal!
Dumduru su duruluğu tapsaq da sözdə,
Çox danışsan, incəliyi itirər söz də.
Baxma, sudan durğunluqlar yarana bilər,
Çox içilsə, dalğınlıqlar yarana bilər!
Az danışıb, elə söz seç incədən-incə,
Bu Varlığı tutsun bütün inci düşüncə.
Az sözlərlə öyünməyə, sözsüz ki, dəyər,
Kərpic deyil, kəsdirəsən istəyin qədər.
Mirvarinin yaranışdan safsa özəyi,
Həm torpağa, həm də suya verər bəzəyi.
Bütöv olsa, saxlanclarda dəyər sayılar,
Üyüdülsə, dərman kimi cana yayılar.
Damaqları çağ eyləyən kum çiçək hər an
Yaxşı olar, taya-taya qurulmuş otdan.
Yüz-yüz ulduz göy üzündə görünsə belə,
Bir Günəşin yanarlığı artıqdır elə!
Ha parlasa parıl-parıl bütün ulduzlar,
Onları da işıqladan bircə Günəş var!



# "Yeddi gözəl" əsərindən



***Rəssam Fəxrəddin Əli. "Yeddi Gözəl" miniatürü***



## "YEDDİ GÖZƏL" ƏSƏRİNDƏN
### Oğlum Məhəmmədə öyüd

Qulağında sırğa eylə sözümü, oğul,
Mən yuxuya dalacağam, sənsə ayıq ol!
Səndə ulu bir bağçanın öz çiçəyi var,
Axı adın Məhəmmədin adında yaşar!
Öz adında ululuğu duyduqca qat-qat
Sən Mahmudun təbilinin səsini ucalt!
Ulu adın bəzəyinə öz sikkəni vur,
Fələklərə ucalmağın düz yolu budur!
Mən olanda torpaq altda məzar dustağı
Ucalığın tiksin mənə ucalıq tağı!
Çalış yaxşı adamlarla uyuşsun sözün,
Sonda, ondan yaxşılığı görəsən özün.
Düşüncəsi işıq saçan söhbətçil insan
Üstün olar çərənləyən boşboğazlardan!
Pis yoldaşın üzə çıxsa adi nöqsanı,
Yüz nəfərin ləkə alar təmiz ad-sanı.
Əgər bir ov tora düşə xamlığa görə,
Yüzünü də tora salar, verdirər girə.
Həcc yolunda qızıl udsa lap bircə nəfər,
Yüzünün də qarnı ondan yarıla bilər!
Bu Varlıqda mürgüləmə sən qocalartək,
Yazıqları talayandan ətəyini çək!
Düşmə fələk sarayının tərs oyununa,
Sən kişisən, qadın kimi aldanma ona!

Gəl güvənmə, yorğa atın belə dördəmlər,
Yollara bax, dolanbacdır, gör ki, nə qədər!
Ağ tərlantək yollar boyu uçmaq istəsən,
Günəş kimi gözü yolda olmalısan sən!
Ov yoludur, bu yolda da qaçışar ovlar,
Fələyinsə istənilən yayı, oxu var!
Ayağına çarıq geysən xalis dəmirdən,
Yollar daşlıq, daş maqnitli-ayırmaz yerdən.
Öz çağının qatırına elə çat yükü,
Yoxuşlarda büdrətməsin heç qorxu-ürkü.
İki çalar çağ da salsa darısqallığa,
Ürəyini geniş aç ki, düşmə darlığa.
Çox düyün var, gizlimlərə açardır, açar,
Çox çətinlik özəyindən asanlıq açar.
Yozulanda ürəksıxan, ağır yuxular
Doğru budur, ürəkdən də acı yox olar!
Ağrı oxu alışdırsa oda ciyəri,
Dözümlüyün o gündəcə acılar yeri.
Sən Tanrıya tapın, yalnız istəyi üzmə,
Yersiz, özgə tapım üçün ürəyi üzmə!
Tanrı ilə öz öhdəni sındırmayasan,
Arxayın ol, çətinliklər düzələr asan.
Saf gövhəri çıxarma sən heç vaxt sapından,
Soyuqırıq olanları qov öz qapından.
Soyuqırıq hər bir kəslə saxlamaz yolu,
Yalnız ağrı törətməkdə olar qorxulu.



Yaxşılıqmı göstərəcək soyuqırıq kəs,
Bilmirsənmi, "soyu olan yamanlıq etməz?!"
Əqrəb özü soyuqırıq gövhərə bənzər,
Diri qoymaq istəməyən çağında əzər.
Sənət öyrən, axı kamil hər sənətkarlıq
Neçə geniş qapı açar, aramaz darlıq.
Öyrənməkdən çəkinməyən elə adam var,
Sudan özü dürr çıxarar, daşdan ləl tapar!
Bağlıdırsa bilik yolu kimin üzünə,
Öyrənməyi az biləcək o da özünə.
Çox anlamlı, çalışmağı sevməyən insan
Tənbəllikdən sonda olub bir saxsısatan.
Çox küt var ki, qarışandan biliyə başı
Olub yeddi diyara da o, qazıbaşı.
Öyrədilmiş ev itinin çıxan dişindən
Halallığı asılıdır öyrənişindən.
Öyrənən it qazanırsa belə istəyi,
Deməli, insan ucalıqda ötər mələyi.
Xızra bənzər varlığınla yolu seçərsən,
Saf dirilik suyunu da tapıb içərsən!
Bu dirilik suyu axı sən deyən deyil,
Diriliklə anlamının birliyidir, bil!
Can çıraqsa, anlam onun əriyən yağı,
Anlam candır, bizim cansa bütövü-sağı.

Anlam bizə Tanrımızdan bir armağandır,
Anlamla can biryolluğa diri qalandır.
İkisinin vurğusundan bütöv yaranar,
Oğul, sözsüz, bunlar sənin varlığında var!
İki vurğu Bütövünə qovuşanmasan,
Varlığını aşkarlamaq deyildir asan.
O Bütövü tapan kimi, onlardan əl üz,
Ayağını varlıqların qoy başına düz.
Üç olmağı unut bütün, bu, boş düşüncə,
İkiliyin özü belə, sualdır, məncə.
Kişi təki sən birliyin sapından bərk tut,
Üçlüyüsə birə çevir, qoşanı unut.
Sən üçlüyün üçlüyündən qurtarmayınca
Atanmazsan Bütövlüyün topunu uca!
İkisindən can qurtarsan, qurma uydurma,
Sən Bütövə tapındınsa, uzaqda durma!
Bu Varlıqda istəyinə çatarsa hər kəs,
Qalan nə var, ya boşluqdur, ya da ki həvəs!
Nə qədər ki, gəncsən hələ, sağlamsan hələ,
Demək, bütün istəklərin yetər hasilə.
Əgər külək boyunu da sındırsa sərvtək,
Bu yol ilə mumya necə ələ keçəcək?!
Varlığında bu Varlığın gözəlliyi var,
Onda, yolu indidən get sağkən ayaqlar.



Din yolunda qamışsayaq bağlasan qursaq,
Uca boyun sərvlər təki uca qalacaq!
Söyüd kimi yaşıllığım artıq saralıb,
Bənövşəm də ağarıbdır, laləm qaralıb.
Üzüntüdən uğramışam elə bir çağa,
Gücüm çatmaz qurşaq taxıb, papaq qoymağa.
Kişi kimi öz xalqıma xidmət göstərdim,
İndi hanı o kişilik, küləyə verdim?!
Bu çağımız əl-qolumu bağlayıb artıq,
Öyrəncəkdi, məni dustaq saxlayıb artıq!
Sınmış idi çökməmişdən qanadım hələ,
Yıxılmışam, gör nə günə qalmışam belə?!
Əhmədciyin çil-çil idi körpəykən üzü,
Çiçək tutdu, çopur oldu sonradan özü.
Sözüm qalsa gözgötürməz kölgəsi altda,
Bacarığım saxlar məni uca bir qatda.
Adam varmı, izləməsin kölgəsi onu?!
Yol gedəndə qurd yol boyu güdər quzunu.
Adam varmı, üzdə mənə yaxınım deyə,
Sonra gedib, arxamdaca üz göstərməyə?!
Mənə arxa duranlarsa çox xamdılar xam,
Bəs hansına yaxınlaşıb eyləyim salam?!
Gənclik məndən üz çevirib, ortadan gedir,
Nə etməli, istəklərim öz yerindədir?!

Yaş üstünə yaş artdıqca bu qoca varlıq
Acgözlükdən, istəklərdən usanmış artıq.
Yalnız bizim sikkəmizmi vurulub belə,
Ya hamını söküb-didir bu ağrı hələ?!
Ürəyimi hər ağrıdan qoruyan loğman,
Qoru varlıq cövhərimi yersiz tapdaqdan!
Qaranlıqda boğuluram, mənə ver işıq,
Sındırmısan, mumyala ki, tutsun calaşıq!
Dalğınlığı artıranı, qurtar ağrıdan,
Əlindədir bu dolaşıq, eylə sən asan.
Salmamışam hər ilgəyə öz boynumu mən,
Qoru onu simiclərin ağrı yükündən!
Yaşamıma bəs eyləyər yığdığım dənim,
Dürtək başım sədəf evdə ucadır mənim.
Çox yaxşı ki, baş ucalıq verilib yenə,
Baş əymirəm, bu uğuru çox görmə mənə!
Öz başını hər xaltaya salmadığından
Belə böyük ad qazanıb Varlıqda aslan.
Süfrəndən ki pay verirsən insanlara sən,
Bu, yaxşıdır yad süfrədə halva yeməkdən.
Dan yeri şiş xəncərini çıxarıb budur;
Ey Nizami! Nə yatırsan?! Bir ayağa dur!
Ağır əmək yormaz səni, yeni mədən yar,
Bu mədəndən qoy açsınlar yeni saxlanclar!



# "İskəndərnamə" ("Şərəfnamə") əsərindən



***Rəssam Fəxrəddin Əli.***
***"Nüşabə və İskəndər" miniatürü***



# "İSKƏNDƏRNAMƏ" ƏSƏRİNDƏN ("ŞƏRƏFNAMƏ"DƏN)

## İskəndərin Ərəbistana getməsi və Kəbəni ziyarət etməsi

## ("İskəndərin Armana və Abxaza yürüşü")

Gəl, ey saqi, könülaçan içki süz mənə,
Dalğınlığı gecə-gündüz ağrı edənə.
Bəlkə, dinclik qoxusunu varlığım ala,
Məni sökən göynəmlər də uzaqda qala!

* * *

...Şah bir daha qayıdanda İraqa yenə
Düşdü burda doğma yurda dönmək fikrinə.
Azərabadgan elçisi də eə bu zaman
Şaha məktub gətirdi o öz başçısından..[27]
«-Varlıq şahı bu varlığa dinclik verincə
Bu Varlıqdan dalğınlığı sildirdi, öncə.
Bəs Armanın işlərinə qarışmır niyə,
Soraq tutmur, göz yetirmir həmin ölkəyə?!
O diyar ki dan yerinə yaxınsa belə,
Gecədən də qaranlıqdır, bürünüb tülə?!
Yanar oda tapınıblar Armanda daha,
Onlar qulluq eyləyirlər bir özgə şaha.
Adye soydan bir igid var Abxaz elində,
Hətta Rüstəm döyüşünü çəkməz dilində.
Onun adı Dəvalidir, at üstə gəzər,
Qorxunc aslan dərisini boğazdan üzər!
Güvənirlər igidləri Armanın ona,
Bel bağlayıb, dayanarlar hər buyruğuna.[28]
Yığnaqlarda sağlığına içki içərlər,

Vergiləri toplayanda onu seçərlər.
Əgər, şahım, ona sarı yürüməsən sən,
Mülkümüzü bizdən tutub alacaq, hökmən!»
Varlıq şahı eşidincə ondan bunları,
Tez Babildən qoşun çəkdi Armana sarı.
Təmizlədi o ölkəni bu qarışıqdan,
Rum şahının özünə də xoş gəldi Arman.[29]
Götürüldü aralıqdan hər bir alçaq iş,
Kahinlərin eylədiyi oda sitayiş.
Abxazasa basqın etdi gecəyarısı,
Açıldı da üzlərinə acıq qapısı.
Təbillərin guppultusu qopdu yenidən,
Nizələrsə gizlim açdı göylərə yerdən.
Şah sorağı göndərəntək hər bir qalaya,
Açarları yolladılar alaraq saya.
Abxazbaşı Dəvali də duyub işini,
Bildi şahın diyarına bu gəlişini.
Yeni buyruq qayğısını belə bağladı,
Ürəyindən acıq qovdu, sevgi saxladı.
İşbilənlər kimi o da at çapsın deyə,
Çapdı şahın əllərindən tutub öpməyə
Saxlancından aparmışdı xeyli daş-qaşı,
Qatdı şahın saxlancına saxlanclarbaşı.
Sonra çökdü şahənşahın taxtı önünə,
Yol vermədi öz ürəyi yağıya dönə.
Varlığı da dolaşan bu şanlı İskəndər
Gördü onun igidliyi ad-sana dəyər.
Öz taxtının yaxınında yer verdi ona,
Aldı adlı bu qonağı şah sarayına.
Nəvazişlə soruşdu ki, necədir özü,
Ürəyinə odlar səpdi şahın hər sözü.
Buyruq verdi, saxlancbaşı saxlancı açsın,



Dəyəri də ölçülməyən saxlancı saçsın.
Geydirsinlər şahalayiq geyim də ona,
Sırğa taxsın, boyunbağı assın boynuna.
Qılınc gövhər, camı qızıl, parçalar ipək,
Bəzəsinlər taxt üstündə ulu şahlartək.
Bacarıqlı saxlancbaşı işi düzəltdi,
Şahənşahın buyruğuna tez əməl etdi.
Dəvalinin bəxt ulduzu göydə göründü,
Elə ki, o, şah istəyən ipək büründü.
Yandı qızıl boyunbağı, tacın qaş-daşı,
Taxt üstündə şahlar kimi ucaldı başı.
Bağır basıb, dua etdi o, şahənşaha,
Yəzdandan da alqış dedi ona bir daha!
Tez özünü bir buyruqçu gününə saldı,
Şaha o, baş endirməklə başı ucaldı.
Şəhriyara qulluq üçün bağladı kəmər,
Bildi, bundan sonra işi qulluqda keçər.
Şahsevərlik yolunda o çatdı bir ada,
Neçə-neçə seçilmişi qoydu arxada.
Başdan-başa yaşıllıqdı bu diyar bağtək,
Görən kimi, şahın gözü yandı çıraqtək.
Bu ölkəni görüb sonra, Varlıq yiyəsi
Dinclik tapdı, sevinclərlə güldü çöhrəsi.
Öz oğluna belə demiş o qoca bağban;
Tiflisi də bəzəmişdir şah gələn zaman.
Başdan-başa bəzək olan gözəl diyarda
Yaxşılığın toxumunu səpmişdir o da!
Buyruq vermiş: - Bu torpaqda bir qayda olsun,
Hər bir işin özülü də Rumtək qurulsun!»
Bu diyarı gəzə-gəzə ötüb də keçdi,
Ov eylədi, küləkləri ötüb də keçdi.
İki həftə ayrılmadı o, göldən, dağdan,

İzi qaldı bu diyarda elə o çağdan.
Quş ovlamaq, balıq tutmaq xoşuna gəldi,
Bərdədəki Nuşabəyə sarı yönəldi.
O qadının ad-sanından vardı sorağı,
Bilirdi ki, yaşayır çox varlı bir çağı.
Çaylar gördü, tarla gördü-yaşıldı həryan,
Bir düzənə çatan kimi, düşdü atından.

## İskəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi

Saqi, cana qan gətirən meydən süz mənə,
Yanğı kəsər susayana suyun yerinə.
Ağrı üzür, susuzluqdan hey yanıram mən,
Durma, mey süz, öyrəncəyəm, odlanıram mən!

***

Bərdə yurdu göz oxşayır, onun torpağı
Nə yaz ayı gülsüz olar, nə də qış çağı.[30]
İyulunda dağlarını bəzər çiçəklər,
Qışda əsər yazı kimi ılıq küləklər.
Dörd bir yanda yaşıl-yaşıl meşələri var,
Kür çayından ətəyinə duru su axar.
Bəzəyidir bu torpağın yaşıl qovağı,
Dönüb İrəm bağçasına gözəl Ağbağı.[31]
Burda qumru, turac, kəklik, qırqovul bütün
Kölgəsindən əksik olmaz sərvin, söyüdün.
Doğma yerlər səssiz-səssiz dincini alar,
Torpağı da nə ağrıya, nə küyə salar.
İl boyunca gömgöy olar gülün yarpağı,
Bu yurd tapıb başdan-başa bolluq qaynağı.



Dən dalınca quşlar gələr hey qatar-qatar,
Gərək olsa, quş südü də burda tapılar.
Çəkilmişdir torpaqları qızıl suyuna,
Zəfəranlar əkilmişdir, sanki dörd yana.
Yaşıllığın arasında dolaşan hər kəs
Sevinməkdən özgə cürə duyğuya düşməz!
Daha indi bu sarayın taxtı çökübdür,
İpəyini, qumaşını yellər sökübdür.
Çiçəyini tökən ağac bar verməyəcək,
Nərgiz qoxu, nar ağacı nar verməyəcək!
Meşələrdə daşqın sellər şırımlar salmış,
Gözə dəyən yığın-yığın odunlar qalmış,
Toxumundan cücərməsə o cür bitkilər,
Yaxşılığın ətəyində göyərib gülər.
Bəslənərsə ilkinindən, yaşıllıq artar,
Daha aydın gözə dəyər bəzəkli paltar.
Üzə gülsə, əgər, şahın baxtı yenidən,
Bəzəyərdi o sarayı, taxtı yenidən.
"Hərum" deyə ad vermişdi keçmişlər ona,
Hər söz açan Bərdə deyir bu gün adına![32]
Bura igid torpağıdır, ulular yeri,
Çağın özü qoruyubdur bu gizlimləri.
Belə şənlik çiçəkliyi, deyin, harda var,
Bəs hardandır qucağında gizli saxlanclar?!

* * *

Söz saxlancı qorucusu söylədi belə,
Keçənlərdən qalanları gətirdi dilə:
– Bu qorucu bir qadınmış –Nüşabə adı,
Bütün ili sarayında şənlik qurandı.[33]
Tovuz quşu erkəyinə çox oxşayarmış,
Ürkək dişi ceyranlartək duruşu varmış.
İti duyğu, açıq ürək, dili də şirin,

Zərif mələk, ulu təki zəkası dərin.
Buyruğunda dayanarmış min-min gözəl qız,
Bir Ay kimi qulluqdaymış qadına, yalnız.
Ona qulluq edərmişlər atlı kənizlər,
Bundan özgə əldə qılınc - otuz min nəfər.
Qapısından girməz imiş bircə kişi də,
Çoxusunun yaxın olsa ona işi də!
Qadınlara tapşırarmış işləri bütün,
Bu köməyi kişilərdən ummamaq üçün.
Qadınlarmış ona verən öyüdü, sözü,
Ev yiyəsi imiş, ərdə deyilmiş özü.
Qulluqçular mülklərinə yayılmışdılar,
Öz yerinin başbiləni sayılmışdılar.
Hər buyruqçu o qadının qorxusu ilə
Paytaxtının qapısını görməzmiş belə.
Döyüş üçün tapşırıqlar varmış onlarda,
Hər birinə gərəkliymiş, olsa da harda.
Qoşununu düzənliyə çəkən İskəndər
Çadırları qaldırıbmış Ülkərə qədər.
Görən kimi, bu torpağı o qeysər özü,
Gözəlliyin önündəcə böyümüş gözü.
Soruşmuşdu: "– Kim çatdırmış bu yeri vara,
Hansı qoçaq başçı qalmış belə diyara?!»
Demişlər ki: "– Bu ölkəyə başçı sayılan
Bir qadındır – bu varın da yiyəsi olan.
Kişilərdən daha igid, daha qoçaqdır,
Dənizlərin incisindən daha parlaqdır.
Ürəyi saf, başı uca, anlamı dərin,
Böyük qayğı çəkənidir kimsəsizlərin.
Cəsur kimi kəmərini bağlarmış hər gün,
Öyünərmiş şah soyundan olduğu üçün.
Başa papaq qoymasa da, şah tacı varmış,
Başçı imiş, görməsə də, ordu olarmış.
Qoçaq, çevik qulluqçunun sayı bilinməz,
Ancaq onun öz üzünü görməzmiş heç kəs.
Köks yasəmən, baldız gümüş, çalışqan qızlar
Hər bir işdə heç də ondan geri qalmazlar.
Hamısında döşlər narı, boy oxu keçər,
Döşlərindən şəkər belə şirin süd içər.
Harda qaqum dərisi var, nazik ipək var,
Boy-buxuna göz yetirək yerində qalar!
Cürət edib, baxa bilməz onlara mələk,
Baxa bilsə, yuxarıdan yerə düşəcək!
Parlayarlar çıxan kimi eyvana, bağa,
Gündüz Günə bənzəyərlər, gecə çırağa.
O işığa göz yetirməz hər yetən bir an,
Göz qamaşar, baxsa yaxın, ya da uzaqdan.
Səsi çatsa, qulağına kimsənin, əgər,
Onların da nazlarına başını verər.
Boyunbağı sırğaları bütün inci, dürr,
Dodaqları xalis yaqut, dişlər incidir!
Necə ovsun oxumuş ki, qızın hər biri,
Qızğın istək yanğınından qalmışdır geri?!
Göy altında meyl etməzlər özgə heç nəyə,
Öyrəşiblər rud səsinə, bir də ki, meyə.
Bağlılıqda yolu tutan o başçı qadın
Bağlamışdır yollarını ehtirasların.
Həm qəsrdə, həm sarayda gözəl evlər var,
O evlərə açıq gedib gələrlər qızlar.
Qadın pərdə arxasında, baxma, oturar,
Bacarıqlı qurucutək yaradar, qurar.
Öz şahanə sarayı da ucadır onun,
Bahalıdır xalıları hər bir salonun.
Büllurdandır gözəl taxtı-sarayı bəzər,

Üstünə də səpələnib xalvarla gövhər.
Həmin taxtın bər-bəzəyi alışar par-par,
Gecə çıraq kimi yanar, Ay kimi parlar.
Bu taxtında oturar o hər səhər çağı,
Unutmaz da yaradanı xatırlamağı.
Taxt üstündə gəlin kimi nazla oturar,
Neçə gəlin ayaqüstdə qulluqda durar.
Gecə-gündüz içki və rud səsi altında,
Dolanarlar mavi göyün çarxı altında.
Tanrıya da tapınmağı qoysaq bir kənar,
Yeyib-içib dincəlməkdən başqa nə iş var?!
O qadının əlindədir bu saray, bu var,
Ancaq Tanrı tapınında çəkər ağrılar.
Dönə bilməz tapınmağın yolundan bir an,
Gecələri çıxıb gedər cənnət saraydan.
Ağdaşlardan tikdirmişdir ayrıca bina,
Qaş qaralcaq, Ay ki doğdu, baş çəkər ona.
Həmin evdən işıq saçar Varlığa Aytək,
Sübhə kimi, Tanrısına dua edərək.
Sona necə gözqırpımı baş vurar suya,
O özü də yatağında gedər yuxuya.
Pəri kimi gözəllərlə sonra da yenə
O başlayar içki, nəğmə şənliklərinə.
Bütün günü yüyəni də beləcə dartar,
Bu yol ilə gecəsini gündüzə qatar.
Nə duasız gecələri yuxuya dalar,
Nə gündüzlər özü belə sağlıqdan qalar.
Onların bir dalğınlığı olarsa, əgər,
Dalğınlığı daha varlı işbilən çəkər!..."
Bu dastanı şah bəyəndi, dəyər istədi,
Görünməmiş o bəzəyi görmək istədi.
Bir yer seçdi; otu, suyu, hər cür gövhəri,
Gövhərlərin suyundan da çoxdu dəyəri.
İçki içib, rud dinləyib, xeyli dincəldi,
Çağ ötüşdü, ürək dolu sevincə gəldi.
Nüşabəsə öyrəndi ki, şah burda durmuş,
Falı yeni uğur açan taxtını qurmuş.
O tələsdi gecikmədən səcdə qılmağa,
Nə eyləsə, şəhriyara layiq olmağa.
Şaha layiq yeməklərdən göndərdi ona,
Qulluq üçün kəmər taxdı öz qurşağına.
Səy göstərdi; heyvanlardan seçib arasın,
Həm kəsməyə, həm minməyə yaxşı yarasın!
Neçə-neçə kum bağlatdı, o yerdə bitən
Təzə-təzə, soluxmamış göy-göyərtidən.
Müşk qoxuyan xörəkləri qabaq ayırdı,
Əl yumağa müşklə dolu tabaq ayırdı.
Meyvələrin hər birindən düzdü qablara,
Şam yeməyi, şəkər çatdı neçə xalvara.
Yığnaqları bəzəyəcək göylər, noğul, mey,
Yeməkləri daşıdılar neçə günə hey.
Şaha varlı yaxınlara seçib ayrıca,
Dadlı yemək göndərirdi sayaraq uca.
Göstərdiyi bir bu qədər ələçıqlığı
Adını da dildən-dilə saldı, açığı.
Ürəkçalan o qadınla görüşmək üçün,
Şahın böyük istəyi də artırdı hər gün.
Diləyirdi, gizlimlərdən tez alsın soraq,
Görsün, necə məmləkəti qurur o qoçaq?!
Görsün, onun torpağının hardadır sonu,
Danışanlar söyləyirlər, doğrumu onu?!

* * *

Gündüz qızıl nal vuranda Şəbdiz atına
Bu Varlığa işıq yayan mindi atına!
O, elçilik işlərini qurdu, öncədən,
Özü oldu elçilərtək saraya gedən.
O sarayın dəhlizinə ayaq basınca
Bu yürüşdən köks ötürüb, dayandı azca.
Gördü, başı bu sarayın göylərə dəyir,
Qarşısında onun bütün yer-göy baş əyir.
Buyruqçular tezcə ondan alınca soraq
Tələsdilər o başçının yanına, ancaq:
- Gəlişindən bu diyarda adı yüksələn
Rum şahının elçisidir saraya gələn.
Düşüncəli, çox anlamlı, huşu yerində,
Danışmayır, mələk kimi susur yerində.
Ağıl, bilik cəmləşibdir özündə onun,
İzədinin siması var üzündə onun!

* * *

Bəzətdirdi sarayını Nüşabə o gün,
Tutdu dəmir keçidləri qızıla bütün.
Tezcə pəriüzlüləri yığdı buraya,
Bəzəndirib-düzəndirib, düzdü saraya.
O, müşk saçan saçlarını tutdu daş-qaşa,
Gövhər vurmuş ipək donu özgə tamaşa.
Sanki bağda tovuz quşu qanad açırdı,
İşıq saçan çıraq kimi işıq saçırdı.
O özünü şahlıq taxtı üstünə saldı,
Ənbər iyli narıngini əlinə aldı.
Buyruq verdi; buyruqları çatdırın saya,
Elçini də dəvət edin, gəlsin saraya.
Çatan kimi, bu tapşırıq vəkillərinə
Gecikmədən yetirdilər onu yerinə.



Elçi girib, çəkinmədən qabağa gəldi,
Aslan kimi addımlayıb, taxta yönəldi.
Qılıncının kəmərini açmadı qonaq,
Elçilərtək başını da əymədi, ancaq.
Altdan-altdan dörd bir yanda gəzirdi gözü,
Ürəkçalan bu saraya vuruldu özü.
Hurilərlə dolmuş bütün bu cənnət bağı,
Saf ənbərlə yoğrulmuşdur, sanki torpağı.
Qulaqlardan asılıbdır gövhərlər düzü,
Gövhər səpir baxa-baxa görənin gözü.
Yaqutları parlayırdı, ləl odlanırdı,
Bundan isə o ötənin nalı yanırdı.
Sanki burda qarışmışdı dənizlə mədən,
Daş-qaşları səpmişdilər ortaya dən-dən.
Ayıq qadın o elçinin davranışından
Qorxu çəkdi, acı duyğu keçdi başından:
"– İşi bilən, çox dözümlü olan bu kişi
Baş əymədi, niyə əyir, görən, bu işi?!
Onun belə gizlimini öyrənmək gərək,
Heç çəkinmir bizlərdən o, nədir bu, görək?!"

* * *

Gələndən çox göz qoyurdu Nüşabə ona,
Çəkdi xalis qızılı o, məhək daşına.
Gözlərini ayırmadan tanıdı şahı,
Öz taxtında yer göstərib, sınadı şahı.
Anladı ki, önündədir İskəndər özü,
- Keçib taxta, qoy otursun, bəs nədir sözü?!
Yeddi uca dolananın uğuru ilə
Alqışladı ulu şahı uğuru ilə.
Kimliyini soruşmadı, gözlədi, ancaq,
Özünü də göstərdi o daha utancaq.
Düşüncənin bağçasından bir söz açmadı,

Gizli qızıl açarını heç düz açmadı.
İskəndər də elçilərin öz yolu üzrə
Gizlimini çözələyib, düşmədi üzrə.
Öncə, ona bağır basıb, xeyli öydü o,
Elçiliyin qapısını açıq döydü o.
Ulu şahdan o başçıya salam yetirdi,
Yaxşılığı, adilliyi dilə gətirdi.
Sonra belə söylədi ki: "– Ey sanlı banu,
Sənin kimi ad çıxaran Varlıqda hanı?!
Nə üz verdi, sən çevirdin yüyəni bizdən,
Bircə gün də sevinmədik görüşümüzdən?!
Acizlikdə harın attək qarşıma çöndün,
Pislik gördün, birdən-birə yağıya döndün?!
Qılıncımdan iti qılınc, söylə, harda var,
Kimin oxu oxum kimi yanar od saçar?!
Sən də qaçıb sığınasan həmin o kəsə?!
Üstünlüyün bu olar ki, yola gələsən!..
Düşərgəmin torpağına dəysin ayağın,
Coşmağımdan bezikməyin olsun dayağın!
Mən ki gözəl ölkənizə yolumu saldım,
Onu qayğım kölgəsinin altına aldım.
Sənsə mənim düşərgəmdə kəmər taxmadın,
Üz çevirdin, niyə mənə sarı baxmadın?!
Mey-meyvəylə sən başımı qatmaq dilərsən,
Qonağına noğul, reyhan satmaq dilərsən?!
Tutduğun bu ilk işləri bağışlayıram,
Dərin düşün, ağıl işlət, olarsan aram!
Bu yol ilə əgər görmək istəsən məni,
Humay quşu kimi uğur sanaram səni!
Elə davran sarayında gəl mənimlə sən,
Bir gün sonra düşərgəmə yola düşəsən!"
Şahənşah ki açıb-tökdü öz sorağını,



Baş endirib, gözlədi o, söz sorağını.
Düşüncəli, gözəl qadın bu soraq üçün
Açdı yaqut dodağının bəndini bütün:
"– Sənin kimi cəsur şaha öz sayğımız var,
Aslan təki şah sorağı özü oxuyar!
Ey qoç igid, ürəyimə damıb ki, belə;
Bu ağılla, şaha bənzər görünüşünlə
Özün soraq gətirən yox, ulu şahsan sən,
Elçiləri göndərənsən, elçi deyilsən!
Soraqların qılınc kimi boyunlar vurar,
Hansı güclü əldə qılınc önümdə durar?!
Ancaq sahsa qılıncını oynadan zaman
Dikbaşlıq da baş qaldırar qılınc ucundan.
İskəndərin qılıncından boş-boş danışma,
İskəndər sən özünsənsə, sözündə çaşma!
Əgər məni öysən belə, düşübsən tora,
Aç gözünü, bir yaxşı bax, gəlibsən hara?!
Mənim aydın gələcəyim gətirdi səni,
Tanı indi dövlətimi tək düşünəni!»
Varlıq şahı dedi ona: "– Taxta yaraşan,
Sən axtarma ağ günündən özgə bir nişan.
İskəndər bir dənizdirsə, mən kiçik arxam,
Olmaz kölgə danlağından Günəşə arxam!
Kimə necə tay tutursan bir gör sən kimi,
Neçə-neçə yançısı var onun mən kimi?!
Ürəyini gel-gəllərdən boşalt büsbütün,
Sən yaxşı bir şah yada sal məndən də üstün.
İskəndəri düşündünmü kimsəsiz belə,
Gətirərmi sorağını o özü ilə?!
Çoxdur ona düşərgədə yaxın olan kəs,
Elçilikdə o özünə ağrılar verməz!"
Nüşabəsə yenə ağıl ulduzu saçdı,

Yenə yaqut dodaqların bəndini açdı:
"– Gəl ürəyi aldatmağa bir də başlama,
Sən dolaşıq danışmaqda təkatlı olma!
Bu işlərdə bir o qədər göstərmə inad,
Çünki adın çox tanınıb çıxarandan ad!
Sorağın da çox böyükdür, qazandın sanı,
Gizlətmə qurd dərisində sən bu aslanı!
Elçilərdə o güc hanı, ucqara çata,
Bizimlə də sərt danışıq addımı ata?!
Elçi gərək özünü heç belə öyməsin,
Necə olar, heç önümdə o, baş əyməsin?!
Bu şahanə gəlməyi də bir şah bacarar,
Ondan başqa, kim özünü məğrur aparar?!
Özgə-özgə nişanlar var, aşkardır mənə,
Neçə-neçə gizlimi də açaram sənə!"
Ulu şah da söz qaytardı sözünə əvəz:
"– Tülkü aslan sorağını gətirə bilməz!
Sanırsan ki, adlı-sanlı İskəndər mənəm?
Yanılırsan, ondan, yalnız söz gətirənəm!
Qarışmaram böyüklərin sorağına, bil,
Gizlimə əl qatmaq mənə yaraşan deyil!
Dediklərim tez özündən çıxarmış səni?
Özün düşün, bir də qına bəzək çəkəni!
Bir ürəkli elçiyəmsə davranışımdan,
Deməк, məni tülkü deyil, göndərmiş aslan!
Axı şahlıq qanununda şah qaydası var,
Elçiləri qorumağa tapşırıq olar!
Ulu şahdan göndərişlər mən açdım sənə,
Daha sən də açar salma qıfıl yerinə.
Buyruq ver ki, dinclik ilə davransın hərə,
Gülə-gülə dönüm mən də gəldiyim yerə!.."
Nüşabəsə saxlayırdı güclə özünü;
Şah palçıqla suvayırdı Günəş üzünü.
Pozdu onun dincliyini, od tutub yandı,
Şaha qarşı acı-acı sözlər oyandı:
"– Günəşinmi üzünə sən suvaq çəkirsən,
Nə faydası, məni məndən uzaq çəkirsən?!"
Buyruq verdi, kənizisə gətirdi yüyrək,
Üzərində şahlar şəkli olan top ipək.
Nüşabə də top ipəyin tutub ucunu,
Göstərərək İskəndərə, dedi: "– Tut bunu!
Bax, gör kimin surətidir ipək parçada,
Nədən ötrü əks olunub ipəyə o da?!
Əgər sənin rəsmindirsə, gizləmək artıq,
Öz qaşınla göyləri də gizləmə, artıq!
Şah buyruğa yavaşıtdı burda atını,
Tez burulmuş o ipəyin açdı qatını.
Gördü orda sürətini öz gözü ilə.
Sandı, yağı ölkəsini keçirib ələ.
Nə dəyişdi, nə özünü günaha saldı,
Söz tapmaqda birdən-birə o, donuq qaldı.
Qorxusundan üzü oldu saman sarısı,
Dedi, onu bağışlasın, yalnız Tanrısı.
Nüşabə də sezdi bunu; o güclü aslan
Susub baxır, sustalıbdır özü qorxudan!
Söylədi ki: "– Uğurlu şah, darılma hələ,
Çox-çox oyun çıxarıbdır çağ özü belə.
İstəmərəm, olan işdən dalğınlaşasan,
Bu sarayı sən özünün doğma evin san!
Kənizinəm, qulluğunda qulluqda duram,
Bir qulunam, harda olsan, mən orda varam!
Ona görə, surətini göstərdim sənə,
Doğru-düzgün dəyərimi verəsən mənə!
Mən bir qadın sayılsam da, sərt dözümüm var,

Bütün Varlıq gizlimləri üzümə açar!
Baxma, erkək aslansan sən, mən dişi aslan,
Gücüm səndən geri qalmaz, döyüşdə olsan!
Acığımdan qara bulud kimi hay sallam,
Qılıncımın tüstüsündən suya od sallam!
Aslanların ombasına basaram dağı,
Qat piyindən yandıraram neçə çırağı.
Sən sevgidən qapıb məni, çəkmə döyüşə,
Dözərsənmi, vurulanın qaxınca düşə?!
Tikan sancsan, ilişərsən tikanlığa sən,
Çağında aç yolu, düşmə qaranlığa sən!
Döyüşlərdə üstün gəlsən bir dul qadına,
Bu üstünlük yaraşarmı, söylə adına?!
Döyüşlərdə üstün gəlsəm bir şaha səntək,
Mən Varlığın öz şahını yenmişəm, demək!
Tülkü ilə qurda bizim bənzərimiz var;
Sənin başın alçaldıqca başım ucalar!
Qocalardan ulu məsəl qalıbdır belə:
"– Girmə güləş yarışına bir yoxsul ilə!"
Yoxsul güclə çalışar ki, qopartsın nəsə,
Candan keçər, üstün gəlsin güləşən kəsə.
Bu şəhərdə dinclik tapıb, sanma, diləyim,
Şah işini yaxşı duyur mənim ürəyim!
Hindistandan tutmuş bütün Rum çölünədək,
Dağıq yerdən abad yerin dinc elinədək
Göndərmişdim bacarıqlı rəssamları mən,
Şəkil çəkib gətirsinlər hər bir ölkədən.
İstəyirdim, torpaq tutan şahdırlar deyə,
Surətləri köçürülsün nazik ipəyə.
Sonra buyruq vermişdim ki, surət çəkənə
Çəkdiyi o şəkilləri göndərsin mənə.
O çağda ki şəkillər də saraya gələr,
Ayıq gözlə mən onlara salaram nəzər.
Hansı şahın şəkli varsa, yazılı gərək
Həmin şahın barəsində bilgilər verək.
"Filan şahın surətidir!" – deyəndə bunu,
Bəyənirəm o surətin doğruluğunu.
Bundan sonra, ta təpədən dırnağa qədər,
Şəkillərə bircə-bircə salıram nəzər.
Hər bir yaşı ötmüşü mən, gənci seçirəm,
Elə onun öz qədrincə ölçüb biçirəm.
Bir ayrıca duyğu da var, biləsən, məndə.
Yaxşı, pisi ayırıram şəkli görəndə.
Gecələr də, gündüzlər də boş qaynamaram,
Mən özümlə bu pərdədə heç oynamaram!
Dərin anlam tərəzimi işə salınca
Şahları da ölçürəm ki, alçaqdır, uca.
İpək üstdə şəkillərə baxdığım zaman
Bircə sənin surətini xoşladım, inan!
Çünki mənə həlimlikdən o verər soraq,
Ədalətli şahda olar bu baxış, ancaq!»
Çəkinmədən belə dedi o, İskəndərə,
Bundan sonra, qızıl taxtdan tez düşdü yerə.
Oyləşdirdi ulu şahı həmin kürsüyə,
İki şahsa bir taxt üstdə oturmaz deyə.
Görmürsənmi, şahmatda da iki şah olar,
Oyunçular ürəyinə dalğınlıq dolar!
Pəriüzlü öz taxtından yerə enincə
Şaha qulluq göstərməyə başladı, öncə.
Oturmuşdu qızıl kürsü üstdə gəlintək,
Şahənşaha gərəyincə qulluq edəcək.
Şah da nəhəng balıqdan çox utandı, düzü,
Zürafətək ala-bula çalırdı üzü.
Ürəyində dedi: "– Qadın yollar açandır,

Kişi kimi ürəyi də işıq saçandır.
Bacarıqla belə işlər görürsə, demək,
Ona alqış oxuyacaq özü də mələk.
Ancaq qadın çox da igid olmasa, yetər,
Dişi aslan kinli olar erkəkdən betər.
Əgər qadın çəkisində çox yüngüllük var,
Amma kişi ağırlığı tərəzi qırar!
Çox yaxşıdır, qadın elə örtülü gəzə,
Axı çalğı pərdəsizsə, düşər min səsə.
Necə gözəl söyləmişdir Cəmşid vəzirə;
"– Qadın gərək, ya örtüyə, ya gora girə!"
Qadın dindar olsa belə, yolu düz saxla,
Oğru yaxın olsa belə, eşşəyi bağla!
Şah bir daha düşündü ki: «- Nadanlıq bəsdir,
Bağışlanmaq gözləməyi yenə əbəsdir!
Ayıl acı düşüncədən, çağa yetişdin,
Öz canını yaddan çıxar, işə ki düşdün.
Həm sayğılı, həm gözəldir, həm də şirin dil,
Çox yaxşı ki, bir o qədər acıqlı deyil!
Görə bilsən önündə sən acıqlı yağı,
Ayrı yol yox, düşməliydi başım aşağı.
Mən buradan öz yükümü çəkib çıxarsam,
Anlayaram işlərimi, haraya varsam!
Bir də belə öz üzümü mən gizlətmərəm,
Sözsüz, onda, şaşqınlıqlar yolu getmərəm!
Bu tutulmuş ürəyimi düyündən alım,
Axı niyə mən düyünə düyün calayım?!
Əgər düşsə, qarınca da sürüşkən tasa,
Qurtarana güc nə gərək, bir çöplə çıxsa.
Ağrılara tələsmədən dözməliyəm mən,
Baş qurtaram gərək yuxu düşüncələrdən.
Eşitmişdim: "Biri dara getsə də belə,
Darılmırdı; o gedirdi hey gülə-gülə".
Dostlarından biri keçib, soruşdu ondan;
"– Yaşamına çox az qalıb, nə şadlanırsan?"
Cavab verdi: "– Yaşamıma qalıbsa çox az,
Demək, onu dalğın-dalğın keçirmək olmaz!"
Bu duyğunun içindəydi: Tanrı qurtardı,
Qaranlıqdan biryolluğa işığa vardı.
Bəzən elə qıfıllar var, tapılmaz açar,
Gözlənmədən biri onu yetişib açar!
Bu sözlərdən ürəyində şah çox söyləndi;
Sonra buyruq göstərməyin atından endi.
Əgər igid təkbaşına getsə çapqına,
Dev əlinə düşə bilər, ha onu qına!
Müğənni də oxuyarsa pərdəsiz, əgər,
Rudun səsi nəğməsinə qəhqəhə çəkər!
Bir xeylicə danladı o özü-özünü,
Söndürüncə sıxıntının yanar közünü.
Bu ağrını azaltmağı dözümdə gördü,
Yaşamına baş əyməyin özündə gördü.
Nüşabə də qulluqçutək bağladı qurşaq,
Buyruq verdi, işləsinlər pərilərsayaq;
Hər cür dadlı yeməklərlə süfrə açılsın,
Neçə adlı yeməklərlə süfrə açılsın!
Kənizlər də şamlar kimi şax düzüldülər,
Şaha layiq süfrə üçün bərk üzüldülər.
Gətirildi bu yerlərin hər nemətindən,
Dadlı-dadlı neçə xörək quzu ətindən.
Uzun-uzun, təzə yuxa, girdə çörəklər
Düzülmüşdü ta dəhlizdən bayıra qədər.
Şirin şəkər yoğrulmuşdu kökələrinə,
Səpələnmiş çörək üstə küncüt yerinə.
Qazanlarda dəmli aşlar ənbər qoxaraq

Tamlı cənnət yeməyindən verirdi soraq.
Qızardılmış ətlə balıq qalaq vurulmuş,
Yer altında buğa, balıq yerindən olmuş.
Quzu əti, quş ətindən süfrə naxışdı,
Sevincindən bir quş kimi qanad taxmışdı.
Yığılıbdır dolu qablar bir-bir üst-üstə,
Ləpələnmiş özgə qabda badamla püstə.
Paludələr ətirliydi, bilsən, nə qədər,
Qoxu dəysə, canlanardı quru beyinlər.
Çəkilmişdi şəkərdana sulanan halva,
Neçəsinə düzülmüşdü quru paxlava.
Şərbət vardı gülşəkərdən, həm gülablardan,
Yayılırdı dörd bir yana qoxu qablardan.
Yaşamına işıq düşən ulu şah üçün
Taxt önündə ayrı guşə quruldu o gün.
Günəş kimi yanan süfrə düşdü araya,
Kəniz büllur dörd kasanı düzdü oraya.
Biri qızıl, ikincisi ləl qoyuluydu,
Biri yaqut, dördüncüsü inci doluydu.
O çağda ki əl uzandı xörəyə sarı
Aşırdılar süfrələrə qoyulanları.
Nüşabə də şaha dedi: "– Əl uzat, görək!
Önündəki kasalara çəkilmiş xörək.
Şahsa dedi o xanıma: "– Avam, sadədil,
Utanarsan, oxuduğun sən deyən deyil!
Kasalarda qızıl, yaqut, ləldir, incidir,
Daş-qaşları necə yeyim, sözün incidir?!
İnsan daşı yeyə bilər, başa sal məni,
Varlıq özü götürərmi bu söyləməni?!
Elə xörək gətirin ki, yeyilə bilə,
Bax, onda, əl uzadaram mən bilə-bilə!"
Nüşabəsə gülüb baxdı şahın üzünə:



"– Boğazdan ki bir yol yoxdur daşın özünə.
Bəs nə üçün yeyilməyən daş üstündə sən
Çox gərəksiz döyüşlərə belə girirsən?!
Baş qoşursan başını da ucaltmayana,
Dolanışıq gələ bilər ondan insana?!
Dəyərsiz daş yeyilməyə yaramır, ancaq,
Yolçulartək ona niyə biz əl uzadaq?!
Təmizlənsin, qoy qalmasın yolda daş-kəsək,
Daş üstünə aş qalamaq, de, nəyə gərək?!
Bu daşları yığanlarsa, yatdılar yerə,
Heç nə yeyə bilmədilər, atdılar yerə.
Daş-qaş yığan sırasında deyilsənsə sən,
Bu daşı da, atacaqsan, tök ətəyindən!»
Qadının da danlağına bir söz deməmiş,
Şah tez yudu əllərini, çörək yeməmiş.
Nüşabəyə belə dedi: "– Qadınlar başı!
Sən durmazsan kişilərlə gücdə yanaşı.
Sözü necə dolğun dedin: "– Cəvahirsevən!"
Cəvahiri toplayan da daş yığar yerdən.
Düz çıxardı incə sözün o çağda ki, kaş,
Söyləyənin özü belə yığmazdı daş-qaş!
Əgər taca gövhərlərdən bəzək düzüblər,
Demək, bəzək olmalıdır tacıma gövhər!
Süfrəndə də, kasanda da bol-bol gövhər var,
Söylə, kimə çox yaraşar belə qaxınclar?!
Toplamısan öz süfrənə bol cəvahirat,
Mənə yolu göstərirsən: "– Yığ, onları at!"
Toz atırsan cəvahirat yığan gözünə,
Şah yaqutu toplamısan evdə özünə.
Mən dərindən düşünürəm; bu sözlərində
Doğruluq var - söyləmisən, sözsüz, yerində!
Düz danışan bir qadına öygülər gərək,

Qorxmazlığın yollarını səndən öyrənək!
Ayıq qadın, çoxu səndən qoy öyüd alsın,
Atdım qızıl sikkələri torpaqda qalsın!"
Nüşabəsə bu sözləri eşidən zaman
Yaqut səpdi torpaq üstə dodaqlarından!
Buyruq verdi; süfrələrə yemək düzülsün,
Par-par yanan noğuldanlar tək-tək düzülsün!
Qabaqcadan xörəklərdən dadırdı özü,
Böyümüşdü gördüyündən şahın da gözü.
Qulluq edib, yorulmadı, ta o çağacan,
Şah qalxdı ki, yubanmasın yolçuluğundan.
Nüşabəyə söz də verdi getməzdən qabaq,
Onun ulu torpağına əl qatmayacaq!
Buyruq verdi; bu yönümdə kağız yazılsın,
Özü getdi, yorğunluğu bir az azalsın!
O saraydan İskəndər şah çıxıb gedincə
Gərdişin bu işlərini anladı, öncə.
Anladı ki, bu qorxudan qurtulub getdi,
Qurtarana dönə-dönə şükürlər etdi.

* * *

Gecə, sanki işıq topu gündüzdən aldı.
Şam söndüsə, işığını çırağa saldı.
Göy üzündə o qızılı kürə yerinə,
Saysız gümüş kürəciklər alışdı yenə.
Şah dincliyə hazırlaşdı, yuxuya dalsın,
Buyruq verdi, qapılar da qoy bağlı qalsın!
O dincəldi Dan yeri də ta ağarınca,
O gecənin qaranlığı ağa çalınca.
Şah başını qaldıraraq qalxdı yuxudan,
Yığnaq qurdu, bu yığnaqda sökülürdü Dan.
Əlindəcə narınc tutan Günəş qızardı,
Fələyinsə turuncunun başını yardı.



Pəriüzlü Nüşabə də durdu səhərdən,
Çox uğurlu bir çağ çatdı, çıxdı şəhərdən.
Axşam çağı, sanki Aydı o öz yerində,
Bütövləşib doğmuş idi Şərq göylərində.
Dörd yanında kənizləri - Ülkər ulduzu,
Başdan-başa inciləri düzülüb düzü.
O gedirdi gözəllərin düz qabağında,
Yüzü Zöhrə ulduzunun bir barmağında!
Gəlib çatdı... Bu da şahın öz düşərgəsi,
Saysız atlı, sayagəlməz çadır cərgəsi.
Ucalırdı dörd bir yanda ipəkdən bayraq,
Gülə hava, bənövşəyə çalırdı torpaq.
Qızıllardan işlənmişdi, çadır çox idi,
Şahın qızıl çadırının yolu yox idi.
Ondan sordu, bundan sordu, tapdı çadırı,
Başı Aya ucalırdı həmin çadırın.
Bir saraydı, iplər ipək, içi də geniş,
Qızıldandı sütunları, mıxlar xam gümüş.
Atdan yerə enib durdu igidsayağı,
Çox istədi, şah önündə öpə torpağı.
Buyruqçular düşürtdülər bütün yükləri,
Xanım saray qapısından girdi içəri.
Gördü şahın qarşısında o, başçıları,
Hamısı da baş əymişdi bir taca sarı.
Tacidarlar durmuşdular qurşaq-qurşağa,
Sanki onlar seçilmişdi elə bu çağa.
Gözqamaşan işıqlardan, parıltılardan
Elə bil ki, gözlərindən olurdu baxan.
Divarlara çəkilmişdi, guya şəkillər,
Heç birində tərpəniş yox, nə də səs gələr.
Bilə-bilə gələn gəlin qəsri görüncə
Yenilməzlik qorxusundan titrədi, öncə.

O, torpağı öpüb, sonra şahı da öydü,
Bunu görən neçə kişi gözünü döydü.
Ulu şahsa buyruq verdi; xalis qızıldan
Parlaq kürsü gətirilsin, Günəştək yanan.
Öz yanında əyləşdirdi gəlinsayağı,
Qalan başqa gəlinləri ondan aşağı.
Şah soruşdu, necədir o, etdi nəvaziş,
Bol-bol sevinc gətirmişdi ona bu gəliş.
Oturanın ürəyi də dincliklə vurdu,
Qulluqçuya buyruq verən belə buyurdu:
"– Bu süfrənin qulluqçusu tələssin gərək,
Düzsün bura dadlı-dadlı neçə cür xörək!"
Öncə, başçı bu süfrəyə gətirtdi şərbət,
Sanki yerdə açılmışdı hovuzlu cənnət.
Süzən gülab bulaqları belə qoxuda
Nə şah Xosrov, nə də Şirin görmüş yuxuda.
Sonra yenə süfrələrə yeməklər gəldi;
Ənbər tozu buludlara sarı yönəldi.
Yada düşən hər bir yemək süfrədə vardı,
Bişirilmiş növ-növ çörək süfrədə vardı.
Əldilmiş undan bişən ipək çörəklər,
Parıltıdan işıq saçır Aytək çörəklər.
Girdə çörək, yumşaq çörək şişmişdi odda,
Çörəkçilər böyrəyi də bişmişdi odda.
Süfrədəki xörək sayı yüzdən çox oldu,
Neçə-neçə qızıl qabda ora qoyuldu.
Bu Varlıqda bir eləsi qalmışdı, görən,
Çatışmasın o süfrədə həmin yeməkdən?!
O qədər ki xoşladılar, yeyib-içdilər,
Qapağını sürahinin, camın açdılar.
Günortaya kimi, xalis içki içildi,
İçki oddan yaxınlığa geyim biçildi.



Şənlik açdı içənlərin alnını, düzü,
İçkilərdən bayğınların parladı üzü.
Pəriüzlü, gözügöyçək, nazlı gözəllər
Çalıb, şən-şən oxudular gecəyə qədər.
Gecə dalğın qoşununu yaymaq istərkən,
İstək başı yastığına qoymaq istərkən,
Varlıq şahı belə dedi şənlənənlərə:
"– Geri dönmək olmayacaq gecə şəhərə!
Belə buyruq verdirmişəm söküləndə Dan
Elə yığnaq durdurum ki, Balıq - Ayacan!
Biz Firidun yolu ilə, Key yolu ilə
Dadı alaq içkilərdən, həm ruddan belə.
Bəlkə, içki bu camlarda od tutan çağda
İşimizi bişirəcək çiy qan yığnaqda?!
Qoy bir az da qayğılardan düşək uzağa,
Başlədilmiş bu mərcanla başlənsin çağa.
İçki ilə çiçək kimi açılaq biz də,
Bu kürədə gül tərlədək nəfəsimizdə.
Torpaq üstə damlalardan ənbərlər ataq,
Şadlıq başı yumaq üçün gili isladaq!"
Bu torpağı öpdülər də pəriüzlülər;
Pəri kimi şən, utancaq, ceyrangözlülər.
Nüşabəsə parlayırdı şah yığnağında,
Zöhrədən də işıqlıydı işıq çağında.
Gecə ənbər qoxu yayan bəzək saçanda,
Müşk qoxulu göbəyindən örtü açanda
Ulu şahsa gözəllərin müşkin saçından
Uzun kəmənd düzəltdi ki, ənbərlər saçan.
Müştərini Ayla birgə o birdən-birə
Həmin müşkin kəmənd ilə endirdi yerə.
Ürəkləri şənləndirən nə gecə idi,
Naz satırdı hər bir pəri, ah necə idi?!

Bəlkə, pəri nazlanırdı ləl odu yaxsın,
Şah könlünü alan nalı oda buraxsın?!
Buyruq verdi; şah özü də qalansın ocaq,
Muğlar kimi yandırılsın qoxu bir qalaq.
İçkilərdən alov qalxdı, göyə dayandı,
İçənlərin geyimləri yanğında yandı.
Həm içkilər, həm rud səsi, həm də əyləncə
Şahı gözəl əyləndirdi həmin o gecə.
Civəni ki gömgöy daşa vuranda zaman
Qara samur sarı tülkü doğdu bu zaman.
Şənliklərin yığnağı da yenə canlandı,
Şaha layiq bucaqlarda incilər yandı.
Şümşadlarla, göy sərvlərlə bəzəndi çəmən,
Kəkliklərlə qırqovullar tərpəndi yerdən.
Nəğməsini başladı da hər pəriüzlü,
"Mehrgan" günü parlaq olar Günəşin özü,
Ürəklərə işıq saçan yaqut içkidən
Gündüzün də yaqut üzü gülürdü şən-şən!



## İskəndərin Nüşabə ilə yığnaq keçirməsi

Saqi, gətir, o içkidən bir qədəh doldur,
Yaqut rəngli o çiçəyin sorağı budur!
Mənim üzüm qoy içkidən mey rəngi alsın,
Yaqutdan da qoy çaların yaquta çalsın!

* * *

Firidunun şənlik günü, Cəmşid çağında
Dalğınlığı silib atdı sevinc çağında.
Varlıq şahı öz taxtına qalxıb oturdu,
Neçə şahsa önündəcə baş əyib durdu.
Mey içməyə, musiqiyə həvəs göstərən
Hər kəs olmuş bu yığnağa bər-bəzək verən.
Meylə şəkər kimi şirin Nüşabə belə,
Ortalıqda oynayırdı gözəllər ilə.
Bu yığnaqda şah İskəndər Feyləqus oğlu
Heç baxmırdı ötəricə qızlara doğru.
Çünki, öncə, o özünü belə sıxmazdı,
Qadınların yığnağında ova çıxmazdı.
Döyüşçülər gözlərdilər şah ilə ara,
Bir qırıq da düşməzdilər əyri yollara.
Hava soyuq, Günəşinsə çadırı ocaq,
Torpaq quru, Cəmşidinsə yastığı yumşaq.
Dolça bürcü çuxurundan doğdu Gün yenə,
Getdi balıq tutmaq üçün Balıq bürcünə.
Qızıllaşdı dağ ətəyi-dərə, təpə, düz,
Hər yan pullu balıq kimi bağlamışdı buz.
Qar çovğunu qurd gözütək nəfəs kəsirdi,
Qurd dərisi kürkü tikən çox tələsirdi.
Maral budu, qulan beli güc ilə yenə,
Qamarlanıb sıxılmışdı aslan böyrünə.
Donan ceyran budlarının şişlikdən buzu,

Suların da ağ üzünə səpirdi duzu.
Buludlarsa ələyirdi ağappaq qarı,
Yasəmənə bürümüşdü yağmur çinarı.
Düyməçətək açmamışdan bənövşə özü,
Yaz yarpağı qar tökürdü göylərin gözü.
Torpaqdan da boylu qalmış hər çiçək kolu,
Qarnı onun açılacaq çiçəklə dolu.
Hələ gölün qıraqları yatıb dincələr,
Otlarınsa göy ağzından süd iyi gələr.
Dan yırtmışdı təbilini şən bülbüllərin,
Düyməcədə gizlədilib üzü güllərin.
Yığnağın da bülbülləri bardaqlar idi,
Kəklik kimi qaqqıldayan səsi var idi...
Mey içənlər pörtmüşdülər od torpağıtək,
Üzlərisə tərləmişdi gül yarpağıtək.
Bağışlanmaq diləyərək şah dünən üçün
Buyruq verdi; od qalansın yığnaqda bu gün.
Elə bəzək vurdular ki, bu yığnağına,
Oxşayırdı gözəllikdə İrəm bağına.
Ortalıqda gül topuṭək yanırdı ocaq,
Bu mənzərə çiçəkləri yaxırdı, ancaq.
Od içinə düşən tikan qızıl tutmuşdu,
Odsevərlər tikanını o unutmuşdu.
Qara kömür lalə rəngdə - dönmüşdü oda,
Bənzəyirdi daş üstündə gövhərə o da!
Kömür yanır... Dörd bir tərəf müşkə batırdı.
Elə bil ki, saxlanc üstdə ilan yatırdı.
Sayğısızdı, qayğısızdı o qoca məcus,
Vermiş həbəş diyarını talasın o rus.
Hindistandan gəlmiş idi yaşlı cadugər,
Arpa atıb, xırman odlar, istəsə, əgər.
Bir muğ isə arpa deyil, qızılgül əkdi,



Bənövşəni biçən çağda ağrılar çəkdi.
Qara zənci müşk apardı Mazandarana,
Say qızıla dəyişdirib, döndü bu yana.
Evi qana boyamışdı hindli qadını,
Qızıl söyüd oldu bütün abnus odunu.
Səqlabi də çapdı atı düz Çinə çarı,
Burtasısa samur xəzdən geydi paltarı.
Gözəl səslə ötən Bilal oxudu şən-şən,
Rumda əzan verirdi o, Həbəşdə ikən.
Qara dəri zəncinin də belə avazdan
Ürəyindən odlar axdı, gözündən al-qan.
Qalın, sıx-sıx qamışlıqdan bir aslan çıxdı,
Oxtək odlu caynaqları ovcuna sıxdı.
Qələm bitmiş yazarın da, sanki belində,
Müşk qoxulu qələmləri tutmuş əlində.
Oturmuşdu od üstündə gənc atlazsatan,
Kül örtülü paltar almış qoca qadından.
O, ipliklər əyirmiş ki, toxusun palaz,
Ancaq palaz yerinəsə, tapmışdır atlaz.
Bacarıqlı bir kimyagər od kürəsinə
Dəmir atıb, ordan qızıl alırdı yenə.
Qızılları doğururdu al qığılcımlar,
Qızılları ətək-ətək səpirdi par-par.
Alovların üstündənsə ucalan tellər
Qızılgülün üstə düşən saçlara bənzər.
Meşələrdən gətirilmiş təptəzə reyhan,
Bəzənmişdi onun ilə saxsıdan güldan.
Od deyildi, güllər idi Cəmşid bağında,
Kökə yapır Günəş üçün çıxan çağında.
Yaxşı-yaman cövhərini çıxarar üzə,
Muğə yoldaş, kahinə də çox yaxın isə.
Pardaxlanmış bir çiçəkdir - yediyi tikan,

Təzə-təzə gözə gəlir çoxdan yaranan!
Qış çağında yoxsullara şərqi oddandır,
Qonşuların qazanından soraq ondandır.
Onun sazı dınqıltıya başlayan zaman
Xoşa gələr Zərdüştün də "Zənd"indən, inan!
"Zənd"in yaxan yanar odu gənclik andırar,
Həmin odu Yer üzündə o şah yandırar.[34]
Sərv budağı üstündə o, gül yarpağıydı,
Gah turaclar, gah kəkliklər öz qonağıydı.
Mərcandanmı ucaldılmış bir çinar kimi,
Üstdə kəklik qaqqıldayar "qumrular" kimi.
Dəysə çinar başına da ördək ayağı,
Onun köksü sızıldayar körpəsayağı.
Ördəklərin özü axı gölü xoşlayar,
Əgər girsə od içinə, hay-küy başlayar.
Bu bağçada ötən quşlar tez-tez coşardı,
Hər birinin öz şərqisi, öz səsi vardı.
Çalğısını başlayandək o setarçalan
Yüz-yüz şərqi susdurmadı, oldu ucalan!
Duzlandıqca qanı-suyu artır ciyərin,
Ayrılıqdan bağrı yanır duztək dəyərin.
Şəkərbura diş ucuna gizlimlər çəkər,
Yeyənlərin dişlərini itilər şəkər.
Ədviyyənin iyi qalxır, ətlər dağlanır,
Müşkin ilə dəmlənmişdir - aşlar buğlanır.
Yeməklərin dadlıları, tamlıları var;
Narınc, turunc, sarı heyva, bir də qızıl nar.
Müğənni də Zöhrə kimi şərqilər deyir,
Sürahilər Müştəritək gözlərə dəyir.
Gülablardan çox xoş olan al şərab ki var,
Bu Varlıqdan Varlıq boyda ağrı aparar.
Danışıqlar incə-incə, mülayim bütün;



Təkcə sazlar səslənirdi ucadan o gün.
Yığnaqdakı yaxınların hamısı yetkin,
Yalnız içki ortalıqda qalırdı ötgün.
İskəndərsə baygın-baygın durub baxırdı,
Cəngin şaqraq şərqiləri sutək axırdı.
Cəng nəğməsi, içki, toyuq, bir də ki reyhan,
Dördgözlülər düşmürdülər dar qucaqlardan.
Yaşamında çoxu belə istəyə yetər,
Dəyərini qazanmasa, olar İskəndər!
Müştəriüz çox gözəl də sağlıq seçirdi,
Zöhrətək şah sağlığına içki içirdi.

* * *

O çağda ki günün artıq yarısı keçdi,
Onda, fələk Yerin yarı yolunu keçdi.
Ulu şah da buyruq verdi; saxlancçı birbaş
Qonaqların önlərinə qoy səpsin şabaş.
Gətirilsin qızıl, bəzək qoy xalvar-xalvar,
Neçə-neçə dəvə yükü ipək, atlazlar.
Həbəş soylu neçə-neçə qulluq göstərən,
Boy-buxunu yaraşıqlı, Günə boy verən
Qoy gətirsin müşk kisələr, zərif ipəklər,
Beyinlərə qan calansın, coşsun ürəklər.
Zümrüdqaşlı üzüklər də saçırdı işıq,
Saysız inci, firuzə, ləl verir yaraşıq.
Zümrüdlərlə bəzədilmiş gözəl tasa bax,
Üstü dolu inciləri - parlaqdan parlaq.
Yaqutlar da süsləyibdir ipək donları,
Tikişlərdə qar tozları tutmuş onları.
Zınqırovu qızıldandır, gəlir qatırlar.
Kəcavəni gətirənlər bura çatırlar.
Cəvahirat dolu olan bu qədər bəzək

Nüşabəyə çatdırıldı bir armağantək.
O, tələsik, tez geyindi armağan donu,
İşıq saçdı, Ay almışdı Günəşdən onu.
Hər gözələ ayrılıqda seçilib tək-tək,
Şah tapşırdı: «Armağanlar verilsin gərək!"
Hər birinin ürəyincə oldu armağan,
Həm geyindi, həm də çatdı evə aparan.
O qədər ki armağanlar aldı hər pəri,
Aparmaqsa ağır oldu bu bəzəkləri.
Ulu şahın önündəcə yeri öpdülər,
Gözlərindən yerə, göyə işıq səpdilər.
Mədənin də öz içindən yığınca gövhər
Gülərüzlə qayıtdılar pəriüzlülər.

## Nüşabənin azad olunması

Gəl, ey saqi, cövhərsaçan camını uzat,
Mənim quru varlığımın gövhərinə qat!
Bəlkə, quru varlığıma yeni can verə,
Cövhər pası dözə bilməz belə cövhərə!

* * *

... Elə ki, şah yaşıl geymiş düzənə çatdı,
Gözəl yerdi bu düzənlik, könlünə yatdı.
Rud səsinin altında o, şərab içirdi,
Başı üstdən fələkdən də ulduz keçirdi.
İçki onu bayğınlatdı, bayğın baxırdı,
Gül suyundan gül üzündən tərlər axırdı.
Rus çarını çağırtdırdı tez öz yanına,
Oturmağa yaxın bir yer göstərdi ona.



Əl-ayağı zəncirdəydi - açdırdı bütün,
Qızıl yelən geyim verdi geyinmək üçün.
Qulağına halqa saldı yiyədir deyə,
İstədi ki, ona qarşı acıq etməyə.
Tutsaqların zəncirləri açıldı daha,
Geyim verdi, baş əysinlər bu ulu şaha.
Buyurdu ki, Nüşabəni tez gətirsinlər,
Bu xörəyi tək yeməyi, de, nəyə dəyər?!
Yubanmadan tələsdilər buyruğa ruslar,
O Günəşin öz yanında Ay tutdu qərar.
Gəldilər də incidilən gözəl kənizlər,
Bəzək-düzək taxmışdılar o Aybənizlər.
Nüşabəni bəzəndirdi yaz çiçəyitək,
Gövhərlərə tutulmuşdu geyimi ipək.
Rusların da saxlancından payı ayırdı,
Bəzəmişdi, onu yenə gəlin sayırdı.
Bir neçə gün yeyib-içdi o başı uca,
Bayğınlığın çağları da başa çatınca
Kəbininə gözlətmədi daha gəlini,
Dəvalinin öz əlinə verdi əlini.
Yaqutlardan, incilərdən vuraraq bəzək,
Alqışladı şah onları ərlə-arvadtək.
Sağ-salamat yola saldı doğma Bərdəyə,
Məbədini ucaltsınlar göylərə deyə.[35]
Dirçəltməyə dağıntıya dönmüş o yeri
Var verməklə ödənildi yolun dəyəri...
Şah onların bu işini yoluna saldı,
Hər bir ordu başçısına qayğılı qaldı.
Rusun əsir çarınasa qaytardı tacı,
Buraxdırıb, sonra kəsdi illik xəracı.
Yola düşdü rus çarı da öz ölkəsinə,
Öz taxtına, öz tacına sevindi yenə.

Bundan sonra, boyun əydi şah buyruğuna,
Şərab içib, sağlıq, uğur dilədi ona.
Belə geniş düzənlikdə şah gecə-gündüz
Ova çıxır, şənlənirdi hər günü, sözsüz.
Ağacların kölgəsində çağı keçirdi,
Cəng səsinin altındaca içki içirdi.
Sevinci də çoxalırdı burda günbəgün,
Qayğıları, sayğıları artdığı üçün.
O, gənc idi, ulu şahdı, yaşamı uca,
Axı necə şad olmazdı ad ucalınca?!



# QƏZƏLLƏR

* * *

O Ayüzlüm dünən gecə buludlardan çıxmış idi,
İşim yoluna düşmüşdü, dalğınlıq bərk sıxmış idi.

Çiçəkdənmi inci saçmış, Aydanmı atmış örtüyü,
Kimlərinsə qorxusundan, yoxsa ki, karıxmış idi.

Donuq qaldım, bircə an da ondan gözümü çəkmədim,
Elə bildim, inciləri gözlərimdən axmış idi.

Biz yan-yana uzanmışdıq, bir yataqda dincəlirdik,
Yatan bəxtim oyanmışdı, onsuz çox sınıxmış idi.

Dedi ki: "– Mən gedəsiyəm, nə istəyirsən, girov al!"
Dedim: "– Öpüş!» Bu istəyim məni kökdən yıxmış idi.

Sonra yanan ürəyimə yenidən od vurub getdi,
Alışan od göz yaşıydı - göz bulaqdan çıxmış idi.

Nizami də Şirvanşahın öz başına and içdi ki:
Oyananda anlamışam, yar yuxumdan çıxmış idi![36]

* * *

Dedim: - Ey gül, o nə üzdür, işıq salır bu cahana?
[Dedi: - Üzüm bir Günəşdir, işığı sozalan deyil!]

Dedim: - Artıq ağrı yetər, axı mən doymuşam cana?
[Dedi: - Sevən dözməlidir, bu ağrı azalan deyil!]*

Dedim: - Məni öldürməyin xoş gələrmi bir insana?
Dedi: - Sevgi yoludur bu, sevənlərə nöqsan deyil!

Dedim: - İstəyim budur ki, bayğın düşüm astanana,
Dedi: - Başın daşa dəyər, qovuşmağa imkan deyil!

Dedim: - Öpüş almaram mən, dəyərini atma yana,
Dedi: - Şəkərim tükənməz, bircə öpüş talan deyil!

Dedim: - Sən yuxuya getsən, öpüş oğurlaram, cana,
Dedi: - Gözüm yumulsa da, könlüm yuxu alan deyil!

Dedim: - Nizami dodaqdan öpüş alsın yana-yana,
Dedi: - Şahın saxlancına lağım atmaq asan deyil![37]

* X orta mötərizəyə alınmış misralar tərcüməçinindir.



* * *

Ey mənim bayğın sərvim, ey mənim açan gülüm,
Sən mənim olmasan da, mən ki səninəm, gülüm!

Ağrımı azaldandan ürəyim sənin oldu,
Sıx ürəyi, sıx canı, bəlkə,ağlayım-gülüm!

Qılıncla doğrasalar, əli saçdan üzmərəm,
O çağacan saçının kəməndinə bükülüm!

Susuzdan yandı ciyər, tezcə yanına gəldim,
Bal kimi dodağını dirilik suyu bilim!

Nizamiyə yavıq gəl, divanımın yiyəsi,
Şahlar tacı Axsitan başı ucaltsın, gülüm![38]

* * *

Adınadır gözəlliyin hər nişanı, gözəlim,
Varlığım sənə bağlanıb, canım canı, gözəlim!

Məni şirin öpüşünlə barındırsan, qan düşməz,
Fağır payı belə olub yaşam sanı, gözəlim!

Sordum səndən, söyləyəsən ürəyimin yerini,
Cavab verdin: – Tapanmazsan, yeri hanı, gözəlim!

Göz yaşımı axıdıb mən, yalvarıram, nə çağdır,
Əllərinlə yumayasan haqsız qanı, gözəlim!

Nizami də baş açmayır, bəs necə könül versin?
Nə sevgini qazanmısan, nə ad-sanı, gözəlim!

Mənə olan sayğılardan soruşsa Qızıl Arslan,
Ona nələr deyəcəksən söz zamanı, gözəlim?![39]



* * *

Ey könül, çox hayıf ki, özümə dildar tapmıram,
Ağrımı özün daşı, qəmçəkən qəmxar tapmıram!

Bilirəm, yazıq könlüm, vəfada üzüqarayam,
Vəfalıq göstərmişəm, bircə vəfadar tapmıram!

Gəzirəm eləsini, sözlərinə qızsın qanım,
Sən, bəlkə, tanıyırsan, mən ki harda var, tapmıram?!

Yaxınlığın qoxusuna yaşamımdan keçərəm mən,
Yaşamda buna layiq bir elə həmkar tapmıram!

Hardasa, aradığım ürəkdaş yaşarsa, əgər,
Onu hey arayıram, bəs niyə qərar tapmıram?!

Çöllərdə gülü açan adamın ürəyi gülər,
Ağrıma ağla, könül, tikansız gülzar tapmıram!

Nizami, Gəncədən çıx, bu şeri Şirvana apar,
Şahlarşahından özgə, ona xiridar tapmıram![40]

* * *

Yusiftək gözəllər başı, göyçək, söylə, kiminsən,
Nərgiztək can bulağısan, çiçək, söylə, kiminsən?!

Üzün teldən gözəlləşər, dodaq xalla bəzənər,
Hamısından üstünsən sən, qəşəng, söylə, kiminsən?!

İçki süzdün, bayğınam mən, tor quşuyam, sən dən ol,
Türkdə qulam, Xuzistanda gerçək, söylə kiminsən?!

Çiçək səpib yollarına, nazla belə gedirsən,
Axı kimin qonağısan, görək, söylə, kiminsən?!

Canını da versə belə, Nizami səndən tapmaz,
Özün söylə Şirvanşaha, mələk, söylə, kiminsən?![41]



* * *

Gözəlliyinə sözüm yox, unutqanlıq etməyəsən,
Mənimlə olmağın xoşdur, soyuqqanlıq etməyəsən!

Vəfa nərdində udmağa öpüşü girov qoymusan,
Udmağına udacağam, dəliqanlıq etməyəsən!

Əgər sənə yaxınamsa, ürəkdən-candan yaxınam,
Yoxsa sən də söz qoymusan, mehribanlıq etməyəsən?!

Baş açmıram, nə ağrın var, saymırsan da yaxınlığı,
Axı niyə yol göstərib, bir sarvanlıq etməyəsən?!

Mənə öyüd verirsən ki, get, içki iç, bayğın da ol,
Qəsdin budur, bayğın olum, sən şadyanlıq etməyəsən?!

Ey Nizami, bu sevgidə yaşamı üzünə gülsə də,
Yaxşı olar, yaşamında pərişanlıq etməyəsən!

Əgər Qızıl Arslanın da qəbulunu istəsən sən,
İçki iç ki, bayğın olub, ta xaqanlıq etməyəsən![42]

* * *

Umudluyam, bir gecəyə mənimlə sən yar olursan,
Bu gecə yola gəlməsən, məndən çox kənar olursan!

Nərgiz kimi göz açarsan özgəsinə mehribanca,
Niyə məni görən təki qəmzənlə qəmkar olursan?!

Min-min yağı yanındaca yaxınlıqdan mən dəm vurdum,
Məni alçaltdın onlara, belə vəfadar olursan?!

İstəməyənim ha çoxdur, döy qapısını dostluğun,
Yağılardan nə qorxum var, mənə ümidvar olursan?!

Anlamıram, nə cür quşsan, axı necə tutum, gülüm,
Nə gözüm ovlayır səni, nə tora şikar olursan?!

Bütün şəhər Nizamitək sənə çox ümid bağlayır,
Güman etmə, Axsitandan özgəyə sən yar olursan![43]



* * *

Geniş Varlığın bütün hər yönümü sənindir,
Yüz min canın dincliyə xoş çönümü sənindir!

Gözəlliyindir yazın yeni açmış çiçəyi,
Bənövşə yarpağının al dönümü sənindir.

Sən elə bir sərvsən ki, ucalıbdır bayrağın,
Göylərin diz çökümü, baş enimi sənindir.

Belini bağlayıbsan şəkər qamışı kimi,
Onun yerinə, açan gül yenəmi sənindir?!

Bu Varlıqda varsansa, sevinməyinə dəyər,
Belə çağı kim tapar, sevinc dəmi sənindir?!

İki-üç günlüyə çək yaşam at cilovunu,
Atın iti çaparı, bərk dördəmi sənindir!

Dodağının sədəfi, ey Yusifə xas olan,
Astananı kəsən qul - bu Nizami sənindir!

Varlığın ki şahlığı Arslanın olduğu tək,
Gözəllərin şahlığı, baş önəmi sənindir![44]

* * *

Sənin ağrından özgə, dava mənə kar etməz,
Söylə mənim xətrimə, bu da sənə kar etməz?!

Mənim suçum nədir ki, Varlıq səndən dad çəkir,
Əlindən dalğınlıyam, ağrım yenə kar etməz?!

Düz yolundan, dözümdən əl üzmüsən biryolluq,
Bəs dözümüm hardadır, gərsəm sinə, kar etməz?!

Yanlışları yaz mənə, bu sözün çaları var,
Sözündə yanlış olmur, dönə-dönə kar etməz?!

Tez-tez başıma qaxma, Arran şəhərindənsən,
Nizami kənddən gəlmir, bu da sənə kar etməz?![45]

**Beyt**

Çox istərdim, Xaqani desin ağı üstümdə,
Min-min əfsuslar olsun, qaldı dağı üstümdə![46]



## QAYNAQLAR


1. Külliyyate-Xəmse həkime-Nizami Gəncəvi, Tehran, 1370(1991),1351 səh.
2. "Divan"qəsaide və qəzəlleyate-Nizami Gəncəvi, Tehran, 1362(1983), 470 səh.
3. Nizami Gəncəvi. Sirlər xəzinəsi (çevirəni: S.Rüstəm), B., Azərnəşr, 1947, 175 səh.
4. Nizami Gəncəvi. Sirlər xəzinəsi (çevirənlər: S.Rüstəm və A.Sarovlu), B., "Yazıçı", 1981,192 səh.
5. Nizami Gəncəvi. Sirlər xəzinəsi (çevirəni: X.Yusifli), B., "Adiloğli", 2011, 208 səh.
6. Nizami Gəncəvi. Məxsənül-əsrar (çevirəni: Mirsəlal Zəki), B., "Müəllim", 2011, 300 səh.
7. Nizami Gəncəvi. Sirlər xəzinəsi (filoloji çevirmə: R.Əliyev), B., "Elm", 1981, 250 səh.
8. Nizami Gəncəvi. Xosrov və Şirin (çevirəni: R.Rza, ərəb əlifbasında) B., Azərbaycan Mədəni Rabitə Cəmiyyəti, 1948, 302 səh.
9. Nizami Gəncəvi. Xosrov və Şirin (çevirəni: R.Rza), B., "Yazıçı", 1983, 404 səh.
10. Nizami Gəncəvi. Xosrov və Şirin (çevirəni: X.Yusifli), B., "Adiloğlu", 2011, 288 səh.
11. 11.Nizami Gəncəvi. Xosrov və Şirin (filoloji çevirmə: H.Məmmədzadə) B., "Elm", 1981, 376 səh.
12. Nizami Gəncəvi. Leyli və Məcnun (çevirəni: S.Vurğun, ərəb əlifbasında), B., Azərbaycan Mədəni Rabitə Cəmiyyəti, 1946, 304 səh.
13. Nizami Gəncəvi. Leyli və Məcnun (çevirəni: S.Vurğun), B., "Yazıçı", 1983, 304 səh.
14. Nizami Gəncəvi. Leyli və Məcnun (filoloji çevirmə: M.Əlizadə), B., "Elm", 1981, 291 səh.
15. Nizami Gəncəvi. Yeddi gözəl (çevirəni: M. Rahim), B., "Yazıçı", 1983, 365 səh.

16. Nizami Gəncəvi. Yeddi gözəl (filoloji çevirmə: R.Əliyev), B., "Elm", 1983, 360 səh.
17. Nizami Gəncəvi. İskəndərnamə (Şərəfnamə), çevirənlər: A.Şaiq, M.Rzaquluzadə, B., "Yazıçı", 1982, 622 səh.
18. Nizami Gəncəvi. İskəndərnamə (Şərəfnamə), çevirəni: A.Şaiq, B., "Lider nəşriyyat", 2004, 432 səh.
19. Nizami Gəncəvi. İskəndərnamə (Şərəfnamə, İqbalnamə), filoloji çevirmə: Q.Əliyev, V.Aslanov, B., "Elm", 19873, 652. səh.
20. Nizami Gəncəvi. Lirika. Sirlər xəzinəsi. Yeddi gözəl (çevirəni: X.R.Ulutürk) B., "İdeal-print", 2011, 799 səh.
21. Nizami Gəncəvi. Qəzəllər (tərtib edəni: H.Araslı). B, Azərnəşr, 1956, 85 səh.
22. Nizami Gəncəvi. Qəzəliyyat (fars dilində) tərtib edəni: M.Sultanov, B., "Yazıçı" 1981, 116 səh.
23. Nizami Gəncəvi. Qəzəllər. Rübailər. Qəsidələr. (çevirəni: R.Təhməzoğlu), B., "Nurlan", 2007, 144 səh.
24. Nizami Gəncəvi. Lirika (filoloji çevirmə. M.Əlizadə), B., "Elm", 1983, 164 səh.
25. Nizami Gəncəvi. İskəndərnamə (çevirəni: X.R.Ulutürk), B., "Gənclik", 2002, 866 səh.



# ÇEVİRMƏLƏRDƏ İŞLƏNƏN AZƏRBAYCAN ADLARI

**"Sirlər xəzinəsi"– ("Gizlimlər saxlancı") əsərindən**

1. Gəncə məni etməsəydi özünə belə yaxın,
Yetişərdi, sözsüz, mənə saxlancları İraqın.
Bütün Varlıq bir ağızdan bağırır qulamına:
– Gəncə sənə çox dar gəlir, Nizami sığmaz ona!
(Yeni çevirmə)

گنجه گره کرده گریبان من
بی گرهی گنج عراق آن من
بانگ براورد جهان کای غلام
گنجه کدامست و نظامی کدام
(1, s. 118)

Gəncə mənim yaxamı düyünləyibdir,
Bu düyün olmasaydı, İraqın xəzinələri mənim olardı.
Bütün dünya bar-bar bağırır ki, ey qulam,
Gəncə hara, Nizami hara!
(fil. çevirmə, R.Əliyev), (7, s. 186)

Boğazımı gör necə düyünləyibdi Gəncə,
Yoxsa İraq xəznəsi mənim olardı, məncə.
Aləm deyir: "Övladsan sən dünyaya, Nizami,
Sığışmazsan Gəncədə gen dünyaya, Nizami"
(S.Rüstəm, A. Sarovlu), (4, s. 153)

Gəncə mənim yaxamdan möhkəm yapışıb hələ,
İraq xəzinələri, yoxsa keçərdi ələ.
Bir səs gəldi cahandan – Ey qul, yetər əyləncə!
Axı kimdi Nizami, axı hardadı Gəncə?
(X.Rza Ulutürk), (20, s. 283-284)

Gəncə giribanıma vurmuş dügün,
Gənci-İraq, yoxsa mənimdi bu gün.
Hayqırır "– Ey bəndə: – cahan aşkara:
Gəncə hara, söylə, Nizami hara!"
(Mir Cəlal Zəki), (6, s. 179)

Gəncə tutubdur yaxamı ərk ilə,
Yoxsa İraq xəznəsin allam ələ.
Aləmə aləm dinərək saldı səs:
Kim bu Nizami, haradır Gəncə bəs?
(X.Yusifli), (5, s. 199)

**"Xosrov və Şirin" əsərindən**

2. Başdan –başa o hamıya yetməmişdi heç,
Bərdədəydi əlyazması, itməmişdi heç.
(Yeni çevirmə)

بیاضش در گذارش نیست معروف
که در بردع سوادش بود موقوف(1, s. 142)

Bəyazı dillərdə məruf deyildi,
Bərdədə bir kənara atılmış yazısı vardı.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 49)

Bilən yox idi bu nadir alması,
Bərdədəydi onun bir əlyazması.
(R.Rza), (8, s. 35)

Tanıyan yoxdur bu gözəl alması,
Bərdədə var idi bir əlyazması.
(R.Rza), (9, s. 48)



Tanınmırdı, bu dilbər kölgədəydi,
Bir əlyazması, ancaq Bərdədəydi.
(X.Yusifli), (10, s. 44)

3. Neçə mənzil aralıda, dağlar ardında,
Dərbənd dəniz limanına sökək yurdunda
Şahlıq edən bir qadındır-şah törəməsi;
Qoşununun İsfahana çatır cəng səsi.
Bu ölkənin ta Arrandan Armana kimi
O qadındır başbiləni-odur hakimi.
(Yeni çevirmə)

از آنسوی کهستان منزلی چند
که باشد فرضه دریای دربند
زنی فرماندهست از نسل شاهان
شده جوش سپاهش تا سپاهان
همه اقلیم اران تابه ارمن
مقرر گشته بر فرمان ان زن(1, s. 154)

Dağlığın o tərəfində, bir neçə mənzillikdə,
Dərbənd dənizinin limanı yerləşən yerdə
Şahlar nəslindən bir qadın hökmranlıq edir,
Onun qoşununun (cəngi) səsi İsfahana çatır.
Bütün ölkə Ərrandan Ərmənədək
O qadının hökmünə tabedir.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 62)

Dərbənd dənizinin bir sahmanında,
Bir gözəl ölkə var dağlar yanında.
Şəhzadə qadındır orda hökmran,
Qaynaşır qoşunu İsfahanacan.
Arrandan başlamış Ərmənə qədər
Onun fərmanına boyun əgirlər.
(R.Rza), (8, s. 47)

Dərbənd dənizinin bir sahmanında,
Bir gözəl ölkə var dağlar yanında
Şahzadə qadındır orda hökmran,
Yayılmış qoşunu İsfahanacan.
Arrandan başlanmış Ərmənə qədər
Onun fərmanına boyun əyirlər.
(R.Rza), (9, s. 62-63)

O dağlar mülkünün bir sahmanında,
O Dərbənd adlı dəryanın yanında
Qadın bir hökmdar var, şah soyundan,
Çatar hay Isfahana ordusundan.
O iqlimdə olan Arran və Ərmən
Onun hökmündədir, gördüm tamam mən.
(X.Yusifli), (10, s. 58)

4. İlkin adı –Səmiradır başçı qadının,
Mehin banu anlamıdır – gözəl adının.
İgidlikdə kişilərdən qalmaz geriyə,
"Mehinbanu" çağırırlar – başçıdır deyə!
(Yeni çevirmə)

شمیرا نام دارد آن جهانگیر
شمیرا را مهین بانوست تفسیر
نشست خویش را در هر هوائی
بهر فصلی مهیا کرده جائی(1, s. 155)

O hökmdarın adı Şəmiradır,
Şəmiranın mənası MəhinBanudur.
İgidliyi kişilərdən artıqdır,
Böyüklüyünə görə Məhin Banu adlandırırlar.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 62-63)



Cürətdə kişidən heç geri durmur,
Böyük olduğu üçün Məhin Banudur.
Şəmira adlanır o qoçaq qadın,
Böyükdür mənası bu gözəl adın.
(R.Rza), (8, s. 48)

Şəmira adlanır o göyçək qadın,
Böyükdür mənası bu gözəl adın.
Cürətdə kişidən heç geri durmur,
Böyük olduğundan Məhin Banudur.
(R.Rza), (9, s. 63)

Şəmira adlanar hakim o rəna,
Məhinbanu deməkdir bu Şəmira.
Kişilərdən igiddir, həm dilavər,
Böyükdür ki, Məhinbanu demişlər.
(X.Yusifli), (10. s. 58)

5. Çiçək çağı köç eyləyər gözəl Muğana,
Hara ayaq qoyca, dönsün yaşıl ormana.
Çıxar Arman dağlarına yay aylarında,
Gəzər nazla yaylasında, dolaylarında.
(Yeni çevirmə)

بفصل گل بموقانست جایش
که تا سر سبز باشد خاک پایش
بتابستان شود بر کوه ارمن
خرامد گل بگل خرمن بخرمن(1, s. 55)

Gül fəslində yeri Muğandır ki,
Ayaq basdığı yerlər (həmişə) yaşıllıq olsun.
Yayda Ərmən dağlarına çıxar,
Nazla güllükləri və tarlaları bir-bir gəzər.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 68)

Gül fəsli gəlincə yatağı-Muğan,
Yayda Ərmən dağın eyləyər məkan.
(R.Rza), (8, s. 48)

Gül fəsli yamyaşıl Muğan-yatağı,
Yay zamanı yeri Ərmən torpağı.
(R.Rza), (9, s. 63)

O, gül fəsli tutar məskən Muğanda,
Yaşıllıqlar gəzər xoş bir məkanda.
Yaşar yay vaxtı Ərmən dağlarında,
Keçər güldən-gülə şadlıqla onda.
(X.Yusifli), (10, s. 58)

6. Qışda isə o, Bərdədə qurar yuvanı,
Çox xoşlayar bu yerdəki ılıq havanı.
(Yeni çevirmə)

زمستانش ببردع میل چیراست
که بردع راهوای گرمسیر است(1, s.155)

Qışda Bərdəyə meyl göstərər,
Çünki qışda Bərdənin havası isti olur.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 63)

Bərdənin havası çox mötədildir,
Hər il qış zamanı o, bura gəlir.
(R.Rza), (8, s. 48)

Bərdənin havası çox mötədildir,
Hər il qış zamanı o, bura gəlir.
(R.Rza), (9, s. 63)



O, qışda Bərdəyə meyl eyləyər bərk,
Olur qış vaxtı Bərdə isti gerçək.
(X.Yusifli), (11, s. 58)

7. Üzü ağ gül, saçlarının çiçək ətri var,
Dodağı bal, adını da Şirin qoyublar!
Nuş adlanır dodağının gülüşü onun,
Sayılır da öz varisi Mehin Banunun.
(Yeni çevirmə)

رخش نسرین و بویش نیز نسرین
لبش شیرین و نامش نیز شیرین
شکرلفظان لبش را نوش خوانند
ولیعهد مهین بانوش دانند(1, s. 157)

Üzü nəsrin, zülfünün qoxusu da nəsrindir,
Dodağı da şirin, adı da Şirin.
Dodağının şəkər gülüşünə nuş deyirlər,
Məhinbanunun vəliəhdi adlandırırlar.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 64-69)

Üzü nəsrin kimi, qoxusu nəsrin,
Dodağı şirindir, adı da Şirin

Gözəl söz deyənlər ona can deyir,
O, Məhin banunun vəliəhdidir.
(R.Rza), (8, s. 49)

Üzü nəsrin kimi, qoxusu nəsrin,
Dodağı şirindir, adı da Şirin.
Gözəl söz deyənlər ona can deyir,
O, Məhin Banunun canişinidir.
(R.Rza), (9, s. 65)

Üzü nəsrin, qoxurdu zülfü nəsrin,
Dodaqlar dadlı, şirin, adı Şirin.
Dodaq güldükcə, baldır söyləmişlər,
Məhinbanuya varisdir, demişlər.
(X.Yusifli), (10, s. 60)

8. Şəbdiz deyər Şirin qara atın adına,
Gecə oyaq bayquşdan çox vurğun atına.
(Yeni çevirmə)

نهاده نام آن شبرنگ شبدیز
بر او عاشق تر از مرغ شب آویز(1, s. 158)

O gecə rəngli atının adını Şəbdiz qoyub,
Ona gecə oyaq qalan bayquşdan da bərk aşiq olub.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 66)

Rəngi gecə rəngi, Şəbdizdir adı,
Şirin candan artıq sevir o atı.
(R.Rza), (8, s. 50)

Rəngi şəvə rəngi, Şəbdizdir adı,
Şirin İshaq kimi sevir o atı.
(R.Rza), (9, s. 66)

Gecərəng o ata Şəbdiz qoyub ad,
Ona Bayquştək aşiq o pərizad.
(X.Yusifli), (10, s. 61)

9. Ağız Şirin olmayacaq deməklə şəkər,
Yola düş, get Qasistana, iş uzun çəkər.
(Yeni çevirmə)
مگر شکر حکایت مختصر کن
چو گفتی سوی خوزستان گذر کن158 .s ,1)



Şəkər deməklə ağız şirin olmaz,
İndiki söylədin, zəhmət çək, Xuzistana get.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 66)

Şəkər adı çəkmə, sözü qısa et,
Şəkər dedinsə, dur, Xuzistana get!
(R.Rza), (8, s. 51)

Şəkər adı çəkmə, sözü qısa et,
Şəkər söylədinsə, Xuzistana get!
(R.Rza), (9, s. 67)

Hekayət bitdi, gəl saçma şəkər sən,
Dedin, Xuzistana eylə səfər sən.
(X.Yusifli), (10. s. 62)

10. Biyabandan yeltək keçdi, çöldən ötüşdü,
Axır, Arman dağlarında atından düşdü.
(Yeni çevirmə)

برنده ره بیابان در بیابان
بکوهستان ارمن شد شتابان(1, s. 159)

Çöldən, biyabandan keçib,
Sürətlə Ərmən dağlarına çatdı.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 67-68)

Çox səhradan aşdı, çöllərdən keçdi,
Nəhayət, mənzilə gəlib yetişdi.
(R.Rza), (8, s. 53)

Çox səhradan aşdı, çöllərdən keçdi,
Ərmən dağlarına gəlib yetişdi...
(R.Rza), (9, s. 68)

O çöllərdən haman sürətlə keçdi,
Həm Ərmən dağları səmtə yetişdi.
(X.Yusifli), (10, s. 63)

11. Yanar Günəş baş qaldırdı Albürc dağından,
Təzələndi neçə ayin Cəmşid çağından.
(Yeni çevirmə)

سر از البرز برزد جرم خورشید
جهان را تازه کرد آیین جمشید(1, s.161)

Əlbürz dağının başından Günəş baş qaldırdı,
Cəmşidin ayinlərini dünyada təzələdi.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 69)

Əlbürzün başında Günəş göründü,
Cəmşid qanunu geriyə döndü.
(R.Rza), (8, s. 54)

Əlbürzün başında Günəş göründü,
Cəmşidin xələtinə dünya büründü.
(R.Rza), (9, s. 70)

Günəş Elbursun üstündən çıxanda
O cəm ayini başlandı cahanda.
(X.Yusifli), (1, s. 65)

12. O gün ordan "Pəri odu" pirinə kimi,
Qanad açıb süzdülər də pərilər kimi.
(Yeni çevirmə)

وزآنجا تا در دیر "پری سوز"
پریدند آن پریرویان بیکروز(1, s.164)



Oradan "Pəri yandıran" ocağınadək o gün
O pəriüzlülər qanad açıb uçdular.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 72)

O yerdən "Pərisuz" kilsəsinədək,
O pəriuzlulər getdi yüyürək.
(R.Rza), (8, s. 57)

O yerdən "Pərisuz" kilsəsinədək
O pəriüzlülər getdi yüyürək.
(R.Rza), (9, s. 74)

O yerdən ta Pərisiz deyrinədək
Uçub getdi pərilər bir pəritək.
(X.Yusifli), (10, s. 68)

13. Getdi Mehin Banunun da yanına Şirin,
Baş endirib, qarşısında dil açdı şirin:
"- Ey Varlığın fəth edəni, istəyirəm mən,
Ova çıxım gözəllərlə lap səhər tezdən..."
(Yeni çevirmə)

ریجهانگ یک انیریش گ فت ب باذو
ریب نخج ف ردا شدن خواهم ب رون (1, s. 171)

Şirin Məhin Banuya dedi: "– Ey dünya fatehi,
İstəyirəm, səhər ova çıxam..."
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 81)

Banuya söylədi Şirin: "– Cahangir!
Sabah könlüm ova çıxmaq istəyir...
(R.Rza), (8, s. 63)

Banuya söylədi Şirin: "– Cahangir!
Könlüm sabah ova çıxmaq istəyir..."
(R.Rza), (9, s. 82)

14. Biləndə ki, atasına eyləyib acıq,
O, ovlaqdan Arman sarı yollanıb açıq.
(Yeni çevirmə)

ری ذ خج ی سو پ در می‌ب از ک ه
(1, s. 184) ری‌ذ دب ک رد ارمن ی سو وزآن جا.

Biləndə ki, atasının qorxusundan ova çıxıb,
Orpadan da Ərmən tərəfə gedib.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 94)

Bildi, şahdan qorxub ova getmişdir,
Oradan da Ərmənə səfər etmişdir.
(R.Rza), (8, s. 75)

Bildi, qorxub şahdan, ova getmişdir,
Ərmənlər tərəfə səfər etmişdir.
(R.Rza), (9, s. 97)

Xəbər tutdu gedib Xosrov, nəhayət,
O qorxub şahdan. Ov adıyla getmiş,
Həm oradan Ərmənə doğru yol etmiş.
(X.Yusifli), (10, s. 91)

15. Sonra qalxıb, üz çevirdi Muğana sarı,
Muğandan da başlanırdı Qaslar yolları.
(Yeni çevirmə)

از آنجا سوی موقان سربدر کرد
زموقان سوی باخرزان گذر کرد (1, s. 185)



Oradan Muğana tərəf yollandı,
Muğandan da Xəzərilərə sarı keçdi.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 97)

Ordan gedib çıxdı birbaş Muğana,
Muğandan da keçdi düz Baxərzana.
(R.Rza), (8, s. 77)

Ordan birbaş gedib çıxdı Muğana,
Muğandan da keçdi düz Baxərzana.
(R.Rza), (9, s. 99)

Durub oradan Muğan səmtə yönəldi,
Muğandan sonra Baxərrzana gəldi.
(X.Yusifli), (10, s. 93)

16. – Diləyimiz budur sizdən, Bərdəyə gəlin,
Bütün qışı oradaca qalıb dincəlin!
(Yeni çevirmə)

مهین بانو زمین بوسید و برجست
بخسرو گفت مارا حاجتی هست
که دارالملک بردع را نوازی
زمستانی در آنجا عیش سازی(1, s. 186)

Xosrova dedi: – Sizdən bir xahişimiz var,
Bərdə mülkünə iltifat göstərib,
Bir qışı orda kef sürəsiniz.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 98)

Dedi: – Gəl bizimlə Bərdəyə gedək,
Qışı orda qalaq, gəzək kef edək.
(R.Rza), (8, s. 78)

Dedi: – Gəl, bizimlə Bərdəyə gedək,
Qışı qalaq orda, gəzək, kef edək.
(R.Rza), (9, s. 100)

Mehinbanu baş əydi, qalxdı sonra,
Tutub üz Xosrova, dindi o rəna
Ki, paytaxt Bərdəni oxşa bir az sən,
Qışı orda keçir, rahatlan, əylən.
(X.Yusifli), (10, s. 94)

17. Dan yerinin ağaranda al yanaqları,
Xosrov ordan yola düşdü Ağbağa sarı.
(Yeni çevirmə)
سپیده دم ز لشگرگاه خسرو
سوی باغ سپید آمد رواروو (1, s. 187)

Hava işıqlanan vaxt Xosrov düşərgədən
Ağbağa sarı yola düşdü.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 98)

Sübh olunca Xosrov durdu ayağa,
Ordan yol eylədi birbaş Ağ bağa.
(R.Rza), (8, s. 78)

Sübh açıldı, Xosrov qalxdı ayağa,
Oradan yollandı birbaş Ağbağa.
(R.Rza), (9, s. 100)

Obaşdan şah buyurdu, qalxdı ordu,
Getaget düşdü Ağbağ səmtə doğru.
(X.Yusifli), (10, s. 94)



18. Sarayından qaytararkən Şapur Şirini
Sözləşsə də, tapanmadı şahın yerini.
Gülgün atın yəhərindən düşürtdü onu,
Tapşırdı öz diyarına Mehin Banunun.
(Yeni çevirmə)

چو شیرین را ز قصر آورد شاپور
ملک را یافت از میعاد گه دور
فرود آوردش از گلگون رهوار
بگلزار مهین بانو دگر باد. (1, s. 197)

Şapur Şirini qəsrdən gətirdikdə
Şahı vəd etdiyi yerdə görmədi.
Yorğa Gülgünün belindən endirib,
Yenə də onu Mehin banunun gülzarına tapşırdı.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 110)

Şirini götürüb qayıtdı Şapur,
Lakin gördü, Xosrov o yerdə yoxdur.

Şirini Gülgündən düşürdü yenə,
Banunun o gözəl güllüklərinə.
(R.Rza), (8, s. 89; 9, s. 112)

Gətirdi qəsrdən Şirini Şapur,
O gördü, ancaq orda şah yoxdur.
Onu Gulgundən endirdi bu yerdə,
O Banu gulşəni gül gördü bir də.
(X.Yusifli), (10, s. 105)

19. Minbir qorxu, cığır, yoxuş gətirdi cana,
Üzgün düşüb, o yetişdi Azərbaycana.
Oradansa yol götürdü Muğana sarı,
Muğlar kimi ürəyində od duyğuları.

(Yeni çevirmə)

بصد نیرنگ و دوستان راه بیراه
بآذربایگان آورد بن گاه
وز آنجا سوی موغان کرد منزل
مغانه عشق آن بتخانه در دل(1, s. 199)

Min hiylə-rənglə, yolla, cığırla
Özünü Azərbaycana çatdırdı.
Oradan da Muğana tərəf mənzil saldı,
O bütxanənin sevgisini Muğlar kimi ürəyində bəsləyirdi
(fil. çevirmə, H.Məmədzadə), (11, s. 112)

Yüz hiylə ilə keçdi o yan-bu yana,
Yetirdi özünü Azərbaycana.
Sızlayan köksündə Şirinin dərdi
Ordan düz Muğana atı döndərdi.
(R.Rza), (8, s. 92)

Yüz hiyləylə qaçıb o yan-bu yana,
Yetirdi özünü Azərbaycana.
Sızlayan könlündə Şirinin dərdi
Birbaş Muğan deyib, atı döndərdi.
(R.Rza), (9, s. 115)

O, yolsuz-yollu hər hiyləylə, yolla
Azərbaycana gəldi bu üsulla.
Ürək bütxanə, muğ sevdası canda,
Çıxıb ordan məkan tutdu Muğanda.
(X.Yusifli), (10, s. 108)

20. O, Aydırsa, Günəşin öz boyndanıq biz,
O, Keyxosrov, Alp Ər Tonqa soyundanıq biz!
(Yeni çevirmə)



گر او ماهست ما نیز آفتابیم
و گر کیخسرو است افراسیابیم(1, s. 202)

O, Aydırsa, biz də Günəşik,
O, Keyxosrovdursa, biz Əfrasiyabıq.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 116)

Əgər o, Aydırsa, biz bir Afitab,
O, Keyxosrovdursa, biz Əfrasiyab.
(R.Rza), (8, s. 95)

Əgər o, Aydırsa, biz afitabıq,
O, Keyxosrov, bizsə Əfrasiyabıq.
(R.Rza), (9, s. 119)

O, Aydırsa, əgər, biz Afitabıq,
O, Keyxosrovsa, biz Əfrasiyabıq
(X.Yusifli), (10, s. 112)

21. Onlar həm də Kür çayında açıb zənciri:
Balıq tutdu, quş ovladı burda hər biri.
Atlarını Qoruq çölə məhmizlədilər,
Çölü ceyran və qulandan təmizlədilər.
(Yeni çevirmə)

گهی راندند سوی دشت مندور
تهی کردند دشت از آهوی گور(1, s. 214)

Gah da Kür çayında zəncir açdılar,
Çoxlu balıq, quş ovladılar.
Gah da Mənzur çölünə sarı at sürdülər,
Çölü ceyrandan, qulandan təmizlədilər.
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 129)

Bəzən çay başında cərgə qurdular,
Balıq ovladılar, ya quş vurdular.
Şahrud sahilində düşərək bəzən,
Yeyib-içirdilər, könülləri şən.
Gah Məntur çölündə at sürürdülər,
Maraldan, ceyrandan öldürürdülər.
(R.Rza), (8, s. 105)

Bəzən ovlaqları oldu Kürbasar,
Çox quş ovladılar, balıq tutdular.
Gah Məntur çölünə at sürürdülər,
Ceyrandan, maraldan öldürürdülər.
(R.Rza), (9, s. 133)

Kürə gah vurdu onlar bərk zəncir,
Balıq, quş tutdular etməklə tədbir.
Gəzib at sürdülər Məntura doğru,
Nə ceyran qoydular orda, nə ahu.
(X.Yusifli), (10, s. 125)

22. Nəkisa da o gözəlin istəyi ilə
"Rast" üstündə bu qəzəli oxudu belə...
(Yeni çevirmə)

نکیسا بر طریقی کان صنم خواست
فروگفت (خواند) این غزل در پرده راست(1, s. 151)

Nəkisa o sənəmin istədiyi tərzdə
Bu qəzəli rast pərdəsində oxudu...
(fil. çevirmə, H.Məmmədzadə), (11, s. 278)

Belə bir qəzəli dedikcə Şirin
Nəkisa oxudu rast üstə həzin...
(R.Rza), (8, s. 234)



Nəkisa, necə ki demişdi Şirin,
Bir qəzəl oxudu rast üstə həzin...
(R.Rza), (9, s. 288)

O Şirin söyləyən qayda Nikisa
Tez etdi bir qəzəl rast üstə ifa
(X.Yusifli), (10, s. 274)

**"Leyli və Məcnun" əsərindən**

23. Açılmışdı Ayparası qaşlarım tağ-tağ,
Nizaminin söz "Divanı" önümdəydi, bax!
(Yeni çevirmə)
ابروی هلالیم گشاده
دیوان نظامیم نهاده(1, s. 441)

Hilali qaşlarım açılmış,
Nizami "Divan"ı (qarşıma) qoyulmuşdu.
(fil. çevirmə, M.Əlizadə), (14, s. 34)

Qaşlarım açıldı, sanki bir kaman,
Qarşımda dururdu yazdığım divan.
(S.Vurğun), (13, s. 45)

24 Türkəsayaq davranmaqdan iş aşmaz bizə,
Türkəsayaq deyimlərsə yaraşmaz bizə!
(Yeni çevirmə)
ترکی صفت "صفتی" وفای ما نیست
ترکانه سخن سزای ما نیست(1, s. 442)

Türkçəlik bizə vəfalı olmağın sifəti (əlaməti) deyil,
Türkvara deyilmiş söz bizə layiq deyil.
(fil. çevirmə, M.Əlizadə), (14, s. 35)

Türk dili yaramaz şah nəslimizə,
Əskiklik gətirər türk dili bizə.
(S.Vurğun), (13, s. 47)

25. Axı belə diləyibdir Şirvanşah məlik,
Şirvan deyil, o, İrana şahdır üstəlik!
(Yeni çevirmə)

خاصه ملکی چو شاه شروان
شروان چه که شهریار ایران(1, s. 443)

Xüsusi ilə ki, Şirvanşah kimi bir məlik,
Nə Şirvan, hətta İran şəhriyarı (hökmdarı) ki…
(fil. çevirmə, M.Əlizadə), (14, s. 36)

Bir də ki, Şirvanşah- o baş hökmüdar,
Şirvana, İrana olmuş şəhriyar.
(S.Vurğun), (13, s. 48)

26. Bu sənətdən ad-san umub, tapınma ona,
Bu ucalıq Nizamidə yetişdi sona.
(Yeni çevirmə)
زین فن مطلب بلند نامی
کان ختم شده است بر نظامی(1, s. 456)

Bu sənətdən şöhrət axtarma,
Çünki o, Nizami ilə sona çatmışdır.
(fil. çevirmə, M.Əlizadə), (14, s. 52)

Şeirdən ucalıq umma dünyada,
Çünki Nizamiylə qurtardı o da.
(S.Vurğun), (13, s. 65)



**"İskəndərnamə" əsərindən**

27. Şah bir daha qayıdanda İraqa yenə,
Düşdü burda doğma elə dönmək fikrinə.
Azərabadgan elçisi də elə bu zaman
Şaha məktub gətirdi o öz başçısından…
(Yeni çevirmə)
دگر ره درآمد بملک عراق
سوی خانه خویش کرد اتفاق
بریدی درآمد چو آزاد گان
زفرمانده آذر آبادگان(1, s. 995)

Bir daha o, İraq mülkünə gəldi,
Öz evinə qayıtmaq fikrinə düşdü.
Bu anda Azərabadqan hökmüranından
Azadələr kimi bir qasid gəldi.
(fil. çevirmə, Q.Əliyev), (19, s. 196)

Oradan atını İraqa sürdü,
Yunana dönmək üçün hazırlıq gördü.
Böyük Azərbaycan hökümdarından
Bir elçi gələrək dedi: – "Hökmüran"
(A.Şaiq), (18, s. 199)

İraqa dönəndə yada nə düşdü,
Evinə qayıtmaq fikrinə düşdü.
Bu dəm elçi gəldi bir hökmdardan,
Məktub göndərmişdi Azərbadgan:
(X.Rza Ulutürk), (25, s. 288)

28. Adye soydan bir igid var Abxaz elində,
Hətta Rüstəm döyüşünü çəkməz dilində.
Onun adı Dəvalidir, at üstə gəzər,

Qorxunc aslan dərisini boğazdan üzər.
Güvənirlər igidləri Armanın ona,
Bel bağlayıb dayanırlar hər buyruğuna.
(Yeni çevirmə)

در ابخاز كرديست عادى نژاد
كه از رزم رستم نيارد بياد
دوالى بنام آن سوار دلير
برآرد دوال از تن تند شير
دليران ارمن هوا خواه او
كمر بسته بر رسم و بر راه او(1, s. 995)

Abxazda Ad nəslindən bir pəhlivan vardır,
Rüstəm döyüşünü də yadına gətirməz.
Bu atlının adı Dəvalidir,
Qəzəbli şirin dərisini (boğazından) çıxarır.
Ərmən qoçaqları onun havaxahıdır,
Onun rəsminə tabe, ona bel bağlamışlar.
(fil. çevirmə, Q.Əliyev), (19, s. 196-197)

Orda Ad nəslindən bir pəhləvan var,
Qüvvəti Rüstəmin gücünə çatar.
Adı Dəvalidir, hər bağrı yarır,
Aslan dərisindən yosun qoparır,
Ərməndə yaşayan bütün igidlər,
Yalnız bu padşaha boynunu əyər...
(A.Şaiq), (18, s. 199)

Abxazda Ad soylu bir pəhləvan var,
Zal oğlu Rüstəm tək atlı bayraqdar.
Adı Dəvalidir o suvarinin,
Cəngdə dərisini çıxarar şirin.
Ərmən igidləri ona havadar,
Onun qüdrətinə bel bağlamışlar.
(X.Rza Ulutürk), (25, s. 288-289)



29. Varlıq şahı eşidincə ondan bunları
Tez Babildən qoşun çəkdi Armana sarı.
Təmizlədi o ölkəni bu qarışıqdan,
Rum şahının özünə də xoş gəldi Arman.
(Yeni çevirmə)

جهاندار كاين زور بازو شنيد
سپه را ز بابل بارمن كشيد
فروشست از آلايش آن بوم را
پسند آمد ارمن شه روم را(1, s. 995)

Cahandar bu qol zorundan xəbər tutunca
Qoşunu Babildən Ərmənə çəkdi.

Bu bulaşıqdan o ölkəni təmizlədi,
Ərmən Rum şahının xoşuna gəldi.
(fil. çevirmə, Q.Əliyev), (19, s. 197)

Elə ki eşitdi hökmdar bunu,
Babildən Ərmənə çəkdi ordunu.
Yayaraq o yerdən qanı, fitnəni,
Rum şahı bəyəndi xeyli Ərməni.
(A.Şaiq), (18, s. 199)

Bu xəbər qeysərin şəninə dəydi,
Qoşunu Babildən Ərmənə çəkdi.
Ərmən Rum şahının xoşuna gəldi,
Xıltdan təmizləndi, kefi düzəldi.
(X.Rza Ulutürk), (25, s. 289)

30. Bərdə yurdu göz oxşayır, onun torpağı,
Nə yaz ayı gülsüz olar, nə də qış çağı.
(Yeni çevirmə)

خوشا ملک بردع که اقصای وی
نه اردیبهشت است بی گل نه دی(1, s. 997)

Bərdə mülkü gözəldir, onun ətrafı
Nə ordubehişt (ayında) gülsüz olar, nə də dey (ayında).
(fil. çevirmə, Q.Əliyev), (19, s. 199)

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
(A.Şaiq), (18, s. 201)

Güldür gülüstandır Bərdə, əslində,
Həm bahar mövsümü, həm qış fəslində,
(X.Rza Ulutürk), (25, s. 292)

31.Dörd bir yanda cənnət bağı meşələri var,
Kür çayından ətəyinə duru su axar.
Bəzəyidir bu torpağın uca qovağı,
Dönüb İrəm bağçasına gözəl Ağbağı.
(Yeni çevirmə)

بهشتی شده بیشه پیرامنش
زگر کوثری بسته بردامنش
سوادش زبس سبزه و مشک بید
چو باغ ارم خاصه باغ سپید(1, s. 997)

Onun ətraf meşələri behişt bağıdır,
Kürdən də ətəyinə kövsər bağlamış.
Torpağı hədsiz yaşıllıq və budmişkdən
İrəm bağına (dönübdür), xüsusilə Bağı-səfidi.
(fil. çevirmə, Q.Əliyev), (19, s. 199)

O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.



Söyüdlük çöllərə vermişdir zinət,
Ağbağı, elə bil, həqiqi cənnət.
(A.Şaiq), (18, s. 201)

Kövsər bulağıdır ətəyində Kür,
Ormanı behiştdən gözəl görünür.
"Ağ bağ"ı, elə bil, İrəm bağıdır,
Yaşıl söyüdləri yaz bayrağıdır.
(X.Rza Ulutürk), (25, s. 292)

32. "Hərum" deyə ad vermişdi keçmişlər ona,
Hər söz açan Bərdə deyir bu gün adına!
(Yeni çevirmə)

هرومش لقب بود از آغاز کار
کنون بردعش خواند آموزگار(1, s. 998)

Əvvəl gündən onun adı "Hərum" idi,
İndisə öyrədənlər Bərdə deyə çağırırlar.
(fil. çevirmə, Q.Əliyev), (19, s. 200)

"Hərum" adlanırdı bu yurd hər yerdə,
İndisə adına deyirlər Bərdə.
(A.Şaiq), (18, s. 202)

"Hərum" adlanırdı bir vaxt bu yerlər,
İndisə adına Bərdə deyirlər.
(X.Rza Ulutürk), (25, ı. 293)

33. Söz saxlancı qorucusu söylədi belə,
Keçənlərdən qalanları gətirdi dilə:
Bu başçı da bir qadınmış Nüşabə adı,
Bütün ili sarayında şənlik qurandı.
(Yeni çevirmə)

چنین گفت گنجینه دار سخن
که سالار آن گنجدان کهن
زنی حاکمه بود نوشابه نام
همه ساله با عشرت و نوش جام(1, s. 998)

Sözün xəzinədarı belə söylədi:
Bu qədim xəzinənin gözətçisi
Hakim qadındır ki, adı Nüşabə,
İl boyu işi işrət, nuş və cam ilə idi.
(fil. çevirmə, Q.Əliyev), (19, s. 200)

Belə nəql edir söz xəzinədarı
Köhnə xəzinənin adlı saları:
Hakim qadın varmış, adı Nüşabə,
Uymuş il üzünü keyfə, şərabə.
(A.Şaiq). (18, s. 202)

Sərraf təqdim etdi bir söz incisi,
Qədim xəzinənin mərd gözətçisi.
Hakim bir qadındı, adı Nüşabə,
İl boyu aludə keyfə, şərabə.
(X.Rza Ulutürk), (25, s. 293)

34. Onun sazı dınqıltıya başlayan zaman
Xoşa gələr Zərdüştün də "Zənd"indən, inan!
"Zənd"in yaxan yanar odu gənclik andırar.
Həmin odu Yer üzündə o şah yandırar.
(Yeni çevirmə)

ترنگا ترنگی که زد ساز او
به از زند زردشت و اواز او
بدین زندگی آتش زند سوز
بر افروخته شاه گیتی فروز (1, s. 1015)



Onun sazı drınq-drınqa başlayarkən
Çaldığı hava Zərdüştün "Zənd"indən xoş gəlir.
"Zənd" yaxan atəşi bu canlılıqla
Dünyaya nur saçan şah yandırdı.
(fil. çevirmə, Q.Əliyev), (19, s.219)

Sazının telləri edər zümzümə,
Zərdüştün "Zənd"indən xoşdur bu nəğmə!
"Zənd" ilə Zərdüştü yaxan atəşi
Yaxmışdır dünyanın böyük Günəşi.
(A.Şaiq), (18, s. 223)

Alov tellər üstdə dınqıldar sazı,
Zərdüştün "Zənd"indən xoşdur avazı.
Aləmə nur saçan oda verdi can,
"Zənd" yaxan atəşə duz atdı xaqan.
(X.Rza Ulutürk), (25, s. 322)

35. Yaqutlardan, incilərdən vuraraq bəzək
Alqışladı şah onları ərlə-arvadtək.
Sağ-salamat yola saldı doğma Bərdəyə,
Məbədini ucaltsınlar göylərə deyə.
(Yeni çevirmə)

چو پیرایه گوهری دادشان
قرار زناشوهری دادشان
ببردع فرستادشان بی گزند
که تا بر کشند آن بنا را بلند(1, s. 1133-1134)

Onlara incidən bəzək vuraraq
Ər-arvadlıq əhdini onların arasında bağladı.
Sağ-salamat onları Bərdəyə göndərdi,
Ta onun binasını göylərə ucaltsınlar.
(fil. çevirmə, Q.Əliyev), (19, s. 351)

Bu mübarək ayin yetincə başa
Verdi çox xəzinə, tutdu daş-qaşa.
Şövkətlə göndərdi yenə Bərdəyə,
O gözəl ölkəni ucaltsın deyə.
(A.Şaiq), (18, s. 361)

Kəbin cəlalını fəxr ilə qurdu,
Onlara incidən min bəzək vurdu.
Bərdəyə göndərdi onları, - Gedin,
Orda hər binanı kahkəşan edin!
(X.Rza Ulutürk), (25, s. 516)



# QƏZƏLLƏR

36. Nizami də Şirvanşahın öz başına and içdi ki;
– Oyananda anlamışam, yar yuxumdan çıxmış idi!
(R.Təhməzoğlu), (23, s. 30)

خورد سوگند نظامی بسر شروانشاه
گه چو بیدار شدم یار بخواب آوده بود. (22,s.37)

Nizami Şirvanşahın başına and içdi ki;
Oyananda bildim ki, yar yuxuma gəlmişdi.
(fil. çevirmə, M.Əlizadə), (24, s. 51)

Ey Nizami, dedi, birdən ayılıb, gördüm o yox,
Demə, royadə bizə çeşmi-xumar gəlmiş idi.
(C.Xəndan), (21, s.60)

37. Dedim: -Nizami dodaqdan öpüş alsın yana-yana,
Dedi: – Şahın saxlancına lağım atmaq asan deyil!
(R.Təhməzoğlu), (23, s. 34)

گفتمش: بوسی از آن لب بنظامی بسپار
گفت: درمخزن شه نقب زدن دشوارست(22,s.38)

Dedim: – O dodağından Nizamiyə bir öpüş ver,
Dedi: – Şah xəzinəsinə bağım vurmaq çətindir!
(fil. çevirmə, M.Əlizadə), (24, s. 42)

38.Nizamiyə yavıq gəl, divanımın yiyəsi,
Şahlar tacı Axsitan başı ucaltsın, gülüm!
(R.Təhməzoğlu), (23, s. 44)

سوی نظامی خرام، تا بتو سر برکند
تاج ملوک اخستان، صاحب دیوان من(2,s.319)

Nizamiyə tərəf gəl ki, mənim divanımın sahibi,
Padşahların şahı olanAxsitan səninlə onun
başını ucaltsın!
(fil. çevirmə, M.Əlizadə), (24, s. 70)

Şahlara tac Axsitan, göylərə qaldır məni,
Ey bu Nizami üçün sahibi-divan olan!
(C.Xəndan), (21, s. 81, )

Can de Nizamiyə gəl, ta ki, ucaltsın bizi,
Ən ulu şah Əxsitan- sahibi divanımız
(X.Rza Ulutürk), (20, s. 58)

39. Mənə olan sayğılardan soruşsa Qızıl Arslan,
Ona nələr deyəcəksən sorğu anı, gözəlim?!
(R.Təhməzoğlu), (29, s. 49)

گر پرسدت از تو نوازش تو
با شاه قزل چه نکته گویی؟(20,s.102)

Sənin mənə necə navaziş etdiyindən
Qızıl (Arslan) şah soruşsa, nə deyəcəksən?
(fil. çevirmə, M.Əlizadə), (24, s. 86)

Gəl söylə, cavabın nə olar sorğu zamanı,
Əhvalımı səndən soruşarsan Qızıl Arslan?
(M.Dilbazi), (21, s. 54.)

Mümkünmü, deyim nəvazişindən,
Əhvalımı sorsa Qızıl Arslan?!
(X.Rza Ulutürk), (20, s. 67)

40.Nizami, Gəncədən çıx, bu şeri Şirvana apar,
Şahlarşahından özgə, ona xiridar tapmıram!
(R.Təhməzoğlu), (23, s. 52)



نظامی گنجه خالی کن، سخن را نقد شروان کن
که جز شاهنشاه عادل خریداری نمی یابم. (20,s.56)

Nizami, Gəncəni tərk et, şeri Şirvana apar ki,
Adil şahənşahdan, başqa, şerə xridar tapmıram!
(fil. çevirmə, M.Əlizadə), (24, s. 58)

Nizami, Gəncəni tərk et, apar ver şeri Şirvanə
Sözün qədrin bilən sərrafa, tacidara möhtacam.
(X.Rza Ulutürk), (20, s.74)

41.Nizami canını üzər, sənin kimi qonaq gəzər,
Şirvanşaha özün,əzəl, mələk, söylə, sən kiminsən?!
(R.Təhməzoğlu), (23, s. 62)

نظامی گر دهدت جان را، نیابد چون تو مهمان را
بگو مرشاه شروان را، درین دوران کرایی تو؟(20,s.76)

Nizami canını belə versə sənin kimi qonağı tapmaz,
Barı Şirvan şahına söylə, bu dövranda sən kiminsən?!
(fil. çevirmə, M.Əlizadə), (24, s. 74)

42. Əgər Qızıl Arslanın da qəbulunu istəsən sən,
İçki iç ki, bayğın düşüb, ta xaqanlıq etməyəsən!
(R.Təhməzoğlu), (29, s. 67)

گر قبول قزل شهت باید
می خوری، پارسایی نکنی(2,s.338

Əgər Qızıl şahın (Arslanın) qəbulunu istəsən,
Şərab iç, pəhrizkarlıq etmə!
(fil. çevirmə, M.Əlizadə), (24, s. 83)

43.Bütün şəhər Nizamitək sənə çox ümid bağlayır,
Güman etmə, Axsitandan özgəyə sən yar olursan!
(R.Təhməzoğlu), (23, s. 69)

همه شهر چون نظامی، بامید تو و لیکن
نرسد جز اخستان را که در کنار باشی(20,s.91

Bütün şəhər Nizamitək sənə ümid bəsləyir, lakin
Axsitandan başqa, bir kəsə nəsib olmaz ki,
Sən onun olasan!
(fil. çevirmə, M.Əlizadə), ( 24, s. 80)

Şəhər əhli sənin eşqində Nizami kimidir,
Nə rəva, Axsitana münisü dildar olasan!
(N.Rəfibəyli), (21, s. 59)

Hər sevən sanır, onunsan, leyk sən Əxsitansan,
Get, ona yaxınlaş, ey can, a Nizamidən kənarım
(X.Rza Ulutürk), (20, s. 67)

44. Varlığın ki şahlığı Arslanın olduğu tək
Gözəllərin şahlığı, baş önəmi sənindir!
(R.Təhməzoğlu), (23, s. 78)

شاهی بتان تراست امروز
چون شاهی عالم ارسلان را(2,s.262)

Dünyanın şahlığı Arslana xas olduğu kimi.
Bu gün gözəllərin şahlığı da sənindir!
(fil. çevirmə. M.Əlizadə), (24. s. 37-38)

Sənsən eşq tacı, gözəllər şahı,
Necə ki, aləmin şahıdır Arslan.
(X.Rza Ulutürk), (20, s. 41)



45. Tez-tez başıma qaxma, Arran şəhərindən,
Nizami kənddən gəlmir, bu da sənə kar etməz?!
(R.Təhməzoğlu), (23, s. 92)

مراغلط مکن، ار تو ز شهر ارانی
نظامی، ای صنم از روستا نمی آید. (2,s.290)

Mənə irad tutma sən, Arran şəhərindənsənsə,
Ey sənəm, Nizami də kənddən gəlmir.
(fil. çevirmə, M.Əlizadə), (24, s. 53)

46. **Beyt**

Çox istərdim, Xaqani desin ağı üstümdə,
Min-min əfsuslar olsun, qaldı dağı üstümdə!
(R.Təhməzoğlu), (23, s. 92)

بدل بودم که خاقانی دریغا گوی من گردد
دریغا زانکه من گشتم دریغاگوی خاقانی (2,s.349)

Könlümdən keçirdi ki, Xaqani mənə mərsiyə desin,
Əfsus ki, mən Xaqaniyə əfsus deyən oldum.
(fil. çevirmə, M.Əlizadə), (24, s.87)

## RƏŞİD TƏHMƏZOĞLU
## (RƏŞİD TƏHMƏZOĞLU QULİYEV)



Rəşid Təhməzoğlu istedadlı şair-tərcüməçi, şərqşünas alim-tədqiqatçı, folklorçu və publisist kimi tanınır. O, 1939-cu il may ayının 30-da Zəngəzur mahalı, Qafan bölgəsindəki Yuxarı Girətağ kəndində müəllim ailəsində anadan olmuşdur.

Rəşid Təhməzoğlu ədəbi və elmi fəaliyyətə keçən yüzilliyin 50-ci illərinin sonlarından başlamışdır. Orta məktəbdə dərs deməklə yanaşı, Bakı Dövlət Universitetinin filologiya fakültəsinin axşam şöbəsində təhsilini davam etdirmişdir. Universiteti bitirdikdən sonra 1968-1987-ci illərdə arxiv quruculuğu sahəsində baş elmi işçi, şöbə rəisi, elmi işlər üzrə direktor müavini və direktor vəzifələrində çalışmışdır.

1987-ci ilin may ayından AMEA sistemində elmi fəaliyyətdədir. Hazırda akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin aparıcı elmi işçisidir, Türkiyə ədəbiyyatı ilə bağlı ardıcıl araşdırmalar aparır.

1958-ci ildən dövri mətbuat səhifələrində bədii, elmi və publisistik yazıları dərc olunur. 1996-cı ildə "Əhməd Cəmilin yaradıcılıq yolu" mövzusunda dissertasiya müdafiə edərək, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. İndiyə kimi, 200-dən artıq elmi və publisistik məqaləsi mətbuatda dərc olunmuşdur.

Rəşid Təhməzoğlu "Üzeyir Hacıbəyov" fotoalbomunun (1976, 1985, şərikli), şair Ə.Vahidin "Seçilmiş əsərləri" ikicildliyinin (1975, şərikli), "Səhnədən keçən yollar" teatr xatirələrinin (1983, şərikli), "Sevdim Azərbaycanı" adlı dünya xalqları şairlərinin Azərbaycan haqqında şeirlərindən ibarət toplunun (1980), "Bakıya gedirəm..." (Nazim Hikmət və Azərbaycan) kitabının (1984), "Dik gedib, dik gəlirsən" (1998), "Zəngəzur folkloru antologiyası" (2009) folklor toplularının tərtibçilərindəndir.

Bir şair kimi, "Ay sevənim, sevənim" adlı ilk poetik toplusu 1997-ci ildə işıq üzü görmüşdür. Bundan sonra, "Yağmur" (2001), "Başını dik tutsun Çıraqbalımız" (2005), "Qorxu" (2006), "Sevgimin çalarları" (2009), "Başını dik tutsun Çıraqbalımız" (2012), "Ulularım. Doğmalarım. Yaxınlarım" (2012), "Ucalıqda söz çağına çatmışam" (2015), "Azərbaycan torpağında yerim var" (2017), "Qorxu" (2019) kimi şeir və poemalardan ibarət topluları nəşr olunmuşdur.

Onun yaradıcılığında ərəb və fars sözləri işlənmədən yazılan əsərlər ayrıca mərhələ təşkil edir. Bu baxımdan, "Qaraqapı", "Dədəm Qorqut" (1999, 2004, 2007) epos-poemasını, "Öz doğmaca dilimdə" (2001), "Özümü özümdən qoruya bilsəm!" (2013) poetik toplularını və "Deyiklilər. Qasğan xan" (2013) dramlarını nümunə göstərmək olar.

O, uşaqlar üçün də şeirlər, hekayələr, mənzum nağıllar, tapmacalar və yanıltmaclar qələmə almışdır. Bu sıradan "Körpələrədir sözüm" (2002), "Günəş işığı" (2002), "Nağıllı bağça" (2010), "Bağçada şeir günü" (2012) topluları nəşr edilmişdir.

Rəşid Təhməzoğlu "Ucalıq yurdu" (2004), "Zəngəzur zənguləsi" (2004), "Bizim dost itirən vaxtımız deyil" (2005), "Zəngəzurun vuran əli" (2007), "Bünyatlılar" (2011), "Girətağ" (2015), "Sözümün dəyəri" (2019) kimi bədii-publisistik kitabların, "Nazim Hikmətin yaradıcılığında Şərq" (2007, 2008) monoqrafiyasının müəllifidir.

Tərcümə sahəsində də onun müəyyən uğurları vardır. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin lirikasını, Hatif

İsfahaninin rübailərini, Məhəmmədhüseyn Şəhriyarın məsnəvisini, xalq artisti Fatma Qədrinin "Həyatımdan səhifələr" adlı xatirələrini uğurla dilimizə çevirib, çap etdirmişdir. "Azərbaycan Nizami poeziyasında" adlı tərcümə toplusu dünyaşöhrətli sənətkarın yaradıcılığına ikinci müraciətidir.



# TOPLUYA DÜŞƏNLƏR


Elmi redaktordan – Aydın Abi Aydın ........ 3 s.

**"Sirlər xəzinəsi" ("Gizlimlər saxlancı") əsərindən**

Kitabın sonu barədə ........ 8 s.

**"Xosrov və Şirin" əsərindən**

Kitabın tərtibi və sevginin incəlikləri barədə ........ 12 s.
Şapurun Şirini öyməsi və Xosrovun ona vurulması ........ 21 s.
Şirinin sorağı ilə Şapurun Armana getməsi ........ 27 s.
Şapurun Şirinə Xosrovun şəklini göstərməsi ........ 30 s.
Şapurun Şirinə ikinci yol Xosrovun şəklini göstərməsi ........ 32 s.
Şapurun Şirinə üçüncü yol Xosrovun şəklini göstərməsi ........ 34 s.
Şapurun Şirinə görünməsi ........ 36 s.
Şirinin ova çıxması və oradan Mədainə yollanması ........ 45 s.
Şirinin Xosrovun sarayına yetişməsi ........ 50 s.
Xosrovun öz atasından üz döndərməsindən Şirinin soraq tutması ........ 51 s.
Xosrovun Armana çatması ........ 54 s.
Xosrovun Mehin Banuya Şirindən soraq çatdırması ........ 56 s.
Şapurun Şirini Armana qaytarması ........ 60 s.
Xosrovun Bəhramdan qaçıb Armana getməsi ........ 61 s.
Xosrovla Şirinin ovlaqda üz-üzə gəlmələri ........ 62 s.
Mehin Banunun Şirinə öyüd verməsi ........ 65 s.
Şirinin qız yoldaşlarının məsəl söyləmələri ........ 70 s.
Xosrovun ayrılığından Şirinin sızlaması ........ 76 s.
Mehin Banunun Şirinə vəsiyyəti və ölümü ........ 79 s.
Şirinin adından Nəkisanın qəzəl oxuması ........ 84 s.
Büzürq Ümidin "Kəlilə və Dimnə"dən qırx anlam söyləməsi.. 86 s.
Oğluma öyüd ........ 89 s.

**"Leyli və Məcnun" əsərindən**

Kitabın yazılma səbəbi ........ 92 s.
Kitabın yazılması və gözügötürməzlərin qurğuları ........ 98 s.
Öz oğluna öyüd ........ 101 s.

**"Yeddi gözəl" əsərindən**
Oğlum Məhəmmədə öyüd .................................................. 106 s.

**"İskəndərnamə" ("Şərəfnamə"dən) əsərindən**
İskəndərin Ərəbistana getməsi və Kəbəni ziyarət etməsi
("İskəndərin Armana və Abxaza yürüşü") ............................ 113 s
İskəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi ........... 116 s.
İskəndərin Nüşabə ilə yığnaq keçirməsi ................................ 139 s.
Nüşabənin azad olunması ...................................................... 144 s.

**Qəzəllər**
O Ayüzlüm dünən gecə buludlardan çıxmış idi ...................... 147s.
Dedim: – Ey gül, o nə üzdür, işıq salır bu cahana? ................ 148 s.
Ey mənim bayğın sərvim, ey mənim açan gülüm! .................. 149 s.
Adınadır gözəlliyin hər nişanı, gözəlim! ............................... 150 s.
Ey könül, çox hayıf ki, özümə dildar tapmıram ...................... 151 s.
Yusiftək gözəllər başı, göyçək, söylə, kiminsən ..................... 152 s.
Gözəlliyinə sözüm yox, unutqanlıq etməyəsən ....................... 153 s.
Umudluyam, bir gecəyə mənimlə sən yar olursan ................ 154 s.
Geniş Varlığın bütün hər yönümü sənindir ........................... 155 s.
Sənin ağrından özgə, dava mənə kar etməz .......................... 156 s.
Beyt ......................................................................................... 156 s.
Qaynaqlar ............................................................................... 157 s..

**Çevirmələrdə işlənən azərbaycan adları**
"Sirlər xəzinəsi" – (Gizlimlər saxlancı) əsərindən ................ 159 s.
"Xosrov və Şirin" əsərindən .................................................. 160 s.
"Leyli və Məcnun" əsərindən ................................................ 177 s.
"İskəndərnamə" ("Şərəfnamə") əsərindən ............................ 179 s.
Q ə z ə l l ə r .......................................................................... 187 s.
Rəşid Təhməzoğlu (Rəşid Təhməzoğlu Quliyev) ................. 192 s.